ب

Bu kitab başda hafiz, tarix müəllimi, şəhid Elgün Quliyev olmaq üzrə bütün şəhidlərimizin əziz xatirələrini yad etmək üçün “Gəncliyə Yardım Fondu” tərəfindən çap edilmişdir.
Ruhları şad, məkanları cənnət olsun.
Allah bütün şəhidlərimizə rəhmət eyləsin.

**Bakı - 2023**

**Hazırlayan:**
Akif HÜSEYNOV
Sahib ALTAY

**Nəşrə Hazırlayan:**
f.f.d Rüfət ŞİRİNOV

**Korrektor:**
Məhəmməd MƏLİKOV

**Dizayn:**
Əflatun MƏMMƏDOV

**Qapaq:**
Nicat QƏRİBOV

**Bakı-2023; İpəkyolu Nəşriyyatı: XXX-XXX**

**İSBN: 978-9952-XXX-XX-X**

**Ünvan** : Bakı şəhəri, Səbail rayonu,
Cəfərov Qardaşları, 16
**Tel** : (+994 12) 492 14 38
**Mobil** : (+994 70) 412 22 82
**Web sayt** : www.ipekyolunesriyyati.az
**Elektron poçt** : ipekyoluneshriyyati@gmail.com

# Göylərdən göylərə

Bir şəhidin gündəliyi

# Azərbaycan Respublikasının Dövlət himni

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Namusunu hifz etməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!
Azərbaycan! Azərbaycan!

Əhməd CAVAD

# İstiklal Marşı

Korkma, sönmez bu şafaklarda yüzen al sancak;
Sönmeden yurdumun üstünde tüten en son ocak.
O benim milletimin yıldızıdır, parlayacak;
O benimdir, o benim milletimindir ancak.

Çatma, kurban olayım, çehreni ey nazlı hilâl!
Kahraman ırkıma bir gül! Ne bu şiddet, bu celâl?
Sana olmaz dökülen kanlarımız sonra helâl...
Hakkıdır, Hakk'a tapan, milletimin istiklâl!

Ben ezelden beridir hür yaşadım, hür yaşarım.
Hangi çılgın bana zincir vuracakmış? Şaşarım!
Kükremiş sel gibiyim, bendimi çiğner, aşarım.
Yırtarım dağları, enginlere sığmam, taşarım.

Garbın âfâkını sarmışsa çelik zırhlı duvar,
Benim iman dolu göğsüm gibi serhaddim var.
Ulusun, korkma! Nasıl böyle bir îmânı boğar,
"Medeniyet!" dediğin tek dişi kalmış canavar?

Arkadaş! Yurduma alçakları uğratma, sakın.
Siper et gövdeni, dursun bu hayâsızca akın.
Doğacaktır sana va'dettiği günler Hakk'ın
Kim bilir, belki yarın, belki

Mehmet Akif ERSOY

## Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyev:



”Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kimə sirr deyil ki, “Dağlıq Qarabağ ordusu”nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

## Turkiyə Cumhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan:



"Azərbaycanı hədəf alan təcavüzkar həmlələrinə davam edən Ermənistan bölgədə sülh və əmin-amanlığın önündə ən böyük əngəl olduğunu bir daha göstərmiş oldu. Ermənistanın təhrikedici hücumlarına qarşı gərəkli və yetərli reaksiyanı göstərməkdən aciz olan beynəlxalq ictimaiyyət bir daha ikili standartdan hərəkət etdiyini ortaya qoydu. 30 ilə yaxın bir zaman ərzində məsələnin həlli yolunda heç bir tutarlı addım ata bilməyən Minsk üçlüsü bir daha öz acizliyini isbat etdi. Bölgədə sülhə gedən yol Ermənistanın işğal etdiyi hər qarış Azərbaycan torpağından çıxmasından keçir. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün İmkanları ilə azərbaycanlı qardaşlarının yanındadır!".

## Təqdimat

İslam dinində vətəni sevmək imandandır. Vətən uğrunda şəhid olanlar haqqında Rəbbimiz Qurani-Kərimdə belə buyurur: **"Allah yolunda öldürülənlərə "ölülər" deməyin! Əksinə, onlar diridirlər, lakin siz bunu hiss etmirsiniz."**[1] Şəhid olmaq hər şeydən əziz və dəyərli olan canını müqəddəs dəyərləri uğrunda fəda edərək ölümsüzləşməkdir. İnsan vəfat edincə torpağa tapşırılır. Şəhid isə peyğəmbərin gül ətirli qucağına tapşırlır. Şair bunu necə də gözəl ifadə edib:

*"Ey şəhid oğlu şəhid, istəmə məndən məqbər,*
*Sənə ağuşunu açmış duruyor Peyğəmbər."*

(M. Akif Ersoy)

Yazılan hər bir əsərin qəhrəmanı və məzmunu oxucunun emosiyalarına birbaşa təsir edir. Bəzi əsərlərin bitməsini istəməz oxucu. Bəzilərini isə oxuyaraq qəhərlənər. Şəhidlər haqqında yazılan bütün əsərlər onların xatirəsini əbədi yaşatmaqla yanaşı, yaxınları üçün əzizlərini tarixin sonsuzluğuna həqq etdiyinə görə fərəh səbəbidir. Hər bir şəhid xəbəri yaxınlarını üzməklə yanaşı, onun necə bir zirvə olduğunu anlayanlar üçün qürur səbəbidir.

Əlinizdəki əsər hafiz, müəllim Elgün Quliyevin əziz xatirəsini əbədiləşdirmək və gələcək nəsillərə stimul təşkil etmək məqsədi ilə tərtib edilmişdir. Əsər şəhdilik haqqında ümumi

1. Bəqərə surəsi 154

məlumat verən “Giriş” bölməsi ilə başlayır. Hafiz şəhidimizin “Şamaxı batalyonu” adını verdiyi gündəliyi birinci bölmədə öz yerini alarkən, onun haqqında ailə üzvləri, müəllimləri, hafiz dostları, iş və əsgər yoldaşlarının səmimi xatirələrinin yer aldığı ikinci bölmə ilə davam edir. Kitab şəhidliklə əlaqəli ayələr, hədislər, şeirlərlə yekunlaşmışdır.

Kitabda həqq olunan xatirələrin hər biri üz-üzə görüşmələr nəticəsində ərsəyə gəlmişdir. Eyni zamanda bu materiallar Elgün haqqında yayınlanmış videolardan, ələlxüsus “Dəyər tv”nin hazırladığı “**Tarix Yazan Şəhid Hafiz Elgün Quliyev/Qəhrəmanlıq Zirvəsi”**[2] adlı filimdən istifadə edilərək əbədiləşdirilmişdir.

Hər bir əsər gələcəyə yazılmış məktubdur. Ümid edirəm ki, bu məktub gələcək nəsillərimizin milli-mənəvi dəyərlərinə sahib çıxmasında ciddi referat olacaqdır. Quran hafizi olmaq müəllim olmağa, həm hafiz, həm də müəllim olmaq da vətən uğrunda canını verməyə mane deyil, əksinə şəhidlik duyğusunu kamilləşdirən amillərdir. Bunu Elgünümüz şəhidlik zirvəsiylə əyani şəkildə göstərdi.

Əsərə şəhidimizin anasının xüsusi arzusu nəzərə alınaraq “Göylərdən göylərə”adı verilmişdir. Şəhidimiz yaşadığı Şamaxının Göylər kəndindən, şəhidlik zirvəsinin təmsil edildiyi göylərə, səmaya, sonsuzluğa yüksəlmişdir. Göydə Rəbbimiz tərəfindən xüsusi nemətlərlə mükafatlandırıldığına heç bir şübhəmiz yoxdur.

2. “Dəyər tv”nin hazırladığı filmə Qr kodu oxudaraq və ya linkdən keçid edə bilərsiniz. **https://bit.ly/SehidHafizElgun**

Şübhəsiz ki, əldə edilən zəfər şanlı tariximizə prezidentimizin dəmir yumruğu və cəsur, qəhrəman əsgərlərimizin cəsarəti sayəsində qəhrəmanlıq dastanı kimi həkk olundu.

Əziz millətimiz şəhidlərimizi hüzünlə yad edərkən, onların əldə etdikləri müstəsna şəhidlik zirvəsinə baxaraq qürur duymalı, başlarını dik tutmalıdır. Çünki "Vətən və torpaq şəhidləri ilə ucalır". Şairin də dediyi kimi:

*Bayraqları bayraq yapan üstündəki qandır,*
*Torpak, əğər uğrunda ölən varsa, Vətəndır.*

(Mithat Cemal Kuntay)

Vətən, millət, torpaq, bayraq və bütün ülvi dəyərlərimiz uğrunda canlarından keçən şəhidlərimizi, əlalxüsus hafiz, şəhid qardaşımız Elgünü rəhmət və minnətlə yad edirik. Məkanları cənnət, ruhları şad olsun deyirik. Allah bütün qazilərimizə də şəfalar versin.

Əsərin ərsəyə gəlməsində fədakarlıq gösətən Dr. Rüfət Şirinova, reportaj ve xüsusi görüşlər keçirərək, yazılı və səsli materialları tədqiq edərək yazan Akif Hüseyinova və eyni zamanda ədəbi ifadələri ilə mətni zənginləşdirən və redaktə edən Sahib Altay qardaşımıza təşəkkür edirəm. Video materialları tək-tək yazıya çevirən fədakar könüllülərimizə və şəhid hafizimizlə əlaqəli film tərtib edən "Dəyər tv" əməkdaşlarına mütəşəkkirəm. Həmçinin bu əsəri nəşr edərək oxucularla görüşdürən və Elgünün xatirəsini əbədiləşdirən adlarını bir-bir qeyd edə bilmədiyim bütün müəllimlərinə, yoldaşlarına, xüsusilə İpəkyolu nəşriyatına da təşəkkür etməyi özümə borc bilirəm.

Gəncliyə Yardım Fondunun prezidenti
**Ahmet Tecim**
Bakı-2023

# GİRİŞ

# Giriş

İnsan övladı üçün təbiətin qoynuna atıldığı dövrlərdən etibarən ətraf mühiti, təbiəti müşahidə etmək və tədqiq etmək ilk zərurət kimi ortaya çıxmışdır. Çünki həyatda qalmaq üçün iqlimə, fəslə uyğun yaşam tərzi qurmaq vacib idi. İnsanlıq milyon illər boyunca keçdiyi sosial təkamül prosesində öncə təbiətə uyğunlaşmağı, sonra təbəiətlə paralel cəmiyyət yaratmağı və bu yolda dövrdən-dövrə inkişaf edərək, həyatda qalmağı qarşısına əsas vəzifə kimi qoymuşdur.

İnsan övladı tarixin ilk dövrlərində ildırım, yağış, sel, zəlzələ, vulkan və.s. kimi təbiət hadisələrinə xüsusi fövqəladə hadisə kimi yanaşmış, bu hadisələr qarşısında içindəki qorxu hissi baş qaldırmış, hətta bu qorxunun timsalında müxtəlif inanclar formalaşdırmışdır. Sonralar müxtəlif coğrafiyalarda oturaq, kompakt məskunlaşmalar sayəsində təbiətə və iqlimə uyğunlaşma nəticəsində təbiət hadisələriylə bağlı xeyli qorxular ortadan qalxmışdır. Çünki hansısa bir coğrafiyada davamlı məskunlaşan insan həmin coğrafiyanın iqlimini mənimsəmiş, fəsillərə görə zaman-zaman baş verən bəzi təbiət hadisələrinin təbii proses olduğunu anlamışdır. Buna baxmayaraq, günü bu gün də insanlığın, mədəniyyətin, elm və texnologiyanın hansı səviyyədə inkişaf etməsindən asılı olmayaraq, iqlim dəyişikliyi səbəbiylə baş verən müxtəlif təbiət hadisələri insanlıq tərəfindən fövqəladə hadisə kimi qəbul edilir.

Mədəniyyət demişkən, insanlığın təbiətdəki ilk sığınacağı mağaralar idisə, cəmiyyətdəki mənəvi sığınacağı da kültür və mədəniyyətdir. Kompakt məskunlaşmanın timsalında tarixin sonrakı dövrlərində millləşmə ənənəsinin formalaşması, hər millətin, xalqın öz milli ruhuna uyğun mədəniyyətinin yaranması və mühafizə olunması zərurətini ortaya çıxardı. *Mədəniyyət toplumların şəxsiyyət vəsiqəsidir.*

İnsan bioloji olmaqla yanaşı, həm də sosial canlı olduğu üçün onun həyatda qalmaq məqsədi həm bioloji, həm də sosial-mədəni varlığının davam etməsinə hesablanıb.

Vətən də bir toplumun üzərində öz bioloji varlığını sürdürdüyü, öz ruhuna uyğun milli mədəniyyətini formalaşdırıb, mühafizə etdiyi coğrafi məkanın adıdır. El arasında *"Vətənin hər daşına qurban olum"* kimi bir məşhur ifadə var. Bir insan yaşadığı coğrafiyanın vətənin daşına niyə qurban olmaq istəyir? Çünki o daşı vaxtilə onun əcdadları, babaları hansısa dağın ətəyindən, çayın içərisindən sürüyə-sürüyə gətirib, o daşın üstünə başqa bir daşı qoyub, üzərində evlər, saraylar inşa edib. Müxtəlif evlərin, tikililərin içərisində onun milli kimliyini daşıyan insanlar yaşayıb, mədəniyyət yaradıb, vətən ərsəyə gətiriblər. O daşda onun babasının əl izləri, alın təri var. Cansız da olsa müxtəlif tikinti alətləri ilə yonulub, səliqəyə salınmış o daşların, kərpiclərin üzərinə milliliyin ruhu hopub, üst-üstə yığılması nəticəsində milli mədəniyyətə uyğun qədim memarlıq üslubu öz əksini tapır. Və bunlar hamısı bir millətin sosial-mənəvi varlığını əks etdirir.

Qarabağ da bu millətin, bu xalqın, bu məmləkətin varlığının bir parçasıdır. İşğalı əsnasında düşmən orada həm bizim bioloji varlığımızın qəsdinə durub, uşaqlarımızı tonqalda yandırıb, kişilərimizi güllələyib, qocalarımızı qətlə yetiriblər, həm

də sosial-mənəvi varlığımıza son qoymaq üçün qadınlarımızı əsir alıb, əcdadlarımızın məzar daşlarını qırıb, məscidlərimizi dağıdıblar.

Bəs bu yolda döyüşənlər kimlərdir? Onlar milli qürurun xilasediciləri, düşmən işğalı altında olan milliliyin qurtuluş savaşçılarıdır. Dörd bir tərəfi öz torpağıyla həmsərhəd olan gözəlim bu ölkənin bir həmsərhəddində əsir alınmış milliliyin azadlıq carçılarıdır.



## Dinimizdə şəhid və qazilik anlayışı

İnsan səy göstərib çalışmaqla bir çox rütbə, məqam və sosial statuslara yiyələnə, onları əldə edə bilər. Belə rütbələrin başında əlbəttə, şəhidlik və qazilik gəlməkdədir. Çünki bu məqamlar həyat qarşılığında, qanı və canı bahasına əldə edilməkdə və inanc sayəsində qazanılmaqdadır.

Şəhid sözü ərəbcə bir kəlmədir. Mənası, "öz gözləri ilə görən, şahidlik edən" deməkdir. Bu söz Quranda 50 yerdə keçir. Şəhid sözünün "Allah yolunda canından keçən" mənası da var ki, bu Hz. Peyğəmbər (s.a.v) tərəfindən işlədilmişdir: "*Mən onların (şəhidlərin) Allah yolunda canlarından keçdiklərinə şahid və şəfaətçiyəm*".[3]

Qazi isə Allah və vətən yolunda döyüşdüyü, şəhid olmağı arzu etdiyi halda ölməyib sağ qalan, yaralanmış kəslərə deyilir. Qazi də vətən uğrunda şəhid olmağı gözə aldığı üçün o da şəhidlərin alt mərtəbəsində, qazilik məqamındadır.

Həm Haqq, həm də xalq nəzərində şəhidlik və qazilik böyük məqam və ali mərtəbə sayılmaqdadır.

Şəhid Allah qatında diri olaraq qalacağı, xüsusi ruzi ilə ruziləndiriləcəyinə və cənnətə girəcəyinə şahidlik etdiyi üçün bu adı almışdır.

Allah-Təala şəhidlərin diri olduqlarını və Allah tərəfindən ruziləndirildiklərini bildirir. Onlar ölümləri ilə bu mərtəbəyə

---

3. Buxari, Cənaiz, 75. Məğazi, 26.

yüksəldikləri halda, Allah-Təala onların ölü yox, bizim qavraya bilmədiyimiz bir həyat ilə diri olduqlarını bəyan etmişdir. **"Allah yolunda** öldürülənlərə "ölülər" **deməyin!** Əksinə, **onlar diridirlər, lakin siz bunu hiss etmirsiniz".**[4]

Cənnətə girən heç kəs təkrar yer üzünə geri dönmək istəməz. Ancaq, şəhidlər müstənadır. Onlar şəhidliyin üstün mərtəbəsini, Allah qatındakı dərəcələrini gördükdə təkrar dünyaya dönərək təkrar şəhid olmağı istəyəcəklər. Bu da onu göstərir ki, şəhidlərin Allah qatında həqiqi bir həyatları vardır və bu həyat qayğısız, acısız və əbədidir.

Bizi düşməndən üstün edən ən mühüm xüsusiyyət vətən və müqəddəs dəyərlər uğrunda savaşdıqda "ölsəm şəhid, qalsam qaziyəm" inancıdır. Allah-Təala belə buyurur: **"De: "Siz bizə iki yaxşılıqdan** (qələbə çalmaq və şəhid olmaqdan) **birinin gəlməsini gözləyirsiniz? Biz də Allahın Öz dərgahından və ya bizim əlimizlə sizi əzaba düçar etməsini gözləyirik. Ona görə də gözləyin! Biz də sizinlə birlikdə gözləyirik".**[5]

İnananların yeganə dayağı, arzu və təmənnilərini çatdırdıqları tək varlıq Allah-Təaladır. Heç şübhəsiz ki, Allah-Təala bütün xeyirin, yaxşılığın, rəhmət və qurtuluşun qaynağıdır. Vətən uğrunda döyüşə inanaraq və mükafatını da Allahdan istəyərək gedən şəxslər iki xeyirdən birinə nail olarlar. Ya qazilik şəfərinə nail olar, mələklərin dua və istiğfarına layiq görülər, ya da şəhidlik şərbətini içərək o ali mərtəbəyə ucalarlar. İnanclı biri də bu həqiqəti bildiyi üçün şəhidliyin ölüm yox, dirilik və ölümsüzlük olduğunu bilir və anlayır. Səhabələri vətən və müqəddəs dəyərlər uğrunda döyüş meydanlarından zəfər-

4. əl-Bəqərə, 154
5. ət-Tövbə, 52

dən-zəfərə aparan elə bu düşüncə və inancdır. Çünki, torpaq su ilə yoğrulduqda palçıq, qanla yoğrulduqda isə vətən olur.

Üzərində firavan yaşadığımız bu torpaqlar şəhidlərimizin qanı ilə yoğrularaq bizə vətən olmuşdur. Bu vətən bizə elə şəhidlərimizin əmanəti və mirasıdır.



## Şəhidlərə qarşı vəzifələrimiz

Müstəqilliyimizin qurulması, təkrar bərpası və ərazi bütövlüyümüzün təmin olunması uğrundan canından keçən şəhidlərimiz və bu uğurda sağlamlığını itirən qazilərimiz olmuşdur. Fərd və cəmiyyət olaraq şəhid, qazi və adsız qəhrəmanlarımıza qarşı diqqət, hörmət və qayğını hər zaman göstərməli, bunu vətən borcu olaraq yerinə yetirməliyik.

Bəs şəhid və qazilərimiz üçün nə edə bilər, hansı işləri görə bilərik:

Hər şeydən əvvəl şəhid və qazilərimizi hansı amal, yol və məqsəd uğruna şəhid olduqlarını, qazilərimizin yara aldıqlarını unutmamalıyıq. Şəhid vətən, xalq və dövlət yolunda vətənin bölünməzliyi, xalqın rifahı, dövlətin suverenliyi, milli-mənəvi dəyərlərinin qorunub yaşadılması uğrunda canlarını fəda etmiş, qazilərimiz də bu uğurda sağlamlıqlarını qurban vermişlər. Əgər fərd və ya cəmiyyət olaraq bu amalları unudar, onların əsl məram və məqsədlərindən uzaqlaşarıqsa onlara qarşı ən böyük haqsızlığı etmiş, şəhidlərin əziz ruhlarını incitmiş olarıq. Bu mənada milli birlik və bərabərliyin, həmrəylik və tolerantlığın, ədalət və qarşılıqlı hörmətin, sevgi və yardımlaşma ruhunun artırılması, bunun ənənə olaraq davam etdirilməsi şəhid və qazilərə qarşı vəzifələrimiz arasında ilk başda gəlməkdədir.

Şəhidin uğrunda canını fəda etdiyi torpaqlarda fitnə çıxarmaq, nifaq yaymaq, birliyin və bərabərliyin pozulmasına çalışmaq, dəyərlərə, bayrağa, himnə, Qurana, dinə qarşı

hörmətsizlik etmək, şəhid qanına xəyanət, yarasını döşündə nişan edən qaziyə haqsızlıq və hörmətsizlikdir. Ona görə də ilk olaraq eyni amal, eyni yol və eyni mərama yönəlməli və bunu vətən, dövlət, şəhid və qaziyə qarşı vəzifə və borc olaraq yerinə yetirməliyik.

"Şəhidlər şəhid olduqda deyil, unudulduqda ölürlər" deyə bir ifadə var. Bu mənada şəhidlərimizi unutmamalı, onları hər daim yad etməli, ruhları üçün dualar oxumalı, məzarları ziyarət olunmalı, bizə əmanət olan ailələri yaddan çıxarılmamalıdır.

Milli və mənəvi dəyərlərimizdən gələn ənənələr ilə onların ruhunu şad edəcək işlər görmək, müqəddəs qanları axan torpaqlara sahib çıxmaq şəhidlərə qarşı vəzifələrimizdəndir.

Unutmayaq, vətən və torpaq bizə məhz onların əmanətidir.

## Bir şəhidin hekayəsi



Bir kitaba sığmayan bir ömür. Bir ömrə sığmayan xoş təəssüratlar, xoş xatirələr, əvəzsiz insanlıq nümunələri. Bir ürəyə sığmayan ali vətən sevgisi.

Sevimli övlad, istiqanlı qardaş, sədaqətli dost, ədəbli şagird, uğurlu tələbə, məsuliyyətli işçi, təəssübkeş vətəndaş, xeyirxah insan, hər kəsin üzünə gülən, öz gülüşündən hamıya sədəqə verən səxavətli gənc, Allaha bağlı bəndə, imanına sadiq müsəlman;

Azərbaycanın 3 qədim mədəniyyət mərkəzində şəxsiyyət kimi yetişən - Şamaxıda doğulub, Şəkidə hafiz olub, Şuşada şəhidlik zirvəsinə yüksələn cəsarətli vətən övladı;

Tarix müəllimi olmağı arzu edib, tarix yazan şəhid Elgün Quliyevin hekayəsi.

***

Şəhid, hafiz, tarix müəllimi Elgün Vasif oğlu Quliyev 1992-ci ilin Sentyabr ayının 17-də Şamaxı rayonunun Göylər kəndində ziyalı ailəsində dünyaya göz açmışdır.

Bir də görürsən və ya eşidirsən ki, "qışın oğlan çağı"nda hansısa rayonun ucqar kəndində bir kişinin həyətində heyva ağacı çiçək açıb. İnsanlar bunu möcüzəvi hadisə kimi qəbul



edirlər. Çünki tarixən bu coğrafiyada məskunlaşan əcdadlarımızdan bəri hər fəsilin özünə uyğun nəsnələri müşahidə olunub və eyni tərzdə qəbul edilib. Hansısa fəsildə o mövsüm möcüzə kimi qarşılanır.

Həmin il, həmin tarixdə ölkə əhalisi payızı qarşılmağa hazırlaşırdı. Vasif kişininsə evinin pəncərəsindən bahar günəşi doğmuşdu, ailə ağacı çiçək açmışdı. Üç qız övladından uzun illər sonra oğul övladı doğulmuşdu. Onun dünyaya gəlişi valideynləri, ailəsi, soyadını daşıdığı nəslin nümayəndələri üçün bir möcüzə təsiri bağışlayırdı.

Nənəsi körpəyə İkinci Dünya Müharibəsində itgin düşən həyat yoldaşı, yəni körpənin ata babası Əli kişinin adını vermək istəyir. Anası Qənirə xanım ana həssasiyyətiylə, birdən oğlu da onun taleyini yaşayar deyə, narahat olur. Ailənin ağsaqqalarının, ağbirçəklərinin və valideynlərin razılığıyla böyük bacısı Günel xanımın adındakı hecaların yerini dəyişib, uşağa Elgün adı verirlər.

Elgün illərin arzusu, həsrəti idi. Gəlişiylə ailə xoşbəxtlik sarayına dönmüşdü. Nənəsi Nadya xanım qonşulara, qohumlara, ehtiyaclı insanlara “şirinlik”, hədiyyə, yardım paylamaqla bu sevinci qeyd edirdi.

Dünyanın bir çox öllkələrində olduğu kimi, Azərbaycanda da qız uşağı gələcəkdə evlənib, ər evinə getdiyi üçün, oğlan uşağı nəslin davamçısı və ata ocağının sahibi hesab olunur. Həm də yaşlanan valideynlərin himayəçisi. Elgün də üç qız övladından sonra doğulan “aman-zaman” oğlan övladı olaraq ata ocağının varisi, həm də daşıdığı soyadın sonbeşiyi idi. Atası Vasif kişi həm qardaşı, həm oğlu olmadığı üçün özünü tək hesab edirdi. Elgünün dünyaya gəlişi atasının tək-

liyinə son qoymuşdu. Atası üçün həm qardaş əvəzi, həm də oğul övladı idi.

Övlad ananın bətnində yaranır, onun vasitəsiylə dünyaya gəlir və ilk tanıdığı şəxs də anası olur. Yeni doğulan körpə anasını digər insanlardan qoxusuna görə seçə bilir, bir müddət sonra ananın divardakı siluetini tanıyır. Eynilə övladı da ən yaxşı tanıyan insan anasıdır.

Elgünün anası Qənirə xanım deyir ki: "Mən yeni ayaq açmağa, dil açmağa başladığı vaxtlardan etibarən onu həmişə müşahidə edirdim. Uşaqlıq illərinə qədəm qoyub, həyətdə, küçədə uşaqlarla oynayanda belə, ona göz qoyurdum. O, öz bacılarından da, məhəllədə oyun oynadığı həmyaşılarından da seçilirdi. Heç vaxt kimləsə dalaşmazdı, dilinə qeyri-etik ifadələr gətirməzdi, hər zaman başqalarına qarşı mərhəmətli və humanist idi".

1998-ci ilin Sentyabr ayında altı yaşlı Elgün Göylər kənd 2 saylı orta məktəbin birinci sinfinə daxil olur. Elə ilk günlərdən müəllimlərinin, sinif yoldaşlarının sevimlisinə çevrilir. Babası və nənəsi din əhli olduğuna görə, anası arzu edirmiş ki, Elgünün də dini təhsili olsun. Ancaq azyaşlı olduğu üçün bunu Elgünə bildirmir. Elgün isə öz istəyiylə orta məktəbin 6-cı sinfində ikən Göylər kənd məscidinin nəzdində fəaliyyət göstərən Quran kursuna yazılır. Orada da qısa müddətdə sevilir. Eyni zamanda müəllimi valideynlərinə bildirir ki, bu uşağın güclü yaddaşı var, onun hafizlik kursuna göndərilməsinə razılıq versinlər.

Ölkədə el arasında "1990-cı illərin nəsli" deyilən dövrün uşağı idi. Onun uşaqlığı ölkənin çətinliklər içərisində çırpınan dövrünə düşmüşdü. Müstəqillik yenicə əldə olunmuş, ardından Qarabağ mənfur düşmənlərimiz tərəfindən işğal olunmuşdu.

O dövrün uşaqlarının psixologiyasında Birinci Qarabağ müharibəsinin ağır travmaları var. Bu təsirlər Elgündən də yan keçməmişdi. Atası Vasif kişi Rusiyaya işləməyə getmiş, Elgün və üç bacısı anasının himayəsində qalmışdı. Uşaqlığının çətinliklər içərisində keçdiyini özü də döyüş xatirələrini qeyd etdiyi gündəliyində belə ifadə edir: *"Uşaqlıqdan çox əziyyət çəkmişdim. Belə də bu, hamının həyatında baş verir. Amma insan üçün ayrı-ayrı çətin olur.* Əsgərliyə gələndə hələ də namaz qılırdım. Əsgərlikdən sonra belə, buna davam elədim. Əsgərliyə gələndə ən çox darıxdığım, hamının olduğu kimi, mənim də anam idi. Amma bunu heç kimə biruzə vermirdim".

Bu çətinliklər içərisində Elgün özünə bir yol seçmişdi, təhsil və xoşbəxt gələcək. Ancaq orta məktəb təhsiliylə yanaşı dini təhsil də onun arzularından biri idi.

2006-cı ilin yay aylarında İsmayıllı rayonunda fəaliyyət göstərən "Hafizliyə Hazırlıq Kursu"na qəbul olur. Eyni zamanda orta təhsilini də İsmayıllı rayon N. Behtiyev adına 6 saylı orta məktəbdə davam etdirməyə qərar verir. Qısa zamanda dini təhsil müəssisəsində öz zəkasıyla, qabiliyyətiylə hörmət, sevgi qazanır. Təhsiliylə yanaşı müəssisənin tədbirlərində çıxışçı kimi iştirak edir. Elgünün həm də gözəl səsi və avazı var imiş. O, Quran oxuyanda müəllimləri belə xüsusi maraqla dinləyərmiş.

İsmayıllıda oxuduğu orta məktəbdə də müəllimlər və şagirdlər ona xüsusi sevgi, rəğbət bəsləyirlər. Hətta Elgünün tərbiyəsini, ədəbini, bacarığını təqdir edən məktəb direktoru dini təhsil müəssisəsinin rəhbərinə xəbər göndərir ki, bundan sonra nə qədər tələbəniz olsa, onları orta təhsil almaları üçün bizim məktəbə göndərin.



2006-2007-ci illərdə İsmayıllı rayonunda oxuduğu orta məktəbdə 9-cu sinfi bitirir. Təhsil aldığı hafizliyə hazırlıq kursunu müvəqffəqiyyətlə bitirib, dini təhsilin hafizlik mərhələsinə qədəm qoyur. Dini təhsil müəssisəsi tərəfindən Şəki rayonunda fəaliyyət göstərən "Şəki İslam Hafizlik Kolleci"nə göndərilir. 2007-2008-ci illərdə burada müqəddəs Qurani-Kərimi tam olaraq əzbərləyir. Bununla paralel olaraq Şəki şəhər 18 saylı orta məktəbin 10-cu sinfində oxuyur. 2008-ci ildə "Hafiz" statusu alaraq kollecdən məzun olur.

2009-cu ildə təhsil aldığı dini müəssisə tərəfindən yenidən İsmayıllıya göndərilir, N. Behtiyev adına 6 saylı orta məkətbin 11-ci sinfində təhsilini davam etdirir. Bununla bərabər İsmayıllıda fəaliyyət göstərən "Niyal Hazırlıq Kursları"nda universitətə hazırlaşır.

Elgünün uşaqlıqdan bir arzusu var imiş. Hətta bu, onun həyatının ən böyük arzusu imiş; tarix müəllimi olmaq, Azərbaycanın ucqar dağ kəndlərindən birində öz şagirdlərinə elm tədris etmək. Bəlkə də bu arzu onda ailədən qaynaqlanırdı. Müəllim ailəsində doğulmuşdu. Anası Qənirə xanım Göylər kənd məktəbində ibtidai sinif müəllimidir. Həmçinin böyük bacısı Günel xanım və ortancıl bacısı Günay xanım da ibtidai sinif müəllimliyini bitiriblər, kiçik bacısı Aysel xanım isə Dil-Ədəbiyyat müəllimidir.

Elgünün də arzusu tarix müəllimi olmaq idi. 2010-cu ildə ali məktəblərə qəbul imtahanında iştirak edib, yüksək bal göstəriciylə Sumqayıt Dövlət Universitetinin "Tarix müəllimliyi" ixtisasına qəbul olur. 2014-cü ildə ali təhsilin bakalavr pilləsini bitirib, universitetdən məzun olur.

2014-15-ci illər ərzində Füzuli rayonunun Şükürbəyli kəndində yerləşən "N" saylı hərbi hissənin təyinatında olan

düşmənlə üzbəüz nəzarət məntəqələrindən birində birilllik ali təhsilli kimi hərbi xidmət edir. Ailənin tək oğul övladı ön cəbhədə xidmət etdiyinə görə valideynləri narahat olur, tez-tez Elgünlə görüşə gedirmiş. Elgün isə bu görüşlər əsnasında hər dəfə əliylə düşmən yerləşən mövqeləri göstərib, valideynlərinə belə deyirmiş: *“Baxın, qarşıdakı mövqelər bizim ərazilərimizdir. İndi düşmən tapdağı altındadır. Vaxt gələcək, biz oranı xilas edəcəyik. Gözəl məktəblər tikiləcək. Və mən gəlib, bu torpaqlarda məskunlaşan insanlarımızın övladlarına öz tariximizi öyrədəcəyəm*”.

Hərbi xidmətdən tərxis olunduğu il müəllimlərin işə qəbul imtahanında iştirak edə bilmir.

Uşaq hafizəsində oxuduğu milli tarixin səhifələrini hansı səviyyədə canlandırmasından asılı olmayaraq, onun içində ən ali zirvəyə ucaltdığı vətən sevgisi hərbi xidmətinin Qarabağın cəbhəyanı ərazilərində olmasından dolayı daha da alovlanmışdı. Müharibəyə qədər keçən 28 illik atəşkəs dövründə düşmənin atəşkəsi pozması nəticəsində müxtəlif qısamüddətli atışmaların xəbəri arxa cəbhəyə gəlib, çatırdı. Ancaq atəşkəs dövrünün ilk irimiqyaslı hərbi əməliyyatları 2016-cı ilin Aprel döyüşləri adı altında özünü biruzə verdi və tarixə düşdü. Hərbi xidmətdən yenicə tərxis olunnmasına baxmayaraq, Elgün bu döyüşlərə valideynlərindən gizli könüllü yazılıbmış. Ancaq orduya cəlb edilmir. Bunu sonralar tərtib etdiyi gündəlikdə özü qeyd edir.

Elə həmin ildə Bakıda fəaliyyət göstərən “Özsüt” restoranlar şəbəkəsinin filiallarından birində işə başlayır. Qısa müddətdə kollektivin hörmətini qazanır. Təbəssümüylə qonaqların, zarafatlarıyla iş yoldaşlarının könlünü oxşayır. Müəssisənin rəhbər vəzifələrdən birində çalışan əməkdaşı

danışır ki: *“Elgün insanalarla ünsiyyət qurmaqda xüsusi bacarığa sahib idi. Onun siması o qədər könül oxşayırdı ki, restoranımıza gələn əcnəbi qonaqlar, turistlər belə, gəlib, onunla şəkil çəkdirirdilər”.*

Yaşının gənc olmasına baxmayaraq, uşaqlığından etibarən fərqli mühitlərdə olduğuna, bir neçə məktəbdə təhsil aldığına görə ölkənin bütün bölgələrindən olan dostlarından təşkil olunan geniş çevrəsi var idi.

Dostlarından biri deyir ki: *“O, heç kimi unutmurdu. İş rejiminin ağır olmasına baxmayaraq, hər kəsə vaxt ayırırdı, münasibət saxlayırdı. Onu tanıyan hər kəsin ona xüsusi sevgisi, ehtiramı var idi. İbadətlərində davamlı, imanında möhkəm, ədəbiylə nümunəvi bir dost idi. Gülüşü isə hər kəsə sədəqə idi. Eyni zamanda həddindən ziyadə xeyirxah və əliaçıq insan idi. Neçə-neçə ehtiyaclı insana yardım etmişdi. Yardım etdiyi adamların belə, bu yardımların Elgündən gəldiyindən xəbəri olmurdu”.*

2020-ci ilə kimi çalışdığı restoranlar şəbəkəsində əmək fəaliyyətinə davam edir. Ancaq Elgünün böyük arzusu, məramı vardı; ucqar kəndlərdən birində tarix müəllimi kimi çalışmaq.

Görəsən, hansı ucqar kənd idi o kənd? Elgünün xəyalında canlandırdığı müəllimlik, məktəb, şagirdlər necə idi? O məktəb hansı rayonun ucqar kəndində yerləşirdi? Bu kənd arxa cəbhənin sülh şəraitində yaşayan əhalisininmi kəndi idi, yoxsa gələcəkdə elə Elgünün özünün xilas edəcəyi Qarabağın ucqar kəndi? Çox güman ki, bu kənd Elgünün uğrunda canını fəda edəcəyi, düşmən tapdağında olan kəndlərdən biri idi. Bunu özü də dilə gətirmişdi. Hərbi xidmətdə olduğu zaman görüşünə gələn valideynlərinə Qarabağın sözlə ifadə olunma-



yacaq gözəlliklərini göstərib, demişdi ki: *"Baxın, o ərazilər də bizimdir. İndi düşmən işğalındadır. Vaxt gələcək, biz bu torpaqları azad edəcəyik. Mən gəlib, burada uşaqlarımıza tariximizi öyrədəcəyəm"*.

Həyat yoluna nəzər salanda görürsən ki, sanki həyat özü onu ali məramına doğru hazırlayırmış. Elgün öz elindən-obasından bir qız da seçib, sonalamışdı, sevirdi. Bunu bir müddət sonra valideynlərinə də açıb, demişdi. Ailə tək oğul övladlarının xeyir işinə hazırlıq görür. Elgünün sevdiyi xanıma nişan aparmaq istəyirlər. Nişan hazırlıqları getdiyi vaxtda Elgünün valideynləri qədər çox sevdiyi, hələ uşaq ikən getdiyi qonaqlıqlarda, toy məclislərində ona ikram edilənləri yeməyib Elgünə gətirən nənəsi Nadya xanım xəstələnir. Onun sağalmağını gözləyirlər. Sonra ailənin ağbirçəyi vəfat edir. Bu dəfə Elgün deyir ki, el adətiylə nənəmin ilini gözləyəcəyəm. Daha sonra koronavirus pandemiyası elan olunur. Və beləcə arzulanan xeyir iş təxirə düşür.

Müharibədən öncə belə bir şey olacağı heç kimin ağlına gəlmirdi. Hətta daha səmimi ifadə etsək, ötən illər ərzində keçirilən görüşlər, aparılan nəticəsiz danışıqlar xalqda belə bir təəssürat yaratmışdı ki, biz bir daha o torpaqlara geri dönə bilməyəcəyik. İnsanlarımızın bir qismi Qarabağdan əlini üzmüşdü desək, yalan olmaz.

2020-ci ilin İyul döyüşləri və bu döyüşlərdə Azərbaycan ordusunun general-mayoru Şəhid Milli Qəhrəman Polad Həşimovun şəhid olması xalqın uşağından, qocasına kimi bütün sakinlərində dərin izlər buraxdı. Bu təsirlər bir tərəfdən cənab Polad Həşimovun və timsalında digər qəhrəman övladlarımızın şəhadətinə görə üzücü hisslər idisə, digər tərəfdən onun

şəhadəti insanlarımızda döyüş əzmi, 28 il öncə işğal olunmuş cənnət Qarabağın azadlığı ümidini yaratdı.

Bu ümid Elgünün də daxilində bəslədiyi vətənpərvərliyin carçısı idi. Son zamanlar hər dəfə kəndə gələndə anasına deyirmiş ki: *"Müharibə olsa, mən də gedib, iştirak edəcəm. Baxarsınız, biz Qarabağı geri qaytaracağıq". Bu sözlərdən sonra anasının narahat olduğunu görüb, sözü zarafata çevirirmiş.*

Elgün öz arzusuna çatmaq üçün xeyli yol qət etmişdi. Ucqar kənd məktəbində tarix müəllimi kimi tarix dərsi keçməyin bir addımlığında idi. 2020-ci ilin Sentyabr ayının əvvəlləri Müəllimlərin İşə Qəbulu üzrə təşkil olunmuş mərkəzləşmiş imtahanda iştirak edib, tələb olunan 60 baldan 52-ni toplayır. Tarix müəllimi kimi fəaliyyət göstərmək üçün Lerik rayonunun Sors kənd orta məktəbinə təyinat alır.

Lerik Azərbaycanın ən ucqar dağ rayonlarından biridir. Elgünün tarix öyrətmək üçün arzu etdiyi ucqar kənd bu idimi? İşlədiyi restoranlar şəbəkəsindən ayrılmağa hazırlaşırmış. Hətta Bakıda kirayə qaldığı evdən bütün paltarlarını, əşyalarını toplayıb, Şamaxıya evlərinə göndərir. Müəllimlik üçün özünə yeni paltarlar alır.

Elgünün ən böyük iki arzusunun reallaşması eyni vaxta təsadüf etmişdi; tarix müəllimliyi və Qarabağ savaşının iştirakçısı olmaq. Bir neçə dəfə könüllü qeydiyyatdan keçmişdi. Bunu yalnız bacılarına demişdi, anasına, atasına deyilməməsini tapşırmışdı. Və nəhayət o gün gəlib, yetişir.

2020-ci ilin Sentyabr ayının 27-i tarixə İkinci Qarabağ savaşı kimi düşən 44 günlük Vətən müharibəsi başlayır. Bütün valideynlər kimi Elgünün də valideynləri tək oğul övladla-

rından narahat idilər. Sentyabrın 28-i oğluyla telefonda danışan Qənirə ana onu çağırıb, çağırmadıqlarını soruşur. Həmin gün hərbi komissarlığa zəng edib, öncədən dəfələrlə könüllü müraciət etdiyini, onu da müharibəyə aparmaqlarını tələb edən Elgün anasına heç bir çağırışın olmadığını deyir.

Sentyabrın 29-u gözlənilən xəbər gəlir. Elgün Quliyev Bakıdan birbaşa doğulub, boya-başa çatdığı Şamaxı rayonunun Göylər kəndinə, ata ocağına gedir. Hərbi xidmətdən tərxis olarkən özüylə gətirdiyi hərbi formasını geyinib, atasıyla görüşür, halallaşır. Bu vaxt anası Elgünün kəndə gələ bilməyəcəyini eşidib görüşmək üçün rayon mərkəzinə getmiş olur. Telefon vasitəsiylə xəbər verirlər ki, kəndə gəldi amma sən gələnə qədər qayıdacaq elə bu səbəbdən Elgün anasıyla kəndlərinin girişindəki yol ayrıcında görüşüb, şəhərin mədəniyyət evinin qarşısındakı könüllülərin yola salındığı yerə gedən kimi halallaşır və avtobusa minərək həmin gün döyüşə yollanır.

Elgün Quliyev Sentyabrın 29-dan etibarən cəbhənin Füzuli istiqamətindən başlayaraq, Şuşaya kimi davam edən uzun döyüş yolu keçir. İşğal altında olan torpaqlarımızın azadlığı uğrunda xüsusi şücaət və qəhrəmanlıq göstərir.

Oktyabr ayının 10-da valideynləri, Elgünün tarix müəllimi kimi təyinat aldığı Lerik rayonunun Təhsil Şöbəsinə onun sənədlərini təqdim edirlər. Geri döndükləri zaman yolda Elgünlə zəngləşib, ona müəllimlik müjdəsini verirlər. Elgün isə həmin vaxt cəbhədə tarix yazırdı. Hətta bunu başqalarının ixtiyarına buraxmamışdı. İlk döyüş günündən etibarən bir gündəlik tutub, gündəlik cəbhə xatirələrini ora qeyd edirdi. Sanki buradan geri dönməyəcəyini bilirmiş. Həmin gündəliyin əvvəlində çətinliklər, çatışmazlıqlar içərisində keçən uşaq-



lığından, təhsil həyatından, hərbi xidmətindən, anasına olan bağlılığından, bir də ətrafındakı hər kəsi haqq yolunun yolçusu olaraq görmək istədiyindən bəhs edir.

Döyüş əsnasında dostlarından birinə göndərdiyi səs yazısında belə deyir: *"Artıq hər şey istədiyimiz kimidir. Bacardıqca irəli gedirik. Lazım gəlsə, İrəvana belə getməyə hazırıq"*.

Başqa bir dostuna göndərdiyi səs yazısında müəllimliyə hazırlaşmasından danışır:

*"Təyinat aldığım Lerik rayonunda havalar çox soyuq olur. Özümə qalın bir jaket almışdım ki, ora gedəndə geyinərəm. O da qismət olmadı"*.

Valideynləri ilə danışanda isə deyir ki: *"Heç nədən narahat olmayın. Yerim rahatdır. Təhlükəsiz yerdəyəm. Buralar sanki cənnətdir. Sanki bütün xalq bura toplaşıb. Bizə dəstək olurlar. Tez-tez sovqat gətirirlər. Canınızı sıxmayın. Eşitmişəm, ermənilər rayonalara atırlar. Evdən çölə çıxmayın. Özünüzü qoruyun"*.

Özü savaşın iştirakçısı olan Elgün arxa cəbhəyə də kasetli bombaların atıldığını eşidib, valideynlərindən narahat olur. Həmçinin valideynləri kəndə gələn şəhid xəbərlərini ona demirlər.

Noyabrın 5-i sonuncu dəfə evlərinə zəng edir. Hər kəslə danışır. Öncə anasıyla söhbətləşir, sonra atasıyla, daha sonra bacılarıyla. Sanki bu zəngin sonuncu olduğunu özü də hiss edirmiş. Bütün ailə üzvləriylə danışıb, halallaşır. Vidalaşır da demək olar. Bu zəngdən sonra əlaqə kəsilir.

Ancaq bu, hələ son deyildi. Elgüngilin taboru Şuşaya qədər irəliləmişdi. Elgün Füzulidən başlayan döyüş yolçulu-

ğu əsnasında Şuşanın da azadlığı uğrunda gedən döyüşlərdə iştirak edir. Noyabrın 8-i bu sevinci digər cəbhə yoldaşlarıyla birlikdə o da yaşayır. Noyabrın 9-u düşmən təxribatının qarşısını alarkən artilleriyadan atılan atəş nəticəsində şəhid olur. Noyabrın 11-i valideynlərinin narahatlığını görən bibisi oğlu Elgündən xəbər almaq üçün cəbhə bölgəsinə gedir. Şəhid xəbəriylə qayıdır. Onu tanıyan hər kəsi güldürməyi həyatının ali məramı bilən, getdiyi hər yerə təbəssümüylə sovqat aparan Elgün Noyabrın 12-də Göylər kənd məzarlığında göz yaşları içərisində torpağa tapşırılır.

Şəhid Elgün Quliyev ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin 2020-ci il 15 Dekabr tarixli sərəncamı əsasında öncə *"Vətən uğrunda"*, 18 Dekabr tarixli sərəncamına əsasən *"Döyüşdə fərqlənməyə görə"*, 29 Dekabr tarixli sərəncamına əsasən *"Şuşanın azad olunmasına görə"*, 2021-ci il 5 Dekabr tarixli sərəncamıyla *"Füzulinin azad olunmasına görə"* medalları, 2022-ci il 8 Noyabr "Zəfər günü" münasibətiylə *"Vətənə xidmətə görə 3-cü dərəcəli orden"*lə təltif olunmuşdur.

Valideynlərinin ən böyük arzusu onun xatirəsini yaşatmaq və onun adının hansısa təhsil müəssisəsinin binasında əbədilik qazanmasıdır.

2021-ci ilin 17 Sentyabr tarixində Elgünün xatirəsinin əbədiləşdirilməsi məqsədilə valideynlərinin şəxsi təşəbbüsü və hesabına Göylər kəndinin mərkəzində inşa edilmiş "Şəhid bulağı"nın açılış mərasimi keçirilmişdir. Hal-hazırda Şamaxı rayonunda yerləşən bir neçə məktəbin sinif otaqları Şəhid Elgün Quliyevin adını daşıyır.

Elgün iki Qarabağ müharibəsinin yeganə hafiz şəhididir.


ŞƏHİD
Quran hafizi tarix müəllimi
ELGÜN QULİYEV
ailənin tək oğul övladı olmuşdur.
Könüllü olaraq döyüşlərə yollanmış
Şuşa - Xankəndi istiqamətində
şəhidlik zirvəsinə ucalmışdır.
Cənnətin ən gözəl sakinlərindən
biri ruhun şad olsun.
17.09.1992 - 09.11.2020
Valideynlərindən xatirə


Deyirlər müharibə olacaq 19:03
Olsundaa 19:03
Tarix müəllimi olmadig Tarix yazarig
19:03

Elgün bir güzgüdür; dünənin, bu günün və sabahın güzgüsü.

Qarşımızda bir tablo canlanır; qısa, amma əzmətli və rəngarəng bir ömür tablosu. Bəzi məqamlarda düşünürsən ki, bunlar bir təsadüfdürmü?

Elgünün həyatı gündə beş vaxt qıldığı namazdan sonra çevirdiyi zikr təsbehinə bənzəyir. Doğumu, uşaqlığı, təhsili, arzuları, yaşamı, ədəbi, imanı, şəxsiyyəti, şəhadəti sanki hər şey eyni ölçüdə, eyni formada, eyni keyfiyyətdə təsbeh muncuqları kimi bir ipə düzülüb, Elgün adı altında bizə təqdim olunub.

Müqəddəs üçlüklərdən ibarət fəlsəfi yükü, təbii poetikası, bənzərsiz ecazı olan bir şeirdir Elgün:

- Quran hafizi, tarix müəllimi, şəhid.

- Alicənab, xeyirxah, imanlı.

- Üç qədim mədəniyyət mərkəzindən bəhrələnən – Şamaxıda doğulub, Şəkidə təhsil alıb, Şuşada zirvəyə yüksələn qəhrəman.

Dünyaya milyonlarla, milyardlarla insan gəlib, köç edib. Və bu həyat marafonu milyonların timsalında davam etməkdədir. Ancaq bu marafonu təşkil edən insanların əkəsriyyəti daşıdığı genetik kodlara, aldığı tərbiyə, təhsil və mənimsədiyi mühit qaydalarına əsasən özünə uyğun hansısa obrazı canlandırır. Əksəriyyət bir-birini təqlid edir. Çox az adam təkrarlamayan və təkrarlanmayan orijinal şəxsiyyət ola bilir. Biz müxtəlif insanlara müxtəlif mənfi və müsbət statuslar verə bilərik. Alicənablıq isə verilən status deyil, orijinal şəxsiyyətlərin sahib olduğu ali dəyərdir.

Elgün də azlığın içərisində yer alan orijinal şəxsiyyətlərdən biri idi. Özünü kimlərinsə nəzərində təsdiq etmək ehtiyacı duymayan, ehtiyac sahiblərinə gizli yardımlar edən, xeyirxahlğından təmənna gözləməyən, təvazökarlığı həyat prinsipinə çevirən, vətən uğrunda canından keçən fədakar və alicənab şəxsiyyət!

Bu alicənab şəxsiyyət son sözlərini, valideynlərinə, ailəsinə, dostlarına və onu şəhadətiylə tanıyan bizlərə həm yazılı, həm də şifahi şəkildə ifadə edir. Şəhidliyindən bir neçə gün öncə cəbhə gündəliyinə son cümləsini qeyd edir:

- *"Tarix müəllimi ola bilməsəm də, bəlkə tarix yazdım".*

Döyüş əsnasında yaralanıb, Şuşanın sıldırım qayalıqlarına söykənərək son nəfəsini dərdiyi an, onu qucaqlamaq istəyən döyüş yoldaşına belə deyir:

- *"Siz digər yaralılara yardım edin. Mənə toxunmayın. Zirvəyə yüksəlirəm"*

Elgünün ən böyük arzusu tarix müəllimi kimi Azərbaycanın ucqar kəndlərindən birində öz şagirdlərinə tariximizi öyrətmək idi. O, öz məramına layiqincə çatdı. Hətta necə çatdı? Hansısa ucqar kəndin məktəbində beş-on şagirdə deyil, milyonlarla soydaşımızdan ibarət Azərbaycan xalqının mövcud sakinlərinə və sonsuz minilliklərdə dünyaya gələcək bütün davamçılarına ibrətamiz tarix dərsi keçdi.

Yüksəldiyin zirvədə əbədisən, əziz qardaşım. Sən indi təkcə tarix müəllimi deyil, canlı tarixsən, bizlərsə sənin oxucuların.

Məramın mübarək, hafiz, tarix müəllimi, şəhid Elgün Quliyev! Bu, nə mübarək arzu, nə bənzərsiz istək, nə müqəddəs məram imiş. İndi sənin hər yaşda, hər təbəqədən, vətənin hər bölgəsindən boy sırasına düzülmüş şagirdlərin var...

# I HİSSƏ

## Elgünün gündəliyi




Şəhid Elgün Quliyev döyüşə yollandığı ilk gündən etibarən bir gündəlik tutub, Qarabağ cəbhəsindən öz döyüş xatirələrini şəhid olduğu günə qədər bu gündəlikdə qeyd etmişdir. Şəhid olmamışdan bir neçə gün öncə sonuncu bu cümləni qeyd edib, gündəliyi tamamlamışdır:

- *"Tarix müəllimi ola bilməsəm də, bəlkə tarix yazdım"...*

Elgünün şəhadətindən sonra onun döyüş yoldaşları gündəliyi valideynlərinə təhvil vermişdir. Elgünün öz xəttiylə yazdığı bu gündəlik Şamaxı rayon Göylər kəndində ata ocağında təsis edilən "Xatirə Muzeyi"ndə saxlanılır.

## ŞAMAXI BATALYONU

28 sentyabr 2020

1. Nağıyev Sadiq
2. Məmmədov Samir
3. Məmmədov Fəqan
4. Əlicanov İnqilab
5. Fərruxlu Elməddin
6. Nehmətov Şəhriyar
7. Qurbanov Bəhruz
8. Pənahov Xəyal
9. Şirəliyev Xəyal
10. Xanməmmədov Elvin
11. Qarayev Elbrus
12. Əhmədov Murad
13. İsrafilov Bəxşeyiş
14. Zalıyev Şamil
15. Nəbiyev Vüqar
16. Əzimov Elgün
17. Mirzəyev Məmməd
18. Bayramov Telman –döyüşür
19. Muradov Nazim –döyüşür
20. Heydərov Orxan
21. İsayev Əmrah
22. Quliyev Elgün -döyüşçü

Uşaqlıqdan çox əziyyət çəkmişdim. Belə də bu, hamının həyatında baş verir. Amma insan üçün ayrı-ayrı çətin olur. Əsgərliyə gələndə hələ də namaz qılırdım. Əsgərlikdən sonra belə, buna davam elədim. Əsgərliyə gələndə ən çox darıxdığım, hamının olduğu kimi, mənim də anam idi. Amma bunu heç kimə büruzə vermirdim. Xidmətim cəbhədə gedirdi, ora ayrı bir aləm idi. Arxa cəbhədən çox fərqli idi. İlk gəldiyimiz gündən bunu hiss edirdim. Hər dəfə xidmətə qalxanda və xidmətin səhəri Allaha dua edirdim ki, hamımız sağ-salamat qayıdaq. Yağışda, qarda xidmət davam edirdi. Amma qüsurlar da olurdu. Xidmətim müddətində özümə çoxlu yoldaş qazandım. Təcrübə qazandım, həyat təcrübəsi də öz yerində. Yaşım çox olduğundan bütün uşaqlar "Qoca" deyə məni çağırırdı.

Xidmət elə bir şeydir ki, onu nə qədər danışsan belə, bitməz. Hərbi xidməti sona çatdırdıqdan sonra yenidən öz elimə-obama döndüm. Uşaqlara deyəndə ki, hər tin, dalan üçün darıxmışam, hərəsi bir cür münasibət göstərirdi. Hər dəfə başımıza gələn hadisələrdən, dığaların necə nankor, necə qəddar olduğundan danışırdım. Özümdə Xocalı faciəsi və Qarabağda olan digər hadisələri fikirləşdikcə, içimdəki qisas hissi daha da alovlanırdı. Hətta ali təhsil aldığım fakültə də tariximizlə bağlı idi. Tarix müəllimliyini oxumuşdum. Amma xidmətdən sonra başqa-başqa sahələrdə işlədim. Artıq hərbi xidmətdən qayıtdığım 5 ilə çatırdı və Qarabağın işğalından 30 ilə yaxın vaxt keçirdi. 2016-cı il Aprel döyüşləri vaxtı könüllü yazılmışdım, amma anamdan xəbərsiz. Onda mənə bildirdilər ki, lazım olsa, əlaqə saxlanılacaq.

***

2020-ci ildə müəllimliyə imtahan verdim və qəbul oldum. Amma bu vaxt artıq hər iki tərəfdə (biz və düşmən tərəfdə) mediada müharibə xəbərləri yer almışdı.

Sentyabrın 28-i yenidən könüllü olaraq qeydiyyatdan keçdim, amma yenə də anamdan xəbərsiz. Çünki anam bizi çox əziyyətlə böyütmüşdü. Məncə, ən gözəl şəkildə tərbiyə etmişdi.

Səfərbərlik xidməti binasının qarşısındakı mənzərə çox üzücü olsa da, oradan yola düşmək və döyüşə yollanmaq insanda qürurverici bir hiss yaradırdı. Yola çıxdıqdan sonra bəziləri danışır, bəziləri susur, bir sözlə, hərə öz aləmində idi. Gələ-gələ bir neçə hərbi hissəyə düşdük və ən sonda gəldik, çatdıq öz yerimizə. Artıq 8 nəfər qalmışdıq. Amma bizdən öncə Şamaxıdan bura gələnlər var idi. Biz öz rəisimizi gözlədiyimiz əsnada sarışın, bir gözü qıyıq bir oğlan və yanında qaraşın daha bir nəfər çölə çıxdılar. Hərbçilərdən biri əlindəki günəbaxan tumundan bir neçəsini yeyib, belə dedi: "Yetim, buralarda yetimlər divijdədir" ("Yetim" bir bölgəyə məxsus, yeniyetmələr arasında müraciət formasıdır. "Divij" Rus dilindən götürülmüş, "divijenni" kimi işlədilən sözün qısaldılmış formasıdır, mənası hərəkət, hərəkətlilik deməkdir). Daha sonra əlavə etdi: "Daim hərəkətdə olun". Bir anlıq fikirləşdim ki, bu adamlar mənlik deyil, onlarla yola getməyəcəyəm.

Bizi yuxarı qaldırdılar və yatmaq üçün yer göstərdilər. Amma bu sizin fikirləşdiyiniz rahat şəraiti olan və yaxud elə hərbi standartlarına uyğun bir yer deyildi. Hərə bir küncdə özünə yer axtarırdı. Bu vaxt gözümə bir neçə parta (məktəbli masası) dəydi. Yerdə yatmaqdan daha əlverişli idi. Gecəni beləcə başa vurduq. Səhər açıldı və artıq abu-havaya uyğunlaşmaq lazım idi. Bu arada, millətimizin yardımları da dayanmaq bilmirdi. Uşaqlar, böyüklər hamısı əsgərimizə dəstək olmaq üçün can atırdı. Amma hələ də tam uyğunlaşa bilmir-



dim. Ətrafdakı qarışıq mənzərəni seyr edə-edə gözlərim tanış bir simaya rast gəldi. Bu, mənimlə eyni hərbi hissədə xidmət edən kəndimizin oğlu Samir idi. Samirin iri gözləri, azacıq qızarmış siması var idi. Görüşüb, hal-əhval tutduq, adama bir siqaret yandırdıq. Siqaretdən bir-iki qullam alıb, Samir söhbətə başladı:

- *"Sizinlə bizdən başqa kim gəldi?" Söhbət əsnasında ləhçə də öz sözünü deyirdi. "Aa, bilirsən, nə qədər adam gəlib kənddən?!" Sonra əlavə etdi: "Əvvəldən gələnlər qabaqdadır, döyüşürlər". Həmçinin kəndimizdən olan şəhiddən də söhbət açdı.*

Artıq tək gəzmirdim, üstəlik, döyüşçülər də günü-gündən çoxalırdı. Nağıyevin sözü olmasın, yetimlər də hərəkətdə idi. Ənənəvi hərbi xidmətə yenidən alışmağa başlamışdıq. Demək olar ki, əvvəlki kimi hər şey eyni idi. Tək dəyişilən şey, biz bu dəfə döyüşmək üçün gəlmişdik. Günlər keçdikcə yeni-yeni döyüşçülərlə tanış olurduq. Bunlardan biri də Nazim həkim idi. El diliylə desək, "Nazim doxtur", döyüşçülərə alayarımçıq şeirlər, həmçinin döyüşçülərə ruh verən meyxanalar deyirdi. Artıq ön cəbhə üçün bizim aramızdan seçimlər də olmuşdu. Günlərin bir günü könüllüləri önə çıxardılar və dedilər ki, artıq sizi yola salacağıq. Amma bu dəfə də lazım gəlmədi, daha doğrusu, gəldi, amma bizi aparmadı.

***

Bir-birimizi daha yaxından tanımağa başlayırdıq. Hər rayondan döyüşçülər gəlmişdi. Rayonda olduğum müddətdə Pirquluda yerləşən rəsədxanaya getməyi çox istəsəm də gedə bilməmişdim. Amma döyüş yoldaşımız Məhəmməd söz vermişdi ki, qayıdandan sonra bizi rəsədxana ilə tanış edəcək.

"Yoldaş əsgər" ifadəsiylə müraciət edən Telman da uşaqlara öz sərgüzəştlərindən danışırdı. Hər dəfə inandırmaq

üçün and içəndə gözləri az qalırdı hədəqəsindən çıxsın. Çox maraqlı üz quruluşu var idi. Ən cavanlarımız mənim adaşım Elgün və Fəqan adlı döyüşçülər hər ikisi digərləriylə müqayisədə sakit idilər.

Elgün adlı döyüşçü qalın qaşlı, ağbəniz oğlan idi. Fəqanla hərdən ona ünvanlı "oksigen oğrusu" deyə zarafat edirdik. Axşamlar da yaxşı xoruldamağı var idi. Həmişə bunu deyəndə gülümsəyirdi. Hə, bir də Elgün ya sual verəndə, ona izah istəyirdi, ya da məlumatın təsdiqini tələb edirdi. Briqadanın "MTO"-su (Maddi Texniki Təminat ), həmçinin Kamxoru var idi. MTO adlandırdığımız Bəxşeyiş əsl bank işçisinə oxşuyurdu. Bir az balacaboy, dolu, qaragöz döyüşçü idi. Həmçinin çox qabiliyyətli, böyük-kiçik yeri bilən adam idi. Batalyon üçün ən çox can yandıranlardan biri kimi rəğbətimizi qazanmışdı. Kamxor isə öz aləmində idi, papağı da elə formada başına qoyurdu ki, xüsusi diqqət cəlb edirdi. Bütün taborun qara-qura işlərində kəyfiyyatçı kimi öz fərasətini göstərirdi. Hamımız onunla qardaş olmuşduq.

Əlicanov İnqilab Baba oğlu adı ilə tanınırdı. Hərdən əsib, coşurdu ki, niyə bizi döyüşün ön mövqeyinə aparmırlar. Çox sosial adam idi. Onunla sözləşmişdik ki, qayıdandan sonra gübrə alverinə girişib, xeyir götürəcəyik.

Batalyonun gözü Pənahov Xəyal var idi. Hamıdan çox gülən, hamının kefini açırdı. Bəlkə də içimizdə ən çox dərdi olan o idi. Çox gülən insanların həmişə dərdi çox olur. Sadiqin sözü olmasın, doğrudur, "bizi əmi doğmayıb ki", amma hər kəsin dərdi özünə dərədir.

Batalyonun ən sakiti Fərruxlu soyadlı döyüşçü idi. Çox az vaxt onu bölükdə görmək olardı. Çox az adam onun güldüyünü görmüşdü. Yerimizi dəyişdikdən sonra artıq daha da doğmalaşmışdıq. Hər tikəmizi bölürdük. Ətrafımızda olanların

çoxu bizə həsəd aparırdı. Amma buna nail olmağı istəsələr də, həmişə arzuları puç olurdu. Hər namazda, dualarımda birliyimizin pozulmamasını, həmçinin öz yoldaşlarımın İslama gəlməsini istəyirdim.

Zalıyev həmişə öz dünyasında olurdu. Amma İnqilabın sözü olmasın, əsl döyüşçü idi. Şamaxının Məlhəm kəndindən ikinci döyüşçü Vüqar idi. Əsl kənd ağsaqqalına bənzəyirdi. Oturuşu, duruşu, yerişi bunu deməyə əsas verir.

Hamının qəlbini ram etməyi bacaran bir döyüşçü dostumuz da var idi. Əsl adı Elvin, ləqəbi "Bakıxan" olan döyüşçü. Öz gözəl səsi ilə yoldaşları darıxmağa qoymurdu. Doğrudur, hərdən mahnıları yarımçıq saxlayırdı, amma buna baxmayaraq, yenə də döyüşçülərin fikrini dağıdırdı.

***

Demək olar ki, hər kənddən uşaqlar var idi, hamısı da bir-birindən cəsur, igid döyüşçülər idi. Ən çox istədiyim, arzuladığım şey isə uşaqların İslama gəlməsi idi. Hər gün dua edirdim, vaxt olduqca İslamdan danışırdım. Biz necə ki bir vətənin ətrafında birləşmişdik, İslam ətrafında da elə birləşməli idik.

Hərə bir ailədən gəlmişdi və buna əmin idim ki, hamı eyni ola bilməz. Amma hamının bir istəyi var idi, vətən üçün döyüşmək, işğalda olan torpaqları azad etmək, lazım gəlsə, şəhid olmaq.

Doğrudur, hərdən aramızda anlaşılmazlıqlar da olurdu. Amma hamı çalışırdı ki, bunu sülh yolu ilə, qol gücü olmadan yoluna qoyaq.

Beləcə günlər maraqla ötüb, keçirdi. Hər dəfə bizdən gedənlərin yaralandığını, yaxud şəhid olduğunu eşidəndə keçirdiyim hissi kiməsə başa salmaq çox çətin idi. Bir



tərəfdən qürur hissi, digər tərəfdən onun ailəsinin acısı, bunlar hamısı qarışıq hisslərdir. Bu hisslərin adı yoxdur, nə qədər ürək-dirək verən olsa da yenə insan öz dərdi ilə baş-başa qalır. Hərdən aramızda təsadüfi söhbətlər də olurdu, yaxud qulaq şahidi olurduq. Kimi nişanlı, kimi iki uşaq atası, kiminin anası xəstə, hamının dərdi, hamının gözləyəni var idi. Hərdən ayın tarixi, yaxud həftənin günləri yaddan çıxırdı.

Günlərin necə keçdiyini bilmirdik. Artıq Oktyabr ayının 25-i idi. Yeni-yeni döyüşçülər gəlirdi aramıza. Saat 11:15-i göstərirdi. Döyüşçülərin yarısı çöldə idmanla məşğul idi. İçəridə olan döyüşçülərdən ağsaqqal Fərruxlu və Əzimov öz döyüş təcrübələrini bölüşürdü. Bu döyüşdən əvvəl 2016-cı ilin Aprel döyüşlərində dığaların necə hiyləgər olmasından və təəssüf hissi ilə içərimizdə satqıların çoxluğundan bəhs edirdilər. Əlicanovun evdən gətirdiyi "tefal"da çay hazırlamışdıq. Həmişəki kimi çayı hazırlayan ağsaqqal idi. Artıq idmandan gələn döyüşçülər çimmək üçün hazırlaşırdılar. Həmçinin idmanda qaçan vaxt "Şamaxı, Azərbaycan" sözlərini elə ahənglə səsləndirirdilər ki, adamın özünə də ləzzət edirdi.

Bölüyün tağım komandiri Nağıyev Sadiq idi. Çox zarafatcıl insan idi. Bütün tabor onun etdiklərini ya danışır, ya təkrar edir, yaxud onu yamsılamaq istəyirdilər. Həmçinin yüksək rütbəli komandirlərlə də öz münasibətini düzgün qurmuşdu. Maraqlı söhbətləri bitmək bilmirdi. O qədər canlı danışırdı ki, hamı maraqla qulaq asırdı. Bütün söhbətlərinin sonu gülüşlə bitirdi.

Şamil mənə baxa-baxa çay içir, yəqin fikirləşirdi ki, görəsən, bu nə yazır. Əlicanov uzanıb, telefonda qurdalanırdı. Samir həmişəki kimi yatmağa hazırlaşırdı. Sadiq də Fəqanı uşaqlara xeyli tərifləmişdi, idmançı kimi qəşəng bədən quruluşuna malikdir. Ondan başqa hamı maykasını geyinmişdi. Nə qədər biruzə verməsələr də, uşaqların hərəsi öz aləmində

idi. Hərdən fikir verirdim, uşaqların gözü yol çəkir, amma ona da imkan vermirdik. Sözün yaxşı mənasında aman vermirdik. Araya bir maraqlı söhbət, zarafat salıb, fikrə dalanların fikirlərini dağıtmağa çalışırdıq.

***

Dünən komandir bizim üçün televizor quraşdırdı. Ən azından xəbərimizin olmağı üçün gözəl təşəbbüs idi. Birbaşa təşəkkür edə bilməsək də, ürəyimizdə ona dua edirdik. Tv quraşdırılandan sonra bəlkə ilk ağlayan mən idim. Gəncədə baş verən hadisədə ölən insanları, ən əsası körpələrin cansız bədənini görəndə ağlamamaq mümkünsüz idi. Məndən başqa da ağlayanlar var idi. Bilirdim ki, bu göz yaşlarının ardınca qisas gəlirdi. Eşitdiklərimizdən, gördüklərimizdən sonra qisas hissi daha da artırdı.

Bizdən sonra yenə şamaxılı döyüşçülər gəlmişdi. Bir müddət idman zalında qaldıqdan sonra onlar da bizim sinif otağımıza gəldilər. Artıq bunu yaza-yaza günorta olurdu, namaza az qalmışdı...

Namazdan sonra yenə də həmişəki kimi döyüşçü yoldaşlarım üçün dua edəndə əvvəlcə İslama gəlmələri üçün, sonra isə hamısının sağ-salamat dönmələri üçün dua elədim. Günortadan sonra bir qrup könüllü və keçmiş döyüşçülər bizi ziyarətə gəlmişdilər. Ərzaq, çörək və əsgər üçün zəruri digər ləvazimatlar gətirmişdilər. Ən əsası, uşaqların bizim üçün yazdığı məktubları oxumaqları bizim üçün ayrıca ruh verirdi.

Axşam yeməyindən sonra otaqda ancaq "Oksigen oğrusu", Babaoğlu, "Vızvız", Şamil və hamının ən çox hörmət etdiyi Elməddin qalmışdı. Döyüşçülər eşitmişdi ki, rayonda könüllülərin ailəsinə yardım edilir. Təkcə mən demək istəmədim, çünki evdən gizli qeydiyyatdan keçmişdim. Bu dəmdə "Vızvız" söhbətə başladı. Bu il yayılan "Corona virus"dan

söhbət gedirdi. Cərimə olunanlar var idi. Amma ödəməmişdilər.

Söhbətlər, mövzular bir-birini əvəz edirdi. Hər kəs necə gəldiyini, gəlmək üçün necə əlləşib-vuruşduğunu danışırdı. Bölükdə bu dəfəki müzakirə sakit keçirdi, çünki Nağıyev yox, Samir yox, ən əsası bölüyün gözü, işığı "Əngixaran" ləqəbli cəngavər yox idi.

Bu gün bölüyün növbətçiləri bizim döyüşçülər idi. Əsas başçı Əngixaran, köməkçiləri Şəhriyar və Bəhruz idi. Hərdən kolidordan Nağıyevin səsi gəlirdi. Bölüyün öz parollaşma sistemi var idi, növbətçilər "Kame" paroluyla xəbərdar olurdu.

***

Oktyabrın 27-i səhər təlimdən sonra mayor Qədimov axşamçağı toplanış olacağını dedi və saat 16:00-da deyildiyi kimi başladı. Yenə də hamı öz aləmində idi. Bu, məncə bizim fikrimizi qismən dağıtmaq üçün təşkil olunmuş bir yığıncaq idi. Yenə də konsert bitəndən sonra hərə öz dərdiylə baş-başa qalırdı. Bəlkə də eşitdiyimiz sonuncu musiqi səsiydi bu səs. Yəqin ki, içimizdə mənim kimi fikirləşən az adam olar. Döyüşçülər konsertdən qayıdıb, otağa gələndə hərə yadında qalan bir musiqini zümzümə edirdi.

Yemək üçün düzülüşə gedirik....

Oktyabrın 28-i düşmənlərimiz Bərdə şəhərinə raket hücumu etdi. Nəticəsi ağır oldu, yenə də övlad acısı çəkən valideynlər, daha nələr-nələr. Amma biz yenə də beynəlxalq hüquq və.s. şeyləri gözləyirik.

Ayın 29-u gəldi, yeni günlə birlikdə Bərdənin qisasının alındığı xəbəri də gəldi. Artıq darıxmağa başlayırdım. Demək olar ki, hamı darıxırdı, kimi ev üçün, kimi öz el-obası üçün. Bir sözlə, indi hamının ortaq hisslərindən və ifadələrindən

biri də darıxmaqdır. Hamı fikir içərisindədir. Mənimsə içimdə zaman-zaman baş qaldıran bir arzu var, ətrafımdakı döyüş yoldaşlarımın İslama gəlmək arzusu. Mənim fikrimcə insan İslamsız yaşaya bilər, ancaq daha gözəl yaşamağın və ömür sürməyin yolu Allaha, peyğəmbərə bağlanmaqdan keçir.

Bu gün "Kamxor"un yanına qohumları, tanışları gəlmişdi. Allah mallarına bərəkət versin, yaxşı yedik, dualarımızı da etdik. Ancaq yenə də beynimdə fikirləşdiyim uşaqların pis vərdişləri idi. Hansı ki, içimdə danışırdım, deməyə utanırdım. Birdən xoşlarına gəlməz, xətirlərinə dəyər deyə, danışmırdım, amma bir gün deyəcəkdim. Bəlkə bu gün, bəlkə sabah, amma gec olmadan deməliydim.

Hə, bir də bəlkə şəhid olaram (inşallah), bütün döyüşçü dostlarımı çox istəyirəm.

***

Bunları yaza-yaza hamı soruşurdu, nə yazırsan, qəzəl? Bəzisi maraqla, bəzisi kinayəylə. Yanımda əyləşən döyüşçü əlində çörək tutub, yeyir. Ucar rayonundan olan, adı kimi özü də Mübariz olan bir igiddir. Hər dəfə görəndə elə bilirdim bir qəhrəman gəlir. Yenə də Günəş batır, artıq darıxmağın vaxtı gəlir. Hərə öz döyüşçü yoldaşlarıyla oturub, söhbətləşir. Mənsə gün batımını izləyirəm.

*Tarix müəllimi olmasam da, yəni işləyə bilməsəm də, bəlkə tarix yazdım...*

# II HİSSƏ

# Elgünlü xatirələr

## Şuşanın qərənfilləri

*“Vətən mənə oğul desə, nə dərdim?!*
*Mamır olub, qayasında bitərdim”...*
*Məmməd Araz*

Onlar Şuşanın qayalarında gül olub, bitdilər.

Elgün bizim üç qız övladımızdan sonra dünyaya gələn tək oğul övladımız idi. Mənə həm qardaş əvəzi idi, həm də oğul. Öz övladım olduğu üçün tərifləmək xatirinə demirəm, dediklərim onun gerçək şəxsiyyəti və həqiqi kimliyidir. Heç vaxt ondan bir şikayət eşitməmişəm, kimisə incitdiyini görməmişəm, qulaq şahidliyi etməmişəm. Uşaqlıqdan öz yolunu özü seçmişdi. Orta məktəbin ilk siniflərindən təhsilə marağı, ədəbi, tərbiyəsiylə seçilirdi, hörmət qazanmışdı. Dinə də xüsusi sevgisi və bağlılığı vardı. Hər kəsə qarşı diqqətli idi, hər şeyə qarşı məsuliyyətli idi. Heç təhsilində də bizim ona müdaxiləmiz olmayıb. Həmişə müəllimləri ondan razılıq edirdi. Oxuduğu sinfin birincisi idi.

Biz türk millətiyik, türk milli kimliyinin daşıyıcılarıyıq. Sovet dövründə bizi bu ruhdan, bu kimlikdən uzaq salmışdılar. Bizə kimliyimizi unutdurmuşdular. Ancaq bu müharibədən və əldə olunan qələbədən sonra insan qürur duyur, daxilimizdə gizlənən milli kimliyin cücərtilərini görürük. Təbii ki, bu qüruru da bizə yaşadan Elgün və timsalında bu yolda can fəda edən gənclərimizdir.

Müharibəyə qədərki dövrdə ölkədə içi özüm qarışıq ortayaşlı və yaşlı nəslin nümayəndələri belə düşünürdü ki, bizdən

sonra gələn gənc nəsil dilində müasirlik şüarıyla bütün milli mənəvi dəyərləri unudacaq. Onların müasir geyimləri, xarici görünüşləri bizdə bu yanlış düşüncəni formalaşdırmışdı. Ancaq İkinci Qarabağ savaşı göstərdi ki, yox, biz yanılmışıq. Əslində indiki gənclər müasirliklə yanaşı, milli dəyərlərimizi də qoruyacaq, yaşadacaq potensialdadırlar.

Müharibə vaxtı mən özüm də yolasalma mərasimlərində iştirak edirdim. Hərbi komissarlığın qarşısından keçəndə oradakı mənzərəni görüb, adam tamam başqa bir abu-havaya bürünürdü. Gənclərimiz dəstə-dəstə gəlir, könüllü müraciət edir, alqış sədaları altında döyüşə yollanırdılar. Sanki müharibəyə yox, toya bayrama gedirdilər. Təbii ki, bu da bizim tarixdən gələn milli ruhumuzun göstəricisidir. Tarixən də belə idi. Müharibəyə gedən türk igidləri "Oğuz elində toy, bayramdır" deyib, döyüşə atılırdılar.

Bu savaş bizim qurtuluş savaşımız idi. Doğrudur, bununla bitmir, bizim dörd tərəfimiz öz torpağımızdır. Ancaq xalqın dirçəlişi üçün bir qələbə müjdəsinə ehtiyac var idi. Azərbaycan son bir əsrdə ilk dəfə idi ki, işğal olunmuş torpağını geri qaytarırdı.

Bəli, bir valideyn kimi üzülürəm. Bu vətənin uğrunda oğul qurban vermişəm. Əgər məqsədimiz zəfər qazanmaq, içimizdə gizlənmiş milli kimliyi üzə çıxarmaq, milli qürurumuzu zirvəyə yüksəltmək, işğal altında olan vətənimizi xilas etmək idisə, o zaman bu yolda qurbanlar verəcəyimizi də bilirdik. Çəkdiyimiz ağrı-acının qarşısında təsəllilərimiz var. Tarixin süzgəcindən keçmiş, tarixin ən çətin dövrlərindən üzüağ çıxmış inancımız var. Bu inanc bizə deyir ki, şəhidlər cənnətlikdir. Digər təsəllimiz isə milyonların milli qürurunun xilasediciləri bizim övladlarımızdır. Bununla fəxr edirik. Nə qədər üzülsək də, bu uğurda kimlərsə qurban getməli idi. Mə-

nim övladım və ya başqasının övladı, nə fərqi var?! Bu xalqın bütün övladları bizim övladlarımız deyilmi?!

Mən təkcə şəhid Elgün Quliyevin atası olaraq üzülmürəm, həm də özümü digər şəhidlərimizin valideynlərinin yerinə qoyub, üzülürəm. Bu kədəri də, qüruru da həm öz övladımın, həm də digər şəhidlərimizin timsalında yaşayıram.

Bu savaş illər öncə yarımçıq qalmış missiyanın davamı idi. Nə zamansa olmalı idi. Bu problem bizim gənclik dövrümüzdə ortaya çıxmış və həll olunmamış şəkildə qalmışdı. Bizim həll edə bilmədiyimiz bu milli problemi övladlarımız həll etdilər. Bu müharibənin ağrı-acısını biz təkrar yaşadıq. Birinci Qarabağ müharibəsində də minlərlə gəncimiz şəhid olmuşdu. Ancaq bu müharibə, bu qələbə onların da ruhunu şad etdi. Hədər yerə qurban getmədiklərini tarixi həqiqət kimi qarşımıza çıxardı. Mənim sinif yoldaşım var idi, Əlisuvar Məmmədov. Birinci Qarabağ müharibəsində şəhid oldu. Kəndimizin o savaşda verdiyi altı, iki savaşda verdiyi on iki şəhiddən biridir. İndi onun nəvələri həm də mənim nəvələrimdir, qızımın övladlarıdır.

Azərbaycan xalqının ailə dəyərləri, övlad tərbiyəsi, valideyn-övlad münasibətlərinin içərisindəki qaydalardan biri də valideynlə, övlad arasında müəyyən sərhədlərin mövcud olmasıdır.

Digər tərəfdən insan ictimai mühitdə müxtəlif insanlarla münasibət qurur. Rəngarəng çevrəsi olur. Sənin sahib olduğun dəyərlər, əxlaq, ədəb göstəricilərin, şəxsi keyfiyyəətlərin, ictimai fəaliyyətin münasibət qurduğun insanlar arasında bölünür. Birgə yaşanan xatirələr də bu münasibətlər nəticəsində yaranır. Biri səni sinif yoldaşı, digəri tələbə yoldaşı, başqa biri əsgər yoldaşı, iş ortağı, dost kimi tanıyır. Bir insanın sahib olduğu dəyərlər münasibətdə olduğu bir insan tərəfindən

xarakterizə edilə bilməz. Çünki onu tanıyan hər kəsə bir cür təsiri olur, hər kəslə yaşadığı müxtəlif xatirələri olur.

Bir ata kimi mən Elgünü tanıyırdım. Övlad kimi ondan heç bir şikayət eşitməmişdim, çox razı idim. Bilirdim ki, kimisə yarı yolda qoymaz, insanlara, hətta heyvanlara belə mərhəmətlidir. Bilirdim ki, Allahını, peyğəmbərini tanıyır, imanlıdır, ibadət əhlidir. Dini yönümlü təhsil almış və aldığı təhsilə əməl edən biridir. Çalışqandır, ağıllıdır, məqsədləri var. Ancaq indi düşünürəm ki, mən onun sahib olduğu dəyərlərin sadəcə bir qismini müşahidə etmiş və tanımışam. Bizim evimizdə bir qəhrəman böyüyürmüş, bundan biz xəbərsiz olmuşuq.

İndi Elgün onu tanıyan hər kəsi bir yerə toplayıb. Yoldaşları, dostları, qohumları və biz ailə üzvləri onunla bağlı xatirələri danışırıq. Bu xatirələri birləşdirəndə gözümüzdə böyük bir tarixi şəxsiyyətin portreti canlanır. Danışılanlardan əlavə bir də cəbhədə tərtib etdiyi gündəlikdə qeyd etdikləri; o yazıları oxuduqca Elgünün tanımadığımız, bilmədiyimiz tərəflərini öyrənirik.

2020-ci ilin Sentyabrın 29-u Bakıdan birbaşa kəndə, evimizə gəlmişdi. Bu dəfə bir neçə gün qalıb, yenidən iş yerinə qayıtmaq üçün yox, hərbi xidmət əsnasında valideyn görüşlərində əliylə mənə göstərib, *"Ata, bax, o mövqelər bizim ərazilərimizdir. Vaxt gələcək, biz o torpaqları azad edəcəyik. Mən gəlib, bu kəndlərdən birində övladlarımıza tarix dərsi keçəcəm"* deyərək, işarə etdiyi torpaqları azad etmək üçün bizdən halallıq istəməyə gəlmişdi. Müharibəyə bizdən gizli könüllü yazılıbmış. Həyət qapısından içəri girən kimi görüşüb, tez evə qalxdı. Sanki onu aparacaq avtobusun tez çıxacağından narahat idi. Otağından hərbi geyimdə çıxdı. Hərbi xidmətdən tərxis olunub, gələndə öz hərbi formasını da gətirmişdi, ota-

ğının divarındakı asılqandan asmışdı. Sanki bu gün üçün gətirmişdi. Gəldiyi cəbhəyə yenidən dönəcəyini bilirmiş. Anası Şamaxıya getmişdi. Həyətədən birlikdə çıxdıq. Anasına məlumat verdik. O da gəldi. Bizlə son dəfə görüşdü, halallaşdı və getdi.

Döyüş yolu hərbi xidmətdə olduğu Füzuli rayonunda yerləşən təmas xəttindən başlayıb. Vaxtilə əliylə işarə edib, göstərdiyi torpaqların azadlığı uğrunda döyüşüb. Demək olar, hər gün telefonda danışırdıq. Sanki illərlə arzusunda olduğu missiyanı yerinə yetirirdi. Sevinci səsindən hiss olunurdu. O qədər rahat danışırdı ki, döyüşdə olduğunu zənn etməzdin. Soruşanda yerini demirdi. Həyətə gəlib hərbi paltarını geyinən, komissarlığa xüsusi həvəslə gedib və döyüşdən zəng edib danışan adam bizim illərlə tanıdığımız sakit təbiətli Elgün deyildi. Bu dəfə telefonun o biri tərəfindən cəsarətini illərlə boğub, içində gizlətmiş, illər sonra üzə çıxarmış bir qəhrəmanın səsi gəlirdi.

Elgünün cəbhədən dostlarından birinə göndərdiyi bir səs yazısı var. Orada dostuna müraciət edərək deyir: *"Hər şey istədiyimiz kimidir. Hər gün irəliləyirik. Hamı həvəslə döyüşür. Lazım gəlsə biz İrəvana da gedərik"*.

Adətən övladlar atalarına görə tanınır, nüfuz qazanır, valideynlərinin göstərdiyi yolla gedir, hər addımlarında atalarının adını təmsil edirlər. Elgün kimi oğulların böyüklüyü həm də ondadır ki, qəhrəmanlıqlarının timsalında ataları onları təmsil edir.

Elgün artıq təkcə mənim yox, Azərbaycanın övladıdır. O, Azərbaycanı bütöv görmək istəyirdi. Təhsil almaq imkanı olmayan, ucqar kəndlərdə yaşayan övladlarımıza təhsil vermək istəyirdi. Haqqında danışılan xatirələri uzlaşdıranda görürəm ki, o, elə həyatı da şəhadətinə uyğun yaşayıb.

Elgün kimi övladın atası olduğum üçün fəxr edirəm. Arzu edirəm ki, uşaqlarımız, gənclərimiz Elgündən, onun kimi şəxsiyyətlərdən, qəhrəmanlardan örnək götürsünlər. Onlar artıq bir tarixdir. Oxuyub, ibrət alacağımız, zəfər müjdəli bənzərsiz tarix. Bütün qəhrəman, şəhid övladlarımızın ruhu şad olsun. Övladı vətən yolunda şəhid olan bütün atalara, analara səbir diləyirəm.

**Vasif Quliyev**
*atası*



## Qürurum, oğul!

Uşaqlar ən çox analarıyla ünsiyyətdə olur, vaxt keçirir. Onları ən çox tanıyan da anaları olur. Mən də Elgünü bir ana kimi yaxşı tanıyırdım. Tanıdıqca da fərəhlənirdim, sevinirdim.

Elgünün atası tək idi. Arzulayırdıq ki, bir oğlan övladımız olsun, atasının həm qardaşı olsun, həm oğlu. Bunu əksər valideynlər arzu edir ki, özündən sonra ata mülkünə sahib çıxan bir oğul övladı olsun.

Üç qızımız var idi. Dördüncüsü, 1992-ci ilin sentyabr ayının 17-i Elgün dünyaya gəldi. Körpəliyindən evdə əldən-ələ gəzirdi. Hamı onu çox sevirdi.

Yeni ayaq açmağa, dil açmağa başladığı vaxtlardan etibarən onu həmişə müşahidə edirdim. Uşaqlıq illərinə qədəm qoyub, həyətdə, küçədə uşaqlarla oynayanda belə, ona göz qoyurdum. O, öz bacılarından da, məhəllədə oyun oynadığı həmyaşıdlarından da seçilirdi. Heç vaxt kimləsə dalaşmazdı, dilinə qeyri-etik ifadələr gətirməzdi, hər zaman başqalarına qarşı mərhəmətli və humanist idi.

Ancaq onun dünyaya gəlişi ölkəmizin keşməkeşli dövrünə təsadüf etmişdi. Bir tərəfdən müstəqillik yeni əldə olunmuş, digər tərəfdən Birinci Qarabağ müharibəsi başlamışdı.

Biz Elgünü firavanlıq içərisində böyüdə bilmədik. Atası Rusiyaya işləməyə gedirdi, mən də kəndimizin orta məktəbində ibtidai sinif müəllimi idim. Aylıq məvacibimlə evə lazım olan ərzaqları alırdım ki, uşaqlarımın gözü başqa qapılarda olmasın. Bunlardan əlavə nəsə almağa, etməyə imkanımız

olmurdu. Elgün də bu cür qarışıq dövrün çətinliklərini görmüşdü, təsirlərini öz yaddaşında daşıyırdı. Həmişə deyirdi ki, böyüyəndə işləyib, özümə velosiped alacam.

Evin tək oğlu və ən çox əzizlənən övladı olmasına baxmayaraq ərköyün deyildi. Gördüyü çətinliklərə rəğmən çox nikbin və şən uşaq idi.

Orta məktəbdə də həmçinin müəllimlərin və şagirdlərin hörmətini, sevgisini qazanmışdı. Dərslərini də yaxşı oxuyurdu. Müəllimindən Elgünün necə oxuduğunu soruşduqda, yaxşı oxuduğunu, hər şeyi tez qavradığını söyləyirdi. Mən ondan dərslərinə hazır olub, olmadığını soruşanda, deyirdi ki, aç kitabı, danışım. Ancaq onu kitab oxuyarkən görmürdüm. Müəlliminin ona bir dəfə yeni dərsi danışmağı kifayət edirdi. Zehni çox güclü idi, bir dəfə oxumaqla dərsi qavrayırdı.

Mənim atam və anam da dinlə məşğul olublar. Sovet dövründə hələ dinin, açıq ibadətin qadağan olunduğu vaxt həmişə namaz qılıblar, oruc tutublar və Quran oxuyublar. Mən istəyirdim ki, Elgün də dinlə məşğul olsun. Ancaq dərslərindən yayındırmaq və ya müdaxilə etmək istəmirdim. Sonralar özü bu yolu seçdi. Dini təhsil almaq istədiyini bildirdi. Mən də həm izn verdim, həm də bu seçimi məni sevindirdi. Hardasa, altıncı sinifdə oxuyanda kənddəki məscidin nəzdində fəaliyyət göstərən "Quran Kursu"na getməyə başladı. Bir müddət sonra Ərəb əlifbasını, Qurani-Kərimi üzündən oxumağı öyrəndi. Məsciddə müəllimləri belə məsləhət gördü ki, onun zehni digər uşaqlarla müqayisə etdikdə daha güclüdür, icazə verin, o, getsin hafizlik üzrə mədrəsədə oxusun. Elgün 2006-cı ildə həmin mədrəsədə oxumağa getdi.

Doğrudur, ailədən, evdən uzaq düşməsi bizi darıxdırırdı. Ancaq bu, onun öz seçimi idi. Özünü də, bizi də sevindirirdi. Tez-tez qazandığı yeni uğurlarını paylaşırdı.

Eyni zamanda çox zarafatcıl, şən uşaq idi. Həyat dolu idi. Tətildən-tətilə evə gəlirdi. Həyət qapısından içəri girəndə elə bil, həyətə bir yox, bir neçə adam gəlib. Hamıyla danışıb, gülərdi, ən qaraqabaq adamı da zarafata salıb, danışdırardı. Elgündən kiminsə incidiyini eşitməmişik.

Ən böyük arzusu ali təhsil alıb, tarix müəllimi kimi ucqar kəndlərdən birində öz şagirdlərinə tariximizdən dərs keçmək idi. Çox prinsipial, cəld və çalışqan uşaq idi. Qarşısına bir məqsəd qoyub, o məqsədə çatana kimi dayanmadan çalışırdı. İlk məqsədi hafiz olmaq idi. Qurani-Kərimi tam əzbərləyib, bitirdi, hafiz adını qazandı. Sonra universitetə hazırlaşıb, arzuladığı fakültəyə, Sumqayıt Dövlət Universitetinin "Tarix" fakültəsinə qəbul oldu.

Hərbi xidməti dövründə tez-tez Elgünün görüşünə gedirdik. O, işğal altındakı torpaqlarımızı işarə edərək: *"Bax, o tarpaqlar da bizimdir, ana. Vaxt gələcək oraları da düşmən tapdağından azad edəcəyik, inşallah"* deyirdi.

Elgün Azərbaycanı çox sevirdi. Şəkillərinin içərisində turistlərlə çəkdirdiyi bir şəkli var. O, restoranda işlədiyi müddətdə gələn xarici qonaqları çox olurdı. Deyirdi ki: *"Ana mən başqalarıyla ünsiyyət qurmağı daha yaxşı bacardığıma görə, turist ərəblər və başqa ölkələrdən olan qonaqlar gələndə məni çağırırlar ki, gəl, sən bunları yaxşı qarşılaya bilirsən"*.

Elgün istər, turist, istərsə də yerli camaat, hər kəslə mükəmməl şəkildə ünsiyyət qurmağı bacarırdı. Ondan sonra onların əlinə Azərbaycan bayrağı verib, onlarla şəkil çəkdirirdi. O, əsgərlik vaxtında Azərbaycanın itirdiyi torpaqlara çox təəsüflənirdi. Tarixi öyrəndikcə elə bil, onda qisas hissi daha da çoxalırdı. Düşünürdü, tez-tez dilə gətirirdi ki: *"Bizim bu qədər ərazimiz olub, biz bu qədər ərazilərimizi itirmişik. Torpaqlarımızı alandan sonra Allah qoysa, gedib, o yerlərdə*



*tarix dərsi deyəcəm"*. Bəzən də bu arzusunu belə dilə gətirirdi: *"Mən ucqar yerlərdə tarix müəllimi olacağam. Öz kəndimizdə yox, rayonda yox, istəyirəm ucqar yerlərdə olum"*. Tarix müəllimi olmağa o qədər həvəsli idi. Elə tarix müəllimliyinə də imtahan verdi. 2020-ci ilin sentyabırın 7 -də keçirilən imtahanda tələb olunan 60 baldan 52-ni topladı.

Elgünə biz valideynləri digər övladlarımıza olduğu kimi lazımi tərbiyəni vermişdik. Ancaq onda anadangəlmə özünəməxsus ali dəyərlər mövcud idi. Sevgi dolu idi. Vətəni, insanları, hətta heyvanları belə, çox sevirdi. Hər kəsə eyni tərzdə yanaşırdı. Sanki sevməyi və bu yolda fədakarlıq etməyi həyatının ali missiyası olaraq təyin etmişdi. Tətil vaxtları, işlədiyi dövrdə istirahət günlərində evə gələn kimi paltarlarını dəyişib, birinci iti-pişiyi çimizdirirdi, toyuqların yuvasını dərmanlayırdı ki, onlar rahat olsun, təmiz yerdə yemlənsinlər, yatsınlar.

*Heç yadımdan çıxmaz, bir dəfə Bakıya həkimə getmişdim. Elgün də işdən icazə alıb, məni qarşılmağa gəlmişdi. Getdiyimiz xəstəxananın qarşısında bir yaşlı qadın şirin qoğal satırdı. Elgün dedi, gəl, ana, bir-ikisini götürək. Dedim, ay qardaş, burada uşaq yoxdur ki, kim yeyəcək bu qoğalları?! Mən həkim qəbuluna girdim. Çıxıb, gördüm ki, Elgün qoğalların hamısını alıb. Soruşdum, bu qədər qoğalı kimə verəcəksən? Dedi, ana, küçədə uşaqlara verəcəm. Əsas olan mənim bu qoğalları o qadından almağım idi. Səhərdən fikir verirdim, hamıya yalvarıcı nəzərlərlə baxıb, qoğal almağı təklif edirdi. Heç kim almırdı. Mən aldım, inan, ana , qadın o qədər sevindi, o qədər sevindi"*. Allah ondan razı olsun. Mənim balam ətrafa qarşı bu qədər mərhəmətli və diqqətli idi. Hər kəsi sevindirmək, güldürmək istəyirdi.

İndi oturub, fikirləşirəm, sanki hər şey öncədən planlanmışdı. Onun həyatında hər şey sıra ilə, ardıcıl düzülmüşdü. Bütün ömrü və yaşadıqları onu sonuncu zirvəyə hazırlayırdı.

Sevdiyi qız vardı. Bir dəfə hazırlaşdıq ki, nişan aparaq, nənəsi xəstələndi. Sonra yenidən hazırlıq gördük, nişan üçün təyin etdiyimiz gün nənəsi vəfat etdi. Elgün nənəsini çox sevirdi. Dedi ki, nənəmin ili çıxsın, gedərik. Nənəsinin ili çıxdı, növbəti dəfə hazırlıq gördük ki, gedək, ölkədə karantin rejimi elan olundu. Yəqin qismət deyilmiş. Bir daha deyirəm, bütün bunlar sanki onun şəhadətinə hesablanmışdı.

Doğrusu, biz onun 2016-cı ildə Aprel döyüşləri vaxtı könüllü yazılmasını bilmirdik, sonradan ortaya çıxan gündəliyindən oxuyub, bildik. 2020-ci ilin İyul döyüşlərində Azərbaycan ordusunun general-mayoru, Milli Qəhrəman Polad Həşimovun şəhid olması azərbaycanlı gənclərə təsir etdiyi kimi, ona da çox təsir etmişdi.

Döyüşlər başlayan ərəfədə Sentyabrın 28-i Şamaxı Hərbi Komissarlığına zəng vurub, deyib ki: *"Niyə məni döyüşə aparmırsınız?"* Heç bu müraciətindən də atasının və mənim xəbərimiz olmayıb. Yəqin düşünüb ki, valideynlərimin ürəyi dözməz, birdən ona maneə olmağa çalışarıq. O, müharibəyə yollananda sanki toy-bayram idi. Kənddən onun kimi bir neçə gənc sanki cəbhəyə bayram qeyd etməyə gedirdilər.

Sentyabrın 27-i müharibə başlayanda kəndimizə ilk şəhid gəldi. 28- i mən Elgünə zəng edib, soruşdum ki: *"Elgün, səni çağırmayıblar?"* Dedi: *"Xeyr, ana"*. Sən demə, 28-i Hərbi Komissarlığa özü zəng edib. Sentyabrın 29-u da rayona gəlib, komissarlığa getdi.

İmtahan verdiyinə görə, deyirdi ki, artıq işlədiyim bu işdən çıxacağam, oradan gəlib, müəllim işləyəcəyəm. Müharibə olmasaydı da yaxın günlərdə əvvəlki iş yerindən yığışıb gələ-

çəkdi. Gəldiyi gün mənə dedi ki: *"Ana, mənim nə əşyalarım var, hamısı gedəcək kəndə, mən birbaşa Şamaxıya gələcəm, oradan da müharibəyə gedəcəm"*. Mən də həmin gün Şamaxıya rayon mərkəzinə getdim ki, Elgünlə görüşüm. Yolda olanda atasına zəng edib, atası da deyib ki, kəndə gəl. Mən Şamaxıya getmişəm, Elgün kəndə gəlib. Sonra mən kəndə qayıtmaq istəyəndə dedi ki, gəlmə, biz Şamaxıya gedirik. Şamaxıdan kəndə gələn yolun üzərində dörd yol deyilən yol ayrıcında əyləşib, onları gözlədim. Tək oğul övladım olan Elgünlə görüşdükdən sonra Şamaxı Mədəniyyət Evinin qaşısına gəldik. Döyüşə gedənlər burada toplaşıb, avtobuslara minib, növbəylə yola düşürdülər. Elgüngili saat 11-də içəri dəvət etdilər. Saat 5-6 -ya qədər ağlaya-ağlaya yola düşən bütün avtobuslara əl elədim. Heç birində də Elgünümü görə bilmədim. Heç bilmədim ki, hansı maşında getdi. Camaatdan da utandım, doğrudur, hamı öz hayındaydı, amma mən onunla doyunca görüşə də bilmədim. Fikirləşdim ki, inşallah, qayıdacaq. Sonuncu görüşdə bir onu dedim ki: *"Elgün, elə deyirdin ki, müharibə olsa gedəcəm"*. Dedi ki: *"Ana, inşallah, qayıdacam"*. Gedəndə telefonu aparmamışdı. Biz Elgünü yola salıb, gələndən sonra uşaqlar telefonu açdı, telefonun ekranında yazmışdı ki: *"Haqqınızı halal edin, inşallah"*. Yəni o, bilirdi ki, ölümə gedir. Fikirləşirdim ki, Elgün gələndən sonra ona deyəcəyəm ki: *"Ay Elgün, mən də səninlə birlikdə müharibəni yarı görmüşəm. Hər gün sən danışanda bir anlıq sevinirdim, sonra telefonu yerə qoyan kimi deyirdim, ay Allah, görəsən salamatdırmı?"* Bir də, Elgün zəng edəndə uşaqlar deyirdi ki: *"Ay ana, soruş, gör haradadır"*. O, bizə demişdi ki: *"Ana, yerimizi demək olmaz, yerimiz məxfidir"*. Qızlarım deyirdi ki: *"Sən soruş, haradadır, heç olmasa, bir rayonun baş hərfini desin və yaxud komandirin nömrəsini desin"*. Danışanda heç biri yadıma düşmürdü, hamısı yadımdan çıxırdı. İki kəlimə danışırdı: *"Ana, salamatam, darıxmayın"*. Sonradan biz bildik

ki, Elgüngili əvvəlcə Ağcəbədiyə, təlim keçməyə aparıblar. Tarixləri uzlaşdıranda, anladım ki, orada olanda bir az kefsiz danışırdı. Mən də fikirləşirdim ki, ola bilsin, ora gedib, od-alov görəndən sonra bir az peşman olar. Sonrakı günlər çox şən danışırdı. Deyirdi ki: *"Ana bundan sonra lap tez-tez danışacam. Hər şey əladır"*. Sən demə, onda da Füzulidə olublar, sonra da Şuşaya gediblər. Öncəki kefsizliyinin səbəbi Ağcabədidə keçdiyi təlimlər imiş. O günlərdə narahat olub ki, birdən döyüşə aparmazlar. O sevindiyi vaxtlar da döyüşə getdiyi vaxtlardır. Bir gün bacısı telefonla danışanda dedi ki: *"Qardaş, kəndimizdən elə adamlar var, deyirlər ki, getdik, yer olmadı, qaytardılar"*. Elgün də cavab verdi ki: *"Hə, ana, döyüşə gedəndə soruşurlar ki, qorxmursan? Əgər kimsə desə, qorxuram, onu döyüş bölgəsinə aparmırlar"*. Bacısı yalvardı ki: *"Sən də de, anam xəstədir, sən də getmə"*. Dedi: *"Nə danışırsan, mən elə təlimlərdən yaxşı qiymət almağa çalışıram ki, məni tez aparsınlar, sən də deyirsən, döyüşə aparmasınlar?!"*.

Yəni o qədər həvəsliydi, o qədər sevinə-sevinə irəli gedirdi, elə bil, toya getmişdi. Hələ bir gün bacısı danışanda dedi ki: *"Sən o qədər həvəslə danışırsan, az qala biz də sənin yanına gələk"*. Dedi: *"Nə haraydır, hər evdən bir nəfər kifayətdir, mən buradayam da?!"*

Elgün sahib olduğu dəyərləri, davranışları, ümumilikdə özünü nümayiş etdirməyi sevmirdi, əksinə, gizlətməyə çalışırdı. Mən də onu müşahidə etdiyim davranışları əsasında tanıyırdım və onun hər xüsusiyyətinə bələd olduğumu düşünürdüm. Dinə və vətənə canını fəda edəcək dərəcədə bağlılığını daxilində gizlətdiyi qəhrəman cəsarətini üzə çıxardıqdan sonra bildik.

Elgün həm də çox utancaq insan idi. Baxmayaraq ki, böyük tədbirlərdə çıxışlar etmiş, yarışlarda iştirak edib, uğurlar qazanmışdı. Ailə, qohumlar içərisində hansısa biliyini, ba-

carığını nümayiş etdirməyə utanırdı. Gözəl səsi, avazı vardı, Qurani-Kərimi oxuyanda səsinə hamı valeh olurdu. 2019-cu ildə nənəsi rəhmətə getmişdi, biz deyəndə ki: *"Ay Elgün, nənən üçün ehsan süfrəsində süfrə duası verərsən"*. Deyirdi: *"Adamların içərisində nəsə eləməyə utanıram, ana, mənə onu demə"*. Amma gedib, orada döyüş yoldaşları üçün hər gün Quran oxuyub, dindən danışıb, onların dinə gəlməsini arzu edib.

Yoldaşları danışırki: *"Biz Şamaxı batalyonu olaraq bir otaqda 22 nəfər qalırdıq. Hamımız kişi olmağımıza baxmayaraq, Elgün həmişə qapını döyüb, içəri girirdi"*. Orada döyüş şəraitində belə, arxa cəbhədə ibadətlərini təxirə salmayıb, namazlarını qılıb.

Oktyabrın 10-u atasıyla ikimiz tarix müəllimi kimi təyinat aldığı Lerik rayonuna təhsil şöbəsinə Elgünün sənədlərini aparmışdıq. Qayıdanda yolda Elgün zəng etdi. Xeyli danışdıq. Dedim, Elgün: *"Arzuladığın ucqar rayona təyinat almısan. Çox gözəl yerdir, sanki cənnətdir"*. Dedi: *"Ana, inşallah, tezliklə gəlib, ora tarix dərsi keçməyə gedəcəyəm"*

Noyabrın 5-i bizə zəng etdi, gec idi, axşam saat 11 radələriydi. Birinci, bacısı ilə danışdı, sağollaşdı. Yenidən zəng etdi, mənimlə danışdı. Darıxırdım, deməyə söz də tapmırdım. Sonra dedi ki, atamla danışmaq istəyirəm. Atasıyla da danışdı. Biz kəndmizdən şəhid olanları ona demirdik, ancaq yaxşı xəbərləri deyirdik. Azərbaycan ordusunun işğaldakı rayonları azad etməsindən, azad olunan ərazilərdən danışdıq. Hiss elədim ki, ancaq danışmaq istəyir, amma söz tapmadım danışmağa. Sonra dedi ki, atamla danışmaq istəyirəm, telefonu verdim atası ilə də danışdı. Və bundan sonra əlaqə kəsildi. Bu, Elgünün son zəngi idi. Sanki özü də hiss etmişdi, hamıyla danışıb, son dəfə bütün ailə üzvlərinin səsini eşidib, bununla da bizlə vidalaşdı.

İndi ən çox sonuncu görüşümüz gözlərimdə canlanır. Mədəniyyət evinin qarşısında döyüşə yollanırdı. Döyüşə könüllü yazıldığını bizdən gizlətdiyi üçün elə bil, məndən utanırdı. Gedəndə dedi ki: *"Darıxma, ana, inşallah, qayıdacağam"*.

Elgün şəhid olduqdan sonra mən namaza başladım. Hər namazdan sonra şükr edirəm ki: *"Allah bizə Elgün kimi övlad vermişdi. Biz 28 il onu tanıdıq, elə bir insanla bir evdə yaşadıq"*.

Düşünürəm ki, insan dünyaya gələndə onun taleyi yazılır. Mən fəxr edirəm ki, Elgün şəhid olub. Şəhidlik Elgünün arzusu olub. Hətta Elgünün ən böyük arzusu şəhidlik olub. Təsəvvür edək ki, evdə oturmuşuq, evin içərisinə bomba düşür və mən şəhid oluram. Bu, Allahın mənə hədiyyəsidir. Elgün isə bu yolu özü seçmişdi. Döyüşə könüllü yazılmaqla, ona can atırdı. Şəhidliyi özü qazanmaq istəyirdi.

Elgün ən böyük arzularından biri olan tarix müəllimliyinin bir addımlığında idi. Təyinat almışdı, amma bircə gün belə müəllim kimi sinfə daxil ola bilmədi. Ancaq Elgün və



timsalında bütün şəhidlərimiz elə bir tarix yazdılar ki, onlar dünya durduqca, yaşayacaq. Onların yazdığı tarixi gələcək nəsillər də öyrənəcək. Bu tarix bütün nəsillər üçün nümunəvi tarixdir. Ümumiyyətlə şəhidlərin qanlarıyla yazdıqları tarixi məncə, vicdanı olan heç kim unuda bilməz. Hamı bu tarixi yaddaşına həkk etməlidir.

Elgünlə bağlı bircə arzum var. Onun xatirəsini yaşadan hər kəs biz valideynlərin ətrafında toplaşır. Biz də istəyirik ki, Elgün biz dünyadan köçəndən sonra da yaşasın. Sağ ikən adının Azərbaycanda hansısa bir təhsil ocağına, məktəbə verilməsini istərdim. Elgün evin tək oğul övladı, iki müharibənin yeganə hafiz şəhidi idi. İllərlə ucqar kənddə tarix müəllimi kimi fəaliyyət göstərmək arzusu var idi. Bu arzunu məqsədə çevirib, tarix müəllimliyini qazanmışdı, ancaq müəllim kimi bir gün də işləyə bilmədi. Doğrudur, şəhidlər yaxşı insanların qəlbində yaşayır. Şəhidlər o zaman ölür ki, onlar unudulur. Adının bir təhsil ocağında əbədiləşməsini arzu edirəm.

Mən anayam, bunu dana bilmərəm, itirdiyim övladıma görə ağrı-acı çəkirəm. Ancaq hər bir halda Elgünlə fəxr edirəm. O, mənim qürur mənbəyimdir.

Həmişə məktəbdə şagirdlərimə deyirdim ki, bizim torpaqlarımız işğal altındadır, başımızı dik tutmaq haqqımız yoxdur. İndi deyirəm ki, artıq başımızı dik tuta bilərik. Bizə bu haqqı bu torpaqları azad etmək uğrunda canını fəda edən qəhrəman övladlarımız, şəhidlər verdilər. Təkcə Elgün deyil, bütün şəhidlər bizim övladlarımızdır. Biz onlara borcluyuq, bizə görə canlarını qurban verdilər. Ruhları şad olsun.

**Qənirə Quliyeva**
*anası*

## Elin günəşi

Biz üç bacıyıq, evimizin yaşca ən kiçiyi, sonbeşiyi qardaşım Elgün idi. O, doğulanda nənəm istəyirdi atamın atası Əli babamın adını qoysun. Babam İkinci Dünya Müharibəsində iştirak edib, müharibədə itkin düşüb. Anam bu təklifə razı olmamışdı. Qorxurdu ki, Elgün də babamın taleyini yaşayar. Nəticədə yenə elə oldu. Qismət belə imiş. Sadəcə bir fərq var ki, babamın məzar daşı belə yoxdur, Elgünün var. Atam Elgündən öncə bu ağrı-acını öz atasında yaşamışdı.

Sonra valideynlərimiz belə qərar verdilər ki, mənim adımdakı hecaların yerini dəyişib, qardaşımın adını Elgün qoysunlar. Yəni elin günəşi.

Elgün doğulanda mən böyük qız idim. Qucağımda böyüyüb.

Uşaqlıqdan məktəbə, dərsə həvəsi böyük idi. Orta məktəbin 7-ci sinfini bitirənə kimi kəndimizdə oldu. Biz onu çox görmürdük. Dini təhsillə bağlı müxtəlif mədrəsələrdə, təhsil müəssilərində təhsil alıb, həmçinin orta məktəb təhsilini də bir neçə məktəbdə alıb. Buna görə çox vaxt evdən kənarda olurdu. Yalnız tətildən-tətilə onun üzünü görə bilirdik.

Çox fərqli insan idi. Doğrudur, hər kəsin qardaşı özünə əzizdir. Mən bunları qardaşım olduğu üçün demirəm, sadəcə bir insan kimi dəyərləndirirəm. Qətiyyən başqalarına bənzəmirdi. Özünəməxsus yerişi, duruşu, siması, xasiyyəti, davra-

nışları var idi. Böyüklərlə necə davranmağı bilirdi. Uşaqların yanında isə özünü elə aparırdı ki, sanki onlarla həmyaşıddır.

Deyən, gülən zarafatcıl bir xarakterə sahib idi. Qətiyyən kimdənsə nəyəsə görə küsməzdi. Simasında həmişə gülüş vardı. Problemi başından aşan insanı belə, bir sözlə, bir zarafatla güldürə bilirdi.

Hamıya qarşı diqqətli idi. İşiylə bağlı çox məşğul olurdu, ancaq zaman-zaman hamımızla maraqlanırdı. Kiməsə qarşı laqeydlik etməzdi. Sanki bu dünyadan deyildi, öz həyatını yaşamırdı. Elə hey başqalarına görə narahat olur, ehtiyaclı insanlara yardım etməyə can atırdı.

Müharibəyə getməyini bilmirdik. Sentyabrın 28-i ona bir neçə dəfə zəng etdim. Telefonuna zəng çatmadı. Günortadan sonra özü mənə zəng etdi. Narahat idim. İlk sualım da müharibəylə bağlı oldu. *Soruşdum ki, səni çağırmayıblar? Dedi ki, anama demə, sabah gedirəm.*

Səhəri gün dedi ki, kəndə gəlməyəcəm, Bakıdan birbaşa Şamaxıya rayon mərkəzinə gedəcəm. Anama dedim ki, kəndə gəlməyəcək, heç olmasa, şəhərdə get, görüş. Kaş ki, deməzdim, çünki anam deyir ki, bəlkə evdə olsaydım, getməzdi, nəsə deyərdim, onu yolundan döndərməyə çalışardım. Belə olan halda özümdə rahatlıq tapmıram.

Anam Şamaxıya çatanda, deyib ki, kəndə gedirəm, anam kəndə gəlmək istəyəndə deyib ki, gəlmə, yolda görüşəcəyik.

Mən sağollaşanda qəti üzümə baxmadı. Dedi, qayıdacam, ana, inşallah. Bizə "ana" deyə müraciət edirdi.

Orada olanda telefonla danışırdı, elə sevinirdi. Deyirdi: *"Hər şey əladır"*. Deyirdim: *"Elə danışırsan, az qala həvəslənib, biz də yanına gələk"*. Deyirdi: *"Ellik haraydır?!"* (Bizdə,

Şamaxı bölgəsində belə bir deyim var) Elə bil, müharibəyə, odun-alovun içinə yox, toya getmişdi.

Bir də şəhid olduğu gün, həmin saatlarda ağ paltarda gözlərimin önündən keçdi. Artıq üç gün idi ki, danışmırdıq, əlaqəmiz kəsilmişdi. Heç kimə demədim. Nəsə olacağı ürəyimə dammışdı, ancaq ürəyimdən dua etmək də keçmirdi. Yenə də hər şeyin yaxşı olacağına ümid edirdim.

Zamanı geriyə qaytarmaq mümkün deyil. Mümkün olsa belə, bu, Elgünün özünün seçdiyi yoldur. Allahın qədərimi, taleyin qismətimi, bilmirəm, nəticədə gözümüzün ağı-qarası Elgün qardaşımız şəhid olub, aramızdan köç etdi. Bəlkə də Elgün kimi yaxşı insanlar başqaları kimi adi şəkildə ölməməlidirlər. Bəlkə də adi ölümü Allah onlara rəva bilməyib, zirvəyə yüksəldir.

Qardaş itirmişəm. Özü də necə bir qardaş. Qəlbimdə həm onun acısını, həm də qürurunu yaşayıram. Hər bir halda həyatın bizi qarşılaşdırdığı həqiqətlərlə barışıb, qardaşımın seçiminə, seçdiyi yola hörmət bəsləyirəm.

Şəhid Elgün Quliyevin bacısı olduğum üçün qurur duyuram, amma hədsiz çox darıxıram. Elgün bizim tək qardaşımız idi. Elgündən bizə heç nə qalmadı. Çox istiyərdim ki, həmin işləmək istədiyi məktəbdə adı əbədiləşdirilsin. Gedib, tez-tez o məktəbi ziyarət edək. Bir də, şəhid olduğu yeri gedib görmək, o torpağı öpmək istəyərdim. Çünki Elgün o torpağa görə şəhid oldu. O torpağı bizdən çox istədi.

Allah bütün şəhidlərimizin valideynlərinə, ailələrinə səbr versin. Haqqlarını bizə halal etsinlər.

**Günel Manafova**
*bacısı*

## Aramızdakı cənnət mələyi

Elgünlə bağlı danışacaq saysız xatirələrimiz var. Ancaq onun haqqında keçmiş zamanda danışmaq mənim üçün çox çətindir. Bunu yaşayanlar bilər, bəzən bir doğmanı itirirsən, ondan sonra yeganə təsəllin onunla ortaq xatirələrin olur. Bu xatirələr itirdiyin doğmanın səndə olan yadigarıdır. Bəzən düşünürsən ki, mən onları olduğu kimi qoruyub, məhrəm saxlamalıyam. Çünki doğmasını itirmək hər bir insan üçün qəbuledilməzdir. Bir gün onun qayıdacağına özünü inandırmağa çalışırsan.

Nə zamansa yenidən geri dönəcək və öz xatirələrinə sahib çıxacaq. Üzərindən müəyyən zaman keçdikdən sonra gözün yollardan çəkilir. Bu dəfə onu itirdiyinə inanmağa başlayırsan. Ancaq bu dəfə yenə də onunla bağlı xatirələrini qorumağa çalışırsan. Bu xatirələr sənin onunla bağlı son ümidindir. Elə bilirsən ki, bu xatirələri harasa, kiməsə danışsan, onların sirri itəcək. Beləcə itirdiyin doğman kimi, onun xatirələrini də itirəcəksən.

Elgün də bizim itirdiyimiz doğmamızdır. Düşünmürəm ki, onları paylaşsam, Elgünün özü kimi, xatirələrini də itirəcəyəm. Çünki Elgün sıradan bir ölümlə itirilmiş doğma deyil, artıq bizim qardaşımız olmaqdan əlavə xalqın övladı statusunu alıb, bu vətən, bu xalqın milli qüruru uğrunda canını fəda etmiş qəhrəmandır. Biz danışsaq da, danışmasaq da onu tanıyan hər kəs haqqında danışır. Onun gözəl, nümunəvi davranışlarından söhbət açır, onunla bağlı xatirələrini bölüşür.

Bu xatirələrin kəsişmə nöqtəsi Elgünün xeyirxah insan kimi ən uzaq tanışından, ən yaxın dostuna kimi hər kəsin qəlbində iz buraxmasıdır.

2020-ci ilin yaz aylarının sonları idi. Pandemiya ölkədə hər kəsə mənfi təsir etdiyi kimi, bizə də maddi baxımdan xeyli təsir etmişdi. Təcili pula ehtiyacımız var idi. Düşünürdük ki, bankdan kredit götürək, əlimizdəki işi həll edək, sonra yavaş-yavaş qaytararıq.

Elə bir vəziyyət yarandı ki, Elgün bundan xəbər tutdu. Bizim banka girib, əlavə faizlə pul ödəməyimizə razı olmadı. Əlindəki pulu bizə verdi. Biz işimizi gördük. Halbuki maşın almaq üçün o pulu yığırdı. Hələ də ürəyimi yandırır. O şəhid olana qədər biz o pulu tam qaytarmamışdıq.

Onsuz da biz şəhidlərə ölənə kimi borcluyuq. Amma bu, bizim boynumuza ikiqat borc oldu. Heç vaxt maddiyyat düşünən, dünya malı üçün kimlərisə əzən biri olmadı. Şərəflə, mərhəmətlə, ətrafına qarşı sevgi bəsləyərək yaşadı. Elə bir qardaşım olduğu üçün mən qürur duyuram. Allahın seçilmiş bəndəsi imiş, aramızda yaşayan cənnət mələyi.

**Günay Məmmədova**
*bacısı*



## Qəhrəman qardaşım

Elgün doğulanda mənim üç yaşım var idi. Sonra anamgilə danışanda da təəccüblənirdilər ki, o yaşda necə yadımda saxlamışam.

İlk evimizə gəldiyi günü bugünkü kimi xatırlayıram. Anam bələyi açıb, bizə göstərdi ki, bu da qardaşınız. Elə fərəhlənirdim ki, mənim də qardaşım var.

Elgün həmişə bizim fərəhimiz, qürur mənbəyimiz oldu.

Həddindən artıq zirək və çalışqan idi. Qarşısına məqsəd qoyub, o məqsəd uğrunda iradəylə çalışmağı bacarırdı. İstər təhsili, istər çalışqanlığı, istərsə də gözəl davranışlarıyla ətrafı da bu gözəlliklərə təşviq edə bilirdi. Qəribə bir enerjisi vardı. Adam onunla üz-üzə gələndə simasındakı təbəssümlə səni düşündürən ən çətin problemini belə unutdura bilirdi.

Biz Elgünlə evin azyaşlıları idik. Birgə deyib, gülürdük, zarafatlaşırdıq, evdəkiləri də güldürürdük. Bizi uşaqlığımızdan bir-birimizə bağlayan bir dəyər də təhsil idi. İkimiz də müəllim olmaq istəyirdik. Ümumiyyətlə bizim ailəmiz müəllim ailəsidir. Anam müəllimdir, bacılarım da ibtidai sinif müəllimliyi üzrə təhsil alıb. Elgünlə, mən isə fərqli sahələr seçmişdik, o, tarix müəllimliyi, mən dil-ədəbiyyat. Çox vaxt müzakirələrimiz də təhsil haqqında olurdu.

Müəllimlərin İşə Qəbulu İmtahanından sonra mənə demişdi ki, seçimlə bağlı kodlaşdırmanı sən apar. Elə sevinirdi

ki, illərin tarix müəllimliyi arzusunun reallaşmasına az qalmışdı. Mən də onun qədər sevinirdim.

Bir yazışmamız var. Müxtəlif ucqar rayonların adlarını yazıb göndərmişdi. Xüsusilə də Gədəbəy rayonunu işarə edirdi. Aramızda belə bir dialoq keçmişdi. Mən ona etiraz edirdim:

- Deyirlər, müharibə olacaq.

- Olsun da. Tarix müəllimi olmasaq, tarix yazarıq.

- Gədəbəyi seçməyək, lazım deyil. Cəbhə bölgəsinə yaxın yerdir.

- Yaxşı, narahatsansa, sil, başqasını seç. Ana, seçdinsə, təsdiqlə.

- İnşallah, alınan yerlərdə gedib, dərs keçərik.

- İnşallah.

- Ana, vaxtını deyiblər, nə vaxt olacaq? (müharibəni nəzərdə tutur)

Son danışığımız Noyabrın 5-i oldu. Dedim, *“Elgün çox irəli getmə”*. Dedi: *“Ana, irəli getməyənlər deyir ki, qorxuram”*. Dedim: *“Sən də de, qorxuram”*. Dedi: *“Mən qorxmuram”*.

Allah elə bir mərtəbəylə Elgünü bizdən aldı ki, biz olmayanda da onun adı yaşayacaq. Deyirdi ki, heç vaxt doğrunu deməkdən çəkinmə, heç kimdən qorxma.

Bizi uşaqlıqdan elə tərbiyə etmişdilər ki, səsini çox ucaltmaq, ucadan danışmaq olmaz. İndi hər şeyi kənara qoyub, var gücümlə “Elgün” deyə səslənmək istəyirəm. Düşünürəm ki, bəlkə haradansa səsimi eşidib, gələr.

Bizim Elgünlə birlikdə çox arzularımız, planlarımız var idi. Hamısı yarımçıq qaldı. Amma nə qədər ürəyim yansa da, Elgünün mərdliyi, igidliyi mənə güc verir.

**Aysel Quliyeva**
*bacısı*

## Şəhadət günəşi

Həyat bəzən insanlarıı müxtəlif zamanlarda eyni hadisələrlə təkrar qarşılaşdırır. Söhbət gündəlik qarşılaşdığımız və ya qarşılaşa biləcəyimiz adiləşmiş kiçik hadisələrdən getmir, öz doğmanı itirmək kimi təsiri illərlə davam edən hadisələrdən gedir. Məsələn, bir insan iki valideynini müxtəlif zamanlarda itirir, nəticədə eyni hadisəylə təkrar qarşılaşır. Bir də var, bu tip, ancaq ictimailik statusu qazanmış hadisələr. Bunlar artıq sənin şəxsi həyatından əlavə sənlə birlikdə ictimaiyyətin də yaşadığı hadisələrdir. Sadəcə kökü sənə bağlıdır.

Şəhidlik – bu ictmai status, dəyər və ad İkinci Qarabağ Müharibəsində mənim üçün leksikonuma yeni daxil olan söz deyildi, yaddaşıma yad ifadə deyildi, hətta doğmadır, desəm, yanılmaram.

Bu adın bağışladığı təsiri, daşıdığı yükü, əhatə etdiyi geniş anlamı, ifadə etdiyi dəyəri, yaşatdığı ağrı-acını, qürur hissini ilk dəfə uşaqlığımda yaşamış və tam anlamıyla dərk etməyə çalışmışam. Bu təsir bizim evdə ikinci hərbçinin yetişməsinə rəvac verirdi. Sonralar ailəmin hərbçi həyatıyla bağlı yaşadığı bütün narahatlıqlar, sevinclə, kədərin, üzüntüylə, qürurun birlikdə yaratdığı qarışıq hisslər, cəbhədən-cəbhəyə qaçmaq, minlərlə şəhidin qanıyla suvarılmış təmas xəttində ximət etməyə həvəsli yeniyetmə ömrümdə əks olunub, geri qayıtdı. Bircə atamdan başqa.

Doğulduğum Göylər kəndi Birinci Qarabağ savaşında altı qəhrəman övladını şəhid vermişdi. Bu qəhrəmanlardan biri də atam şəhid Əlisuvar Məmmədov idi. Vətənə olan

sevgimin də əsas tərkib hissəni atamın şəhidliyi təşkil edirdi. Doğrudur, bu şəhidlik mənim körpə ömrümə bir tərəfdən "yetim" anlayışını gətirmişdisə, digər tərəfdən yeniyetməlik dövrümə "hərbçi" anlayışını qazandırmışdı. Uşaqlığımda atamın şəhadətiylə başlanan bu hadisə sonrakı həyatımda dəfələrlə qarşılaşdığım həyat sürprizinə çevrildi.

Hərbçi olmaq hər gün şəhidlə qarşılaşmaq deməkdir. Hətta özünün də şəhidliyə könüllü imza atmağın anlamına gəlir. Həyatımda təsirinə düşdüyüm ilk şəhadət məni hərbçi olmağa həvəsləndirmişdi. Hərb həyatım illər öncə işğal olunmuş torpaqlarının illərlə azadlıq arzusunu öz köksündə daşıyan vətənin neçə-neçə qəhrəman övladlarının şəhadətinə şahidlik etmişdir.

Eyni hadisələrin təkrarı çox vaxt o hadisələri adiləşdirir, bağışladığı təsiri azaldır. Şəhidlik kədərin və qürurun birliyini formalaşdıran elə bir hadisədir ki, hər dəfə yaşandıqca, təsiri daha da çoxalır.

İkinci Qarabağ savaşına kimi uzun bir hərbi xidmət dövrü keçmişdim. Demək olar, cəbhənin bütün mövqelərində müxtəlif rütbə, vəzifələrdə xidmət etmişəm. Hər zaman işğal olunmuş Qarabağımızın bir addımlığından ona baxıb, köks ötürürdüm, öz-özümə deyirdim ki, bu torpaqları azad etmək üçün bircə döyüş əmri kifayətdir. Əminəm ki, mənimlə birlikdə eyni həyatı yaşayan, eyni peşənin nümayəndələri eyni hissləri keçirirdilər, həmin əmri gözləyirdilər. Bu əmri biz nə az, nə çox Azərbaycan xalqının övladı kimi 28 il, hərbçi kimi 25 il gözlədik.

Artıq keçmiş sayılan atəşkəs dövründə bir neçə irimiqyaslı döyüş əməliyyatları olmuşdu ki, bu əməliyyatlar xalqın Qarabağla bağlı zaman-zaman öləziyən ümidlərinə dirilik suyu çiləyirdi. Təbii ki, bu hadisələrin ilki 2010-cu ildə Azər-

baycan ordusunun giziri, Milli Qəhrəman Şəhid Mübariz İbrahimovun qəhrəmanlıq nümunəsi idi. Ümidlərimizi qanadlandıran ikinci hadisə isə tarixə 2016-cı ilin Aprel döyüşləri kimi düşən, onlarla igid qardaşımızın şəhadətinə şahidlik etdiyimiz döyüş əməliyyatları idi. Ancaq bu hadisələr torpaqlarımızın azad olması, xalqın narahatlığı və həsrətini çəkdiyimiz cənnət Qarabağın azadlığı üçün bir vasitə olmalı idi. Adını atəşkəs qoyduğumuz bu dövr əslində gözə görünməyən müharibə aktı idi. Hər dəfə düşmən atəşkəs şərtlərini pozurdu, hər dəfə övladı cəbhədə xidmət edən analar sarsıntı keçirir və "atəşkəs sülhü"nün əməl olunmayan şərtləri altında oğullarımız qurban gedirdi.

2020-ci ilin İyul döyüşləri, bu döyüşlərdə Azərbaycan ordusunun general – mayoru, Milli Qəhrəman, Şəhid Polad Həşimovun və timsalında neçə-neçə hərbçi qardaşlarımızın şəhid olması xalqın ümidlərinə ömürlük can verdi, bizi Qarabağa bir addım da yaxınlaşdırdı. Bu döyüşlər bizə qələbə müjdəsi verəcək müharibənin son və ən vacib mərhələsi idi. Bu şəhadət xalqımızı birləşdirib, meydanlarda müharibə istəməyə, torpaqlarımızın azadlığı uğrunda can verməyə hazır olan minlərlə igidimizi komissarlıqlara axın etməyə sövq edən azadlıq carçısı idi.

Nəhayət ki, həsrətində olduğumuz döyüş əmrini 2020-ci ilin Sentyabr ayının 27-i eşitdik. Bu əmr qulaqlarımızda əks-səda verib, illərin həsrətini gözlərimizdə qığılcıma çevirdi.

Hərb bir hərbiçinin həm peşəsi, həm də həyat tərzidir. Hərbçi müharibənin nə olduğunu peşəsinə əsaslanmış dərslərdə, təlimlərdə öyrənir. Bir hərçi müharibəyə qədər onu bütün prizmalardan müşahidə edir, onun bütün tərəflərinə bələd olur. Atəşkəs dövrü yaşayan ölkənin əzizim hərbçiləri isə keçdikləri təlimlərdən əlavə də gördükləri kiçik miqyaslı döyüş əməliyyatlarında buna daha yaxşı bələd idilər.

Döyüş əmri bizim xalq olaraq dönüş nöqtəmiz idi. Hərbçi olaraq bizlərin illərlə təlimlərdə qazandığımız bilik və təcrübələri nümayiş etdirməyimizin zamanı gəlmişdi. Ancaq müharibə deyiriksə, burada bir hadisə çərçivəsində təkrar-təkrar qarşılaşacağımız şəhadət hadisəsi də var idi.

Döyüş əsnasında mən cəbhədə idim. Cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatları aparırdım. Hər gün onlarla igidimiz yaralanırdı, onlarla cəbhə yoldaşımın şəhadətinə şahidlik edirdim, bəziləri son sözünü deyib, qucağımızda can verirdi.

Cəbhədə döyüşərkən xəbər tutmuşdum ki, həyat yoldaşımın aman-zaman qardaşı Elgün də könüllü olaraq döyüşdə iştirak edir. Doğrusu, Elgünün şəxsiyyətinə bələd olduğum üçün onun bu davranışı məni təəccübləndirməmişdi. Elgündən elə bu cür nümunəvi davranış gözlənilirdi. Ancaq haradan baxsam, ailəmin bir üzvü və evin tək oğlu idi. Ona görə narahat idim. Sonrakı günlərdə danışmaq imkanımız yarandı, cəbhədən-cəbəhəyə telefonla danışırdıq.

Elgüngilin ailəsini də həyat mənim kimi bir dəfə şəhadətlə qarşılaşdırmışdı. Bunu, ailənin gənc üzvləri görməsə də, ailənin başçısı, yəni Elgünün atası Vasif bəylə, nənəsi Nadya xanım yaşamışdı. Elgünün babası İkinci Dünya Müharibəsinə gedib, geri dönməyib. Vasif ata da mənim kimi, şəhadətə yüksələn atasının qəhrəmanlığının təsiri altında böyümüşdü. Üstəlik, mənim atamla da sinif yoldaşı, dost olublar. Atasından əlavə mənim atamın da şəhidliyinin təsirində qalıb, bu kədəri də, qüruru da ikili yaşayıb. Ancaq ağlımıza gəlməzdi ki, həyat bizim keçmiş xatirələrimizi yeni bir şəhadət hadisəsiylə təzələyəcək, doğulub, boya başa çatdığımız Göylər kəndində bizim ailəmizdən yeni bir şəhadət günəşi doğacaq.

Elgün adı mənim üçün bir doğmamın, ailə üzvümün şəxsiyyətini təmsil edirdi. İndi bütöv bir xalqı təmsil edir.

Elgünlə bağlı bir kitaba sığmayacaq xatirələr var. Onun şəxsiyyəti ən ali, ən müqəddəs anlayışların timsalında onu tanıyanlara onu xarakterizə etmək imkanı verir.

Elgün mənim xatirimdə ən xoş xatirələrlə yadda qalıb. Çünki o, müsbət mənada hər nəsnənin "ən"lərinə sahib idi. Pozitiv düşüncəli, zarafatcıl, vətənpərvər, fədakar, İslam baxışlı, alicənab, mədəniyyətli, tərbiyəli, öz davranışlarının yerini bilən, ətrafa qarşı diqqətcil, böyüklə böyük, kiçiklə kiçik kimi rəftar edən, ailəcanlı bir insan kimi yaddaşıma həkk olunub.

Sonuncu telefon danışığımız oktyabrın 28-i olmuşdu. Biz ayrı-ayrı istiqamətlərdə döyüş meydanlarında mübarizə aparırdıq. Ondan hansı istiqamətdə olduğunu soruşanda, Xocavənd istiqamətində olduğunu söylədi. Söhbət əsnasında zarafatlaşdıq. Dedim, Elgün, mən indi Ağdamda müdafiə zolağındakı mövqelərdən birindəyəm, sən məni də irəliləyib, keçmisən.

Elgün artıq şəhiddir. Şəhid eyni milli kimliyin, mədəniyyətin daşıyıcısı olan milyonlarla insanın milli qürurunun daşıyıcısıdır. Elgün artıq bizim ailəmizin yox, bütün xalqın övladıdır. Şəhidliyin bir xüsusiliyi də var ki, səni şəxsən tanımayan milyonlarla insanın sənin haqqında bir xatirəsi olur. Elgünün təkcə bizim dilimizdən səslənəcək deyil, milyonlarla insanın qəlbində yuva salmış xatirələri var. Elgün artıq tarixdir. Bir tarix müəlliminin qəhrəmanlığıyla yazılan tarix.

Elgünün timsalında şəhadətə çatmış bütün qəhrəman qardaşlarımıza sevgi və sayğıyla. Ruhları şad olsun.

**Polkovnik leytenant Seyran Məmmədov**

*kürəkəni, hərbçi*

## Gülüşümüzün memarı

Elgün həyatımın böyük bir parçası, demək olar ki, xatirələrimin 95 faiziylə birbaşa əlaqəsi olan (Rəsulov Xəyal ilə birlikdə) dostum, qardaşım, sinif yoldaşım idi. Elgün dedikdə böyük bir ah çəkirəm, bu ahda həm qürur, həm fəxr və mənim üçün düşüncələrə sığmayan bir qəm, fəryad var və ən əsası insanın üzündə istər - istəməz təbəssüm yaranır.

Elgünlə ilk tanışlığımız 1998 -ci ilin Sentyabr ayında Göylər kənd 2 saylı tam orta məktəbin 1 -ci sinifinə təsadüf edir. İbtidai sinfə Minə müəllimənin rəhbərliyi altında bir yerdə başlamışıq. Uşaq yaşlarından Elgün öz dərrakəsi, çalışqanlığı, təlim-tərbiyəsiylə həmyaşıdlarından fərqlənirdi və bu xüsusiyyətlərinə görə də bizim sinfin sinif nümayəndəsi təyin olunmuşdu. Elə bu vaxtdan bəri Elgünlə dosdluğumuzun təməli qoyuldu. Həmin yaş dövründən hər zaman böyük düşünməyi və addımlarını da bu düşüncəyə nəzərən dəqiq atmağı bacarırdı.

Ailəsi, Elgünü uşaqlıqdan yardımsevər, vətənpərvər yetişdirmişdi. Heç vaxt yadımdan çıxmaz, musiqi dərslərində hər kəs müxtəlif mahnılar oxuyanda Elgün xüsusi intonasiya ilə vətənpərvər mahnılar oxuyardı və Allah onun səsinə elə bir gözəllik, ecaz vermişdi ki, o, oxuyanda hər kəsin tükləri biz-biz olardı. Daha sonra səhv etmirəmsə, biz beşinci sinifdə oxuyanda Xəyal da bizim sinfə qoşuldu və bir müddətdən sonra illərin dosdluğunun təməli qoyuldu.

Elgün çox şən, zarafatcıl insan idi, çox deyib, gülərdik. Hətta bir dəfə təxminən on beş- iyirmi dəqiqə dayanmadan gülmüşdük. Elgün haqda o qədər xatirələr var ki, amma ifadə etməkdə çətinlik çəkirəm. Mən xatırlamıram ki, məktəb dövrü kimsənin Elgün haqqındada hər hansı bir neqativ düşüncəsi olsun, çünki əsla kimsəyə pis davranmazdı. Hər zaman dərslərdə çətinliyi olan sinif yoldaşlarımıza əlindən gələn köməkliyi göstərərdi. Sonra Şəki İslam Kollecinə daxil oldu, Quran hafizi olaraq, kursu müvəffəqiyyətlə bitirdi.

Daha sonra o, Sumqayıt Dövlət Universitetinin "Tarix" fakültəsinə qəbul oldu. O ərəfələrdə mən də həmin universitetin "Kimya" fakültəsində oxuyurdum. Orada da ara-sıra görüşür, dərdləşirdik. Universiteti bitirdikdən sonra hərbi xidmətə yollandı. Əvvəlki təmas xəttində ön nəzarət məntəqəsində xidmət etdi. 2016-cı ilin Aprel döyüşləri ərəfəsində tərxis olub, gəlmişdi.

Mən Elgünün nəyi isə asanlıqla əldə etdiyini görməmişəm. Hər zaman hər şeyi özünün alın təri ilə, əzab-əziyyətə qatlaşaraq əldə eləyib və hər zaman halal yaşayıb. Elgün haqsızlıq görsə heç vaxt susmazdı, dayanmazdı, möhtəşəm bir qəlbi vardı dostumun.

Tez-tez "Şamaxinka" deyilən ərazidə görüşərdik, Elgün, mən bir də Xəyal. Elə ki, gəlib, bizi sakit, yorğun halda görərdi, dərhal bir zarafatla, xoş sözlə kiçik məclisi şənləndirərdi. Mümkün deyildi ki, o zarafat edə, gülməyəsən. Hər zaman başqalarının xoşbəxtliyini özününkündən əvvəl düşünürdü. Bir sıxıntısı, bir dərdi olanda deməzdi, sözü ondan kəlbətinlə alardıq.

Çox böyük dünya görüşünə sahib idi. Həm elmi, həm dini baxımdan. Tarixi çox sevirdi, həmişə Azərbaycanın tarixi şəxsiyyətlərindən, sərkərdələrindən ağız dolusu qürurla

sitatlar gətirirdi. Bir də bizi israrla dinə dəvət edirdi. Bir sözü vardı: *"Qardaşlar vallahi ki, bu yoldan başqa yol yoxdur və olan yol da düzgün deyil"*. Allahını, dinini, ailəsini, el-obasını və xalqını çox sevirdi.

Elgünün bir xüsusiyyəti də vardı, mübahisələri sevməzdi, amma hər zaman girdiyi mübahisələrdə sözünü axıra kimi diqtə edir, qarşı tərəfi susdurmağı bacarırdı. Söz bazası çox geniş idi. Həmişə bayramlarda, yay aylarında üçümüz kəndə birlikdə gedirdik, yenə görüşüb çay içər və söhbətləşərdik. 2020-ci ilin İyul döyüşlərində bizim böyük generalımız Polad Həşimov şəhidlik zirvəsinə ucalandan sonra çox gileylənirdi ki, bu məsələ birdəfəlik həll olunmalıdır. Şəhid gələn evləri, ailələri düşünüb köks ötürürdü, *"Onların halını başa düşmək mümkün deyil"* deyirdi. Hər zaman şəhid olmaq arzu və istəyini də dilə gətiməkdən çəkinmirdi. Müdaxilə edəndə də deyirdi: *"Siz başa düşmürsünüz şəhidlik nədir, necə zirvədir"*.

Sonralar qərara gəldi ki, sənədlərini verib, müəllimliyə başlasın və istəyi də ucqar dağ kəndlərində dərs demək idi. Sənədlərini verdi, həmişəki kimi, müvəffəqiyətlə mümkün 60 baldan 52 bal topladı və Lerik rayon Sors kəndinə təyinat aldı. Amma bu ərəfələrdə, sentyabrın 27-si 44 günlük Vətən Müharibəsi başladı. Bir neçə dəfə valideynlərindən gizli könüllü olaraq qeydiyyatdan keçmişdi. Sentyabrın 29-u cəbhəyə yollandı. Gedərkən danışdıq, halallıq istədi.

*- Dedim, qardaş, o nə sözdür?!*

*- Dedi, sən halallığını ver, inşallah, qayıdacam, görüşərik.*

Halallaşdıq, amma qismət belə oldu ki, qayıtmadı və o gün bu gün görüşə bilmədik. Çünki qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı mənim dostum.

İnanın, Elgün haqqında danışmaq mənə çox çətindir. Həm şərəf, qürur duyuram, həm də 22 illik dostum, qardaşım, həyatımın bir parçasına sahib olan bir şəxsiyyət artıq yoxdur. Mən də, Xəyal da böyük çaşqınlıq içərisindəyik. Baş verənlər bizə yuxu kimi gəlir. Elgündən sonra Xəyalı bir daha əvvəlki kimi görə bilmədim.

Elgün bizim dostluğumuzun ən yaxşı tərəfi, təbəssümümüzün memarı idi. Onsuz hər şey daha əvvəlki kimi əhəmiyyət kəsb etmir. Əvvəl dediyim kimi, hər zaman tarixi şəxsiyyətlərdən, qəhrəmanlardan ağız dolusu danışardı. Bu gün də mən onu böyük şəxsiyyət və qəhrəman, şəhid kimi anıram, hər nə qədər dodağım titrəsə də, gözlərim dolsa da, fəxr edirəm ki, elə bir dostum, qardaşım olub və biz şanslı olmuşuq ki, onu tanımışıq, ondan nələrsə öyrənmişik. Gəzdiyimiz, getdiyimiz hər yerdə Elgünlə bağlı xatirələr var. Bəzi yollardan heç keçmirəm ondan sonra, bəzilərində dayanıb, köks ötürürəm, kövrəlirəm.

Elgündən ötrü həddindən çox darıxmışam. Hər zaman qəlbimdə qürur, fəxarət hissi ilə daşıyacağam mən Elgünü. Elgün adından da göründüyü kimi, sözün əsl mənasında elinin-obasının günəşi oldu.

Elgün hətta telefon zəngində də dini təbliğ edirdi və bu gün həmin zəngi mən istifadə edirəm. Həm Elgünün məqsədini davam etdirmək, həm də mənim onun məramına bəslədiyim sevginin xətrinə. Elgünü ifadə etməyə kəlimələr kifayət eləmir, o, mənim üçün ömürlük dost, qardaş, sirdaş olaraq hər zaman qəlbimin, həyatımın bir parçası olacaq. Hamı qocalacaq, amma o, elə həmin yaşda, həmin simada qalacaq.

Müəllimlik imtahanına hazırlaşanda deyirdi ki: *“Qardaşın yüksək bal toplayacaq, onu televiziya kanallarında və sosial mediada paylaşılan şəkilləriylə hamı tanıyacaq”*. Elə də oldu,

həm yüksək bal topladı, həm vətənin qəhrəman övladı kimi şəkilləri dünyanın dörd bir yanına yayıldı. Əziz dostum təkcə müəllimlik imtahanından deyil, vətən imtahanından da yüksək bal toplayaraq, bu dünyadan, o biri dünyaya keçdi. Allahdan qardaşıma rəhmət diləyirəm. Məkanı cənnət olsun, inşallah. Və son olaraq deyim ki, heç kəs onun kimi gülə bilmir və heç kəs onun kimi güldürə bilmir.

**Şirvan İbrahimov**
*uşaqlıq dostu*



## Dostluq üçbucağı

İnsan itirdiyi doğmaları haqqında danışanda sözü haradan başlayıb, harada bitirəcəyini bilmir. Bizim həyatımızda müxtəlif statusda insanlar olur; ailə üzvləri, qohumlar, tanışlar, yoldaşlar, dostlar. Elə insanlar var ki, onlarla qan qohumluğun olsa belə, onillərlə münasibətin "Salam, Necəsən?"i keçmir. Elə insanlar da var ki, onları heç uzun müddət tanımağa ehtiyac olmur, heç bir qan qohumluğun olmadığı halda doğmana çevrilir. Sən onu dost deyib, həyatına daxil edir, doğma deyə sarılırsan. Bəzən bu cür adamları heç sınaqdan da keçirməyə ehtiyac olmur. Sanki siz tanış olmamışdan öncə hər şey ölçülüb, biçilib, ruhlarınız, xarakterləriniz, düşüncələriniz eyni qəlibin içərisində yaradılıb, bir-birinə uyğunlaşdırılıb.

Elgün də mənim üçün eyni ananın bətnindən doğulmasaq da, eyni dünyaya ruh əkizi olaraq göz açdığım bir insan idi. Onu tanıdığım gündən etibarən haqqında təəssüratlarım necə olubsa, son günə qədər o təəssüratlar heç dəyişməyib. İlk gündən onunla tanışlığımızdan, dostluğumuzdan dolayı qürur hissi keçirmişəm. Fəxr etmişəm ki, mənim belə bir dostum var. Əsasən də daha çox son illərdə, son zamanlarda pandemiya dövründə demək olar ki, hər günümüz bir keçdi deyə, bu hiss məni daha da ağuşuna aldı.

İndi isə Elgündən söhbət gedəndə dərin bir ah, dərin bir hüzn və kədər içimi bürüyür. Amma deyərdim ki, Elgündən danışanda gülümsəməmək də mümkün deyil. Çünki adamın simasında elə bir nur vardı, necə ola bilər ki, o nuru,

o gözəlliyi xatırlayasan, o gülüşü xatırlayasan və sən gülümsəməyəsən?! Onu xatırlayanda içim fərəhlə dolur.

Hər kəsin fərdi xüsusiyyətləri var. Biz insanları o xüsusiyyətləriylə tanıyırıq. Hətta deyərdim ki, özünəməxsusluq insanların “şəxsiyyət vəsiqəsi”dir.

Elgünün fərqliliyi qeyri-adi idi, özünəməxsus, orijinal, təkrarlanmayan nəsnələrə sahib idi. Məhz bu səbəbdən o, məni özünə daha da yaxınlaşdırırdı. Elgünlə biz beşinci sinifdən bir sinif otağını bölüşmüşük. Bildiyimiz kimi, acılı-şirinli, qayğısız məktəb illəri ömrün ən unudulmaz illəridir. Məktəb, sinif yoldaşı çox olur, ancaq həmin o sinif yoldaşlarından daha sonralar seçilib, həyatımızda iki-üç dost qalır. Mənim həyatımda da bütün sınaqlardan keçib, adı ömrümə dost kimi yazılmış iki sinif yoldaşım var, biri Elgün, digəri isə Şirvan. Bu dostluq və onun xatirələrində üçümüz də şərikik. Üç nəfər bir arada möhtəşəm bir dostluq üçbucağı qurmuşduq. Orta məktəbi də, yeniyetməlik dövrlərini də bərabər keçirmişik.

Şirvanla Elgün eyni universitetdə təhsil alıblar. Orada onların daha çox bərabər zamanları keçib. Elgünün həyata həvəsi, ruh yüksəkliyi, həyat eşqi, enerjisi çox yüksək idi. Bu isə ona daim aktiv olmağa, mübarizə aparmağa, həvəslə hər işin arxasınca qaçmağa stimul verirdi. Onun bu stimulu bizə də ötürülmüşdü. Elə olurdu ki, üçlükdə görüşməyi planlaşdırırdıq. Elgün gecikirdi. Ya Şirvanın, ya mənim bir problemimiz olurdu və ya işdən yorğun çıxıb, gəlirdik. Sonradan bizə qatılan Elgünümüz bunu o dəqiqə hiss edirdi. Onun nəinki yaxınlaşıb, salamlaşması, zarafatyana nəsə deməsi, uzaqdan üzümüzə gülümsəyən siması belə kefimizi açırdı. Öz gülüşü ilə gəlməsi, qaşqabağımızı görüb birbaşa müdaxilə etməsi və istənilən halda zarafatları ilə könlümüzü oxşaması bir aləm idi. Həmçinin adamın vətən sevgisi çox yüksək idi. Düşünürəm

ki, bu, həm də onun tariximizi ətraflı şəkildə bilməyindən irəli gəlirdi. Onun tarixi hadisələri danışması, ən çox sevdiyim anlardan idi. Çünki elə geniş, ətraflı şəkildə izah verirdi ki, sanki öz gözləri ilə görüb və mənə də o anı yaşadırdı.

Vətən müharibəsi başlamazdan əvvəl generalımızın şəhid olması, onu çox sarsıtmışdı. Döyüşlərdən bir neçə gün sonra görüşmüşdük. *“Bu qədər bəsdir daha, ayağa qalxmaq lazımdır, yatmaq vaxtı keçib, bu ölkəyə müharibə lazımdır”* deyirdi. Dediyi və istədiyi kimi də oldu.

Müharibə başlayanda özünün də çağırıldığını dedi. Hər kəsdən xəbərsiz könüllü müharibəyə getmək üçün dəfələrlə yazılıbmış, bu isə onun vətən sevgisindən, düşmənə olan nifrətindən irəli gəlirdi. Bir sözlə, çox uzatmadan deyim ki, Elgün həyatımda fərqləndirdiyim və fərqlənən, həyatıma gözəllik saçan, dəyər verdiyim ən gözəl insanlardan idi, bunu ona görə demirəm ki, bu gün məhz söhbət ondan gedir. Bunu ona görə qeyd edirəm ki, o, doğurdan da mənim həyatımda ən önəmli varlıqlardan biridir. O, ölməyib, diridir və biz yaşadıqca həyatımızın bir parçası olacaq.

Mən səni daima sevməyə davam edəcəyəm, dostum! Mən səni bir ömür boyu unutmayacağam, çünki bu mümkün deyil. Sənin üçün çox darıxmışam. Və bütün ömrüm boyu darıxmağa davam edəcəyəm. Allah sənə yar olsun, Elgün!

**Xəyal Rəsulov**
*uşaqlıq dostu*

## Onlar bizdən böyükdürlər

Azərbaycan qəhrəmanlar diyarıdır. Sahib olduğumuz müstəqilliyi, suverenliyi əldə etmək üçün tarix boyu neçə-neçə igid balalarımızı bu yolda qurban vermişik. Biz xalq olaraq varlığımızı bu qəhrəmanlara borcluyuq.

Təsəvvür edin, bir məktəbdə yüzlərlə, minlərlə şagird oxuyur. Bu qədər şagirdin içərisindən müsbət mənada seçilmək və illərlə xatırlanmaq hər şagirdə nəsib olmur. Bu, artıq verilən təlim-tərbiyədən əlavə şagirdin özünə aid olan ali dəyərdir. Bu cür şagirdlər hara getsələr, onları yetişdirən valideynlərin, təhsil verən məktəbin adını ucaldırlar. Onların çalışqanlığı, nümunəvi davranışları, bacarıqları ətrafdakı digər şagirdlərə də örnək olur, yaxşı təsir bağışlayır.

Elgün də məktəbimizdə oxuyan şagirdlərin içərisində nümunəvi davranışlarıyla, savadıyla, ədəbiylə seçilən xüsusi şagirdlərdən idi. Məktəbimizdən məzun olduqdan sonra da illərlə xatırlanırdı, biz onu öz şagirdlərimizə nümunə kimi göstərirdik.

Beş il bizim məktəbdə şagird olub. Özü Şamaxı rayonundan idi. Qonşuluqda "Niyal Hazırlıq Kursları" fəaliyyət göstərirdi. Həm orada universitetə hazırlaşırdı, həm də bizim məktəbdə orta məktəb təhsili alırdı. Birmənalı olaraq mübaliğəsiz, tam səmimiyyətimlə deyirəm, olduqca tərbiyəli bir oğlan idi. Dərslərində kifayət qədər çalışqan şagird idi. Bütün müəllimlərin sevimlisinə çevrilmişdi.

Həyat Elgünü birinci dəfə bizim qarşımıza şagirdimiz kimi çıxarmışdı, növbəti dəfə qəhrəmanımız kimi çıxardı.

Şagird kimi məktəbimizin zirvəsində idi, övlad kimi vətənin, insan kimi insanlığın zirvəsinə yüksəldi.

Elgün artıq Azərbaycanımızın unudulmaz qəhrəman oğullarından biridir. Onlar indi bizdən böyükdürlər.

Elgünün və timsalında bütün qəhrəman oğullarımızın ruhu şad olsun.

**Qalib Bəşirov**
*İsmayıllı rayon 6 saylı məktəbin direktoru*



## Sevimli şagirdim

Mən Elgünün sinif rəhbəri olmuşam. Elgün bizim məktəbdə, yəni İsmayıllı şəhər 6 saylı tam orta məktəbdə təhsil alıb. Sinif rəhbərliyi ilə yanaşı mən Elgünün fənn biliyi müəllimi olmuşam. Elgün bizim yaddaşımızda qalan, həmişə qəlbimizdə yaşayacaq yaxşı şagirdlərimizdən biridir. Onu hamımız çox istəyirdik, sinif yoldaşları da, ona dərs deyən müəllimlər də. Sinif rəhbəri kimi mənim də qəlbimdə həmişə onun xüsusi yeri var. Bu hörməti təlim-tərbiyəsi, davranışı, yoldaşlarına qarşı xoş münasibətiylə qazanmışdı.

Elgün bizim məktəbə gələndə 7-ci sinfə gəldi ilk dəfə, belə çox sakit təbiətli, mehriban, təlim-tərbiyəsi yerində olan bir şagird idi. Yadımdadır, Fizika otağından içəri girəndə sağ tərəfdə ikinci masada otururdu həmişə. Çox utancaq idi. Bir dəfə məktəbimizdə "İstedad yarışı" adlı bir müsabiqə keçirildi. Həmin yarışda sinfimiz birinci yeri tutdu. Onlarla danışarkən dedim ki: *"Arzu edirəm ki, sizin səsiniz-sorağınız daha yüksək zirvələrdən gəlsin, sizinlə sinif rəhbəri kimi fəxr edək, müəllimləriniz də sizinlə qürur duysun, valideynlərinizin həmişə başını uca edəsiniz"* Utancaqlığından dolayı heç vaxt yerindən danışmayan Elgün: *"Müəllim, inşallah, Amin!"* – dedi.

Elgün indi yüksəkliyi ölçüyə gəlməyən bir zirvənin fatehidir. Onu tanıyan hər kəsin, həmçinin biz müəllimlərinin də qürur mənbəyidir...

**Yaqut Mehdiyeva**
*İsmayıllı şəhər 6 saylı orta məktəbin müəllimi*

## Şəhid hafiz Elgün Quliyev

Şəhidimiz, əzizimiz Elgün Quliyev 2005-ci ildə Şəki İslam Kollecinə qəbul olunmuş və hafizlik təhsilinə başlamışdır. 2008-ci ildə Qurani-Kərimi tam əzbərləyərək Hafiz adını alaraq kollecimizdən məzun olmuşdur.

Hafizlik adını qazandıqdan sonra 2009-cu ildə tam orta təhsilini yüksək qiymətlərlə başa vurmuş və 2010-2014-cü illərdə Sumqayıt Dövlət Universitetinin Tarix fakültəsinin tarix müəllimliyi ixtisasında təhsil almışdır. Beləliklə Elgün həm hafiz, həm də tarix müəllimi kimi şərəfli ada yiyələnmişdir.

Elgün kollecimizdə təhsil aldığı müddət ərzində öz tələbə yoldaşlarının içərisində səmimiliyi, dürüstlüyü, mərdliyi və vətənpərvərliyi ilə xüsusi seçilirdi. Hafiz Elgünün eyni zamanda gözəl və məlahətli səsi var idi. O, Qurani-Kərimi avazla gözəl oxuyar, kollecimiz tərəfindən keçirilən tədbirlərdə həmişə fəal iştirak edər, Qurani-Kərimi gözəl oxuma yarışlarında hər zaman birinci yeri tutardı.

Mən inanıram ki sevimli tələbəmizin, hafizimizin şəhadəti cənnətdəki dərəcəsini daha da ucaltmışdır. O Azərbaycan hafizliyinin şəhid Elgün zirvəsidir.

Allah rəhmət eləsin. Əziz ruhu şad olsun. Məqamı ali olsun. Uca Allah Peyğəmbərlərlə, siddiqlərlə, salehlərlə qonşu eləsin.

**Abdurrəhman Nuri**
*Şəki İslam Kollecinin direktoru*

## Mərhəmət abidəsi

Hər şagird müəlliminin zehnində onun önə çıxan özəlliyi ilə yadda qalır. Elgün mənim yaddaşımda emosional biri kimi qalıb.

Elgünün ürəyi həmişə dolu olardı. Yağış yüklü bulud kimi. Bu da onun çox mərhəmətli, şəfqətli, mehriban olmasından irəli gəlirdi. Müharibədə qələmə aldığı gündəliyində də bunu görmək mümkündür. Öz döyüş yoldaşlarının namaz qılmalarını, Allahın yolunda olmalarını çox istədiyini qeyd edib. Amma onların xətrinə dəyməsindən qorxaraq bu barədə onlara heç nə deyə bilmədiyini, sadəcə onlar üçün dua etdiyini yazıb. Elgün heç vaxt təkcə özünü yox, hətta təbiətdəki heyvanlara qarşı belə məsuliyyət daşıdığını düşünərdi.

Elgün haqqında çox şey demək, çox şey yazmaq olar. Onun eyni zamanda çox zarafatcıl, yumor hisli olması, hər zaman nikbin olma bacarığından danışmaq olar. Ən kefsiz məqamlarda belə, ətrafındakıların kefini aça, onları güldürə bilmə bacarığına sahib idi. Qısaca Elgünün xasiyyəti öz adında əksini tapmışdı. O elinə gün ağlayan, elinə işıq saçan, el oğlu idi.

Son olaraq Elgünün timsalında bütün şəhidlər barəsinə onu demək istəyirəm ki, elə bir şəhid yoxdur ki, onun üçün heç kim üzülməsin, ürəyi ağrımasın. Sadəcə özlərindən başqa. Özləri şəhid olduqları üçün o qədər sevinc içində olur-

lar ki, Hz. Peyğəmbərimizin hədisində buyrulduğu kimi sadəcə şəhidlər dirildilib təkrar-təkrar şəhid olmağı arzulayırlar.

Allah bizləri şəhidlərimizin şəfaətinə nail eyləsin!

**Ramiz Məmmədov**
*İsmayıllı hafizlik (Niyal) kursunun müdiri*



## İki uca zirvə

Bir müəllim üçün bu sətirləri yazmaq həm kədər, həm də qürur vericidir. Vaxtilə təhsil aldığım və sonradan hafizlik müəllimi kimi işə başladığım Şəki İslam Kollecində ilk tələbələrimdən biri idi Elgün Vasif oğlu Quliyev. İlk baxışdan sakit və içinə qapanıq biri kimi görünən Elgün əslində çox cəsarətli və ürəkli oğlan idi. Həmişə öz haqqını tələb edir, haqqın tərəfində idi. Böyükdən-kiçiyə hamı xətrini çox istəyirdi. Qarşısına qoyduğu məqsədə çatmaq üçün əlindən gələni edirdi.

Elgünümün Qurani-Kərimi əzbərləyib başa çatdırdığı günü, yəni hafiz olduğu günü heç unutmuram. Üzündəki sevinc hissi hələ də gözümün önündən getmir. Səsi və avazı çox gözəl idi. Ən böyük arzusu müəllim olub ucqar dağ kəndlərinin birində müəllim kimi işləmək idi. Müəllim olmaq arzusuna çatdı, amma müəllim kimi işləmək nəsib olmadı. Allah ona ikinci böyük zirvə olan şəhidlik zirvəsini nəsib etdi. O, iki böyük zirvənin, iki böyük mükafatın sahibidir. Hafizlik və Şəhidlik.

Şəhidlik zirvəsinə ucalmadan 2 ay öncə mənə zəng vurdu ki: *"Müəllim arzuma çatdım. İmtahandan yüksək bal toplamışam indi təyinatımı gözləyirəm."* Harada işləmək istəyirsən deyə soruşduğum zaman: *"Rayon fərqi yoxdur, amma istəyirəm ki ucqar dağ kəndi olsun"*. Bir daha tələbəmlə fəxr etmişdim. Onun cəsarətinə, təvazökarlığına heyran qalmışdım. Lerik rayonunun ucqar dağ kəndinə təyinatı verildiyi zaman Şuşa şəhərinin azadlığı uğrunda gedən qanlı döyüşlərdə qəh-

rəmancasına vuruşurdu. Bu xoş xəbəri ona atası zəng vuraraq xəbər vermişdi. *"Tarix müəllimi kimi işləyə bilməsəm də, bəlkə tarix yaza bilərəm"*. Bu, İkinci Qarabağ müharibəsində şəhid olan minlərlə gəncdən biri, Elgün Quliyevin gündəliyinə yazdığı sonuncu cümlədir. Özünün də dediyi kimi, tarix dərsi deyə bilmədi, amma tarixin özünə çevrildi.

**Mehman İbrahimzadə**
*Hafizlik müəllimi*



## Nümunəvi tələbəmiz

Elgün bizim orta məktəbə göndərdiyimiz ilk tələbəmiz idi. O, orada da o qədər nümunəvi davranış göstərmişdi ki, həmin orta məktəbin direktoru Qalib müəllim mənə dedi ki: *“Sizin nə qədər orta məktəb oxuyacaq tələbələriniz varsa, göndərin, gəlsin. Mən belə düşünürəm ki, Elgün kimi mükəmməl əxlaq sahibi bir şagird yetişdirən “Hafizlik kursu”nun digər tələbələri də onun kimi gözəl əxlaqlı, savadlı, çalışqan və qabiliyyətli olar”.*

Elgün həm də təşkilatçı bir gənc idi. Onun idmanın bir çox növünə marağı var idi deyə, kursumuzun tələbələrini də bu sahədə həvəsləndirirdi. Kursumuzun rəhbərliyi idman yarışlarını təşkil etməyi çox vaxt ona tapşırırdı. Mən özüm də hərbidə ikən ön cəbhədə olmuş və dəfələrlə düşmənlə üz-üzə gəlmişdim, həmişəki arzum idi ki, düşmənlə açıq döyüşdə üz-üzə gəlim. Ancaq bir yandan da təəssüflənirəm ki, yaşımla bağlı bu, mənə qismət olmadı. Cəbhəni hərbi xidmət zamanı görmüş bir insan kimi oradakı çətinliyin, vəzifə borcunun nə olduğunu, eyni zamanda qəhrəmanlığın qürurunu dərk edirəm.

Elgün kimi nümunəvi tələbəmizin şəhidlik zirvəsinə yüksəlişi məni çox qürurlandırır. Bizim həyata keçməyən arzularımızı elgünlər reallaşdırdılar. Ruhları şad olsun!

**Cəlal Hüseynov**
*İsmayıllı hafizlik kursunun müəllimi*

## İki məqam sahibi

Elgün qardaşımız! İki məqam sahibi deyək, ona şəxsən mən iki məqam sahibi deyirəm. Çünki həm şəhidlik zirvəsinə yüksələrək ən yüksək məqam sahibi olaraq, peyğəmbərlərdən sonra gələn məqama, həm də bizim 2007- ci ildə tanışlığımıza səbəb olan hafizlik məktəbini bitirərək, hafizlik məqamına  yüksəlmişdır.

Mən Elgüngilin sinfinə Qurani-Kərim və onun təcvid qaydaları dərslərini deyirdim. Adətən, hamıya eyni tərbiyəni, təhsili veririk. Ancaq mənimsəmə qabiliyyəti, şəxsi qabiliyyətləri baxımından kollektivdə olan tələbələr bir-birindən seçilirlər. Yetmiş- səksən tələbə içərisində üç nəfər tələbə vardı ki, onlarda bütün müsbət xüsusiyyətlər bir-birini tamamlayırdı. Onlardan biri də Elgün idi. Həm istedad, həm gözəl səs, həm də qabiliyyət baxımından digələrindən seçilirdi. Yəni Qurani-Kərimi gözəl oxumaq deyəndə, o qədər tələbə içərisində ilk yada düşənlərdən biri idi.

Kursumuzun qonaqları olanda və ya hər hansısa bir tədbir təşkil olunanda Qurani-Kərim və dini məzmunlu nət oxumaq vəzifəsini bu yeniyetmələr yerinə yetirirdi.

Elgünün oxuduğu dövrdə kursumuzun yerləşdiyi binada ali məktəbə hazırlıq kursları fəaliyyət göstərəcəyi üçün bütün tələbələr Şəki Hafizlik Kollecinə köçməli oldular və onlar hafizliklərini orada tamamladılar. Təəssüf ki, bundan sonra demək olar, uzun müddət biz Elgünlə görüşə bilmədik. Amma onlara dərs dediyim müddətdə Elgünlə bağlı xeyli yadda qalan xatirələrimiz var.

Elgün çox mehriban, yerini və danışığını bilən, böyüklə böyük, kiçiklə kiçik kimi rəftar edən, alicənab, eyni zamanda öz yoldaşları arasında çox sevilən, zarafatcıl, şən və şirin uşaq idi. Heç kəsdən eşitmədim və özüm də görmədim ki, hansısa uşaq ondan şikayət etsin. Yaşı az olmasına baxmayaraq, Elgünün fikirlərində davranışlarında müşahidə etdiyim bir məqam var; yetkin insanların sahib olduğu düşüncəyə və davranışa sahib idi.

Bir də heç yadımdan çıxmaz, Bakı İslam Universitetinin Zaqatala filialında tələbələr arasında Qurani-Kərimi təcvid, tilavət və qiraət üzrə oxuma yarışı təşkil edilmişdi. Biz də İsmayıllı Hafizliyə Hazırlıq Kursu olaraq tələbələr arasından Elgünü seçdik və onunla yol yoldaşı olaraq Zaqatalaya yollandıq. O gün mən Elgünü həm də yol yoldaşı kimi tanıdım. Sanki zəngin həyat təcrübələri olan, yaşca böyük bir insanla yol yoldaşlığı edirdim. Həmin yarışda özündan on yaşa qədər böyük iştirakçlarla yarışaraq üçüncü yerə layiq olmuşdu. Mənə görə o, birinci idi. Yarış bitib, mükafatlar təqdim olunduqdan sonra bunu onun özünə də dedim. Çünki Elgün həmin yarışda yaşca özündən on yaş böyük tələbələrlə yarışırdı, yarışın ən azyaşlı iştirakçısı idi.

El arasında bir deyim var, “adam yarıtmaq”. Elgün eynilə bir tələbə kimi bizi yarıtırdı. Hara göndərsək, nə tapşırsaq o yerdə, o işdə bizim başımızı uca edirdi. Başımızın tacı idi.

Gün ərzində dərs olmayan vaxtlarda belə, kollecin həyətində gözüm Elgünü gəzirdi. Kollektivlə birlikdə gəzinti turları təşkil edirdik. Birlikdə şəkillərimiz var. Xüsusilə çay, göl kənarlarında həmişə mən Elgünün yanında olurdum. Sanki içmdə bir narahatlıq var idi, ona nəsə olar deyə, qorxurdum, onu qorumağa çalışırdım.

Müəllimlərin “ikinci valideyn” kimi bir statusu var. Valideynlər öz övladlarının uğuruna necə sevinirsə, müəllimlər

də öz şagirdlərinin, tələbələrinin uğuruna o tərzdə sevinir, qürur duyur. Çünki bir övladın yetişməsində valideynin zəhməti olduğu kimi, təhsilində də müəllimin zəhməti olur. Övladlar valideynlərinin, şagirdlər müəllimlərinin zəhmətinin bəhrəsidir. Elgün də bir övlad kimi valideynlərinin, şagird kimi də biz müəllimlərinin qürur mənbəyidir.

Ancaq Elgün övladlıqdan və şagirdlikdən əlavə bu qürurun sərhədlərini genişləndirdi, onunla qürur duyanlardan böyük bir ordu yaratdı. Elgün təkcə iki valideynin övladı, bir neçə müəllimin şagirdi, tələbəsi deyil, milyonlarla insandan təşkil olunmuş bir xalqın milli qürurunun xilasedicisidir. Elgün ictimai dəyərdir, vətən məktəbinin qələbə diplomlu tələbəsidir, həyat məktəbinin şəhid statuslu məzunudur.

Elgünlə bağlı içimdə qürur, fərəh, sevinc, eyni zamanda kədər, bütün hisslər bir-birinə qarışıb. Hər insan bu cür yaşamır, bu cür köç etmir dünyadan. Nə qədər üzülsək də üzləşdiyimiz həqiqətlər qürur və kədəri eyni mənzərənin fonunda bizə təqdim edir. Elgün və timsalında bütün qəhrəmanlar, şəhidlər bu xalqın əbədi yaddaşına həkk olunub, xatirləmizdə yaşayacaq. Ruhları şad olsun.

**Araz Abdullayev**
*Quran müəllimi*



## Elgünün məndəki sirri

Elgün qardaşımızla biz 2008-ci ildə İsmayıllı Hafizlik Kollecində tanış olmuşuq. Eyni vaxtda qəbul olmuşuq və hafizliyə başlamışıq. Ümumiyyətlə insanın tələbəlik həyatı, uşaqlıq həyatı elə bir dövrüdür ki, həmin vaxt biz əzizlərimizdən, ata-anamızdan ayrı bir başqa mühitə düşürük. İnsan o mühitdə artıq sosiallaşmağa, mühitin qaydalarına uzlaşmağa başlayır. Bundan sonra ata-ana, bacı-qardaş qalır kənarda, orada yeni bir ailə formalaşır. Həmin ailə mehribanlıq, məhəbbət təməli üzərində yaranır. Bu yeni ailənin iki fərdi olaraq Elgünlə birlikdə təhsilimizi davam etdirdik. Müqəddəs Qurani-Kərimi birlikdə əzbərlədik və eyni vaxtda bərabər bitirdik. Bizim tələbəlik həyatımızda Elgün qardaşımızın yeri mənim üçün bir başqa idi. Çünki Şəkidə formalaşan yeni mühitimizin üzvləri içərisində biz ikimiz bir-birimizə qardaşdan da yaxın sirdaş idik.

Onun sadəcə mənim bildiyim bir sirri var idi. Mənə tapşırmışdı ki, bu məsələni sadəcə ikimiz bilək. Artıq o, bu dünyada olmadığı və aramızdan ayrıldığı üçün daha bu davranışını gizli saxlamaqdansa, danışmağı daha uyğun bilirəm. Çünki yaxşı insanların nümunəvi davranışları başqaları üçün örnəkdir. Elgünün də bu nümunəvi davranışı onu tanıyanlar və tanımaq istəyənlər üçün faydalı olar deyə, düşünürəm.

Deməli, bizim öz tələbə yoldaşlarımız arasında "Quran halqası" adlı "Whatsapp" qrupumuz var. Quran halqası nədir? Bunu hafizlər daha yaxşı bilər, Qurani-Kərimi əzbərləyib,

“hafiz” statusu alan şəxslər bu əzbəri yaddaşlarında möhkəmlətmək üçün sonralar da zaman-zaman təkrar etmək zərurəti duyurlar. Təkrar hafizlərin yaddaş potensialına görə dəyişir. Bəziləri ildə bir neçə dəfə, bəziləri bir dəfə, bəziləri bir neçə ildən bir Quranı təkrarlayırlar. Əvvəllər hafizlər bunu ya bir qrup yaradıb, bir araya gələrək, ya da fərdi qaydada bir Quran müəlliminin yardımıyla həyata keçirirdilər. Artıq müasir texnologiyanın imkanları sayəsində müxtəlif sosial platforma hesabları üzərindən yaradılan qruplar şəklində də reallaşdırmaq olur.

Biz də bu məqsədlə bir qrup yaratmışdıq. Həmin qrupda Qurani-Kərimdən kim neçə səhifə təkrar edirsə, onu qrupda qeyd edir. Biri beş, digəri on səhifə qeyd edər, başqa qrup üzvlərini də təkrar etməyə təşviq edirdik. Bu qeydlər həm də aramızda bir növ sağlam rəqabət formalaşdırır, təkrarın nizamlı qaydada davam etməsinə səbəb olur. Elgün bu məsələdə də öndə idi, bizlər beş və ya on səhifə yazanda, o, on beş səhifə təkrar etdiyini yazırdı.

Elgünün Bakıda iş yerinin yanında bir məscid var. Hər kəs oranı “İlahiyyat Məscidi” adıyla tanıyır. Biz də onunla zaman-zaman bu məscidin həyətində görüşərdik. Ehtiyac sahibi insanlar adətən məscidlərə gələrək, orada ibadət edən insanlara müraciət edir ki, mənim ehtiyacım və ya bir sıxıntım var, Allah xatirinə yardım edin. Mən də bu hallara şahid olduqca qrupda yazıb, imkanımız olandan yardım etməyi yoldaşlara təklif edirdim. Əksər hallarda sadəcə Elgündən cavab alırdım. Sonralar belə bir təşəbbüs olanda ağlıma ilk gələn Elgün olurdu. O da təşəbbüsə qoşulmamışdan öncə hər dəfə mənə deyirdi ki: *“Bu məsələni bir sən bilirsən, bir mən, bir də Allah bilir, xahiş edirəm, başqa bilən olmasın*”. Bu kimi müraciətim davamlı olurdu. Bəzən ayda beş dəfə də müraciət etsəm, “yoxdur” deməz, cibində beş manatı belə olsa, onu çıxarıb

verərdi və deyərdi: *"Bizə qalan yalnız bu əməllər olacaq"*. Bu, onun məndəki sirri idi. Elgündən, məndən və Allahdan başqa heç kimin bilmədiyi xeyirxahlığı. Bu sirrin qəribə tərəfi bu idi ki, heç yardım etdiyi insanlar da onlara yardım edənin Elgün olduğunu bilmirdilər.

Elgün qardaşımız mədrəsədən sonrakı dövrlərdə də uşaqlığından yolçu olduğu bu yola sadiq, imanında möhkəm idi. Bəzən ona qibtə etdiyim də olub. Bunu özünə də deyirdim ki, qardaş, sən təkcə dini təhsilli bir adam deyilsən, səndə sözlə ifadə edə bilmədiyim fərqli bir abu-hava var.

Elgünün müharibəyə gedənə qədər ünsiyyətdə olduğu bütün insanlarla münasibəti vardı. Onu yenicə tanıyan insanın qısa zamanda sevimlisinə çevrilirdi. Həmçinin hafizlik kursunda birlikdə oxuduğumuz bütün uşaqlarla münasibəti saxlayırdı. Vaxt tapdıqca Şəkiyə gedib, oxuduğumuz kursa baş çəkir, müəllimlərimizlə görüşürdük. Hafizlik diplomunu almağa birlikdə getmişdik. Bizi birləşdirən, dost edən, doğma edən məktəbə tək getməli olsa belə, mənə xəbər edib, elə gedirdi.

Elgün mənim uşaqlığımın, xatirələrimin ən doğma, əvəzolunmaz ortağıdır. Möhtəşəm xarakterə sahib idi. Hər kəs onu zarafatcıl, gülüşüylə könül oxşayan bir insan kimi tanıyır. Ancaq o, simasında təbəssümlə, ciddiyyəti birləşdirməyi bacarırdı.

Onunla yolun başlanğıcında olduğumuz, birlikdə addımladığımız günlər heç yadımdan çıxmaz. Oxuduğumuz kursun ciddi nizam-intizam qaydaları var idi. Hər gün yeni bir əzbər dərsi təhvil vermək kimi öhdəliyimiz vardı. Bəzən uşaq şıltaqlığımızdan, bəzən tənbəlliyimizdən dolayı yeni dərsi hazırlamırdıq. Səhər sinfə toplaşandan sonra hamı Elgünü gözləyir-

di ki, indi qapıdan girəcək, bir zarafatla hamını güldürüb, dərs həyəcanından xilas edəcək.

İnsan öz doğmasını, yaxınını, dostunu itirəndə onun içinə yaşadığı kədərdən dolayı bir sükut çökür. Bu kədərin bir səbəbi də itirdiyin insanla ortaq xatirələrindir. Bu gün Elgün cismən aramızda yoxdur, ruhən yaşayır. Bir də biz dostlarının yaddaşında qalan gözəl əməlləri, təbəssümü, nümunəvi davranışlarıyla zəngin xatirələri var. O xatirələr bizi Elgünlə bağlayan ən dəyərli nəsnədir. Biz dostların vəzifəsi bir ömür o xatirələri diri saxlamaq, yaşatmaqdır. Bu xatirələr vaxtilə bizdən biri, lakin öz üstün xüsusiyyətləriylə seçilən Elgün qardaşımızın xatirələriydisə, indi həm də bir qəhrəmanın xatirələridir. Elgün adı vətənin tarixində, ruhu Allah dərgahında, xatirələri onu tanıyanların qəlbində əbədilik qazanıb. Ruhu şad olsun.

**Sadiq Nurməmmədov**
*hafizlik yoldaşı*



## Məqsədinə çatdı

Elgünlə Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissənin düşmənlə üzbəüz mövqelərdə yerləşən ön nəzarət məntəqələrindən birində birlikdə xidmət etmişik. Hər kəsə qarşı mehriban, şən, açıqürəkli bir qardaş idi. Qardaş sözünü sözgəlişi demirəm, doğrudan da hər kəsin qardaş deyə biləcəyi bir insan idi. Eyni zamanda qorxmaz və cəsarətli idi.

Keçmiş təmas xəttində hərbi xidmət edənlər yaxşı bilir, atəşkəs dövründə cəbhənin gözlənilməyən sürprizləri olurdu. Düşmən tərəfdən tez-tez təxribat cəhdləri, qısa atışmalar gündəlik adiləşmiş ənənəyə çevrilmişdi. Və bu sürprizləri ilk olaraq ön məntəqələrdə xidmət edən biz əsgərlər qarşılayırdıq.

Elgündə başqalarına qarşı sərhədsiz fədakarlıq hissi vardı. İstəməzdi ki, kiməsə bir xətər toxunsun. Xidmət əsnasında gecə istehkama yaxın ani səs-küy eşidiləndə ilk Elgün özünü topluyub, irəli atılırdı.

Onu tanıyan hər kəsin, Elgün haqqında ilk təəsüratlarından biri də könül oxşayan təbəssübü və zarafatcıllığıdır. Onun zarafatları, o cür çətin yerdə xidmət etməyimizi bəzən unutdururdu. Biz onun sayəsində günlərimizin sanki bir az tez keçdiyini hiss edirdik.

Əsgərlikdən sonra da münasibətimiz yaxşı olub. O, Bakıda işləyirdi, hərdən görüşürdük. Həmişəki kimi şən, zarafatcıl, deyib-gülən insan idi.

Axırıncı dəfə döyüşə gedəndə sağollaşdıq zarafatla dedim ki: *"Gedib, gəlməsən, səni özüm öldürəcəm, get, salamat qayıt, gəl"*. Mənə cavabı isə belə oldu: *"Mən ölməyə getmirəm, öldürməyə gedirəm"*, gülərək əlavə etdi: *"Sən qardaşını yaxşı tanıyırsan axı"*. Getdi və öz məqsədinə çatdı. Şəhidlik xəbərini digər əsgər yoldaşlarımızdan aldım.

Ondan mənə çox şey qaldı, birlikdə yaşdığımız xatirələrin bir ömür qəlbimin ən yüksək mərtəbəsində yeri var. Ürəyim doludur, Elgünsüz Elgün haqqında danışmağa tab gətirə bilmirəm, dilim tutulur. Birlikdə çəkdirdiyimiz bir neçə şəklimiz var. Onlar mənim üçün çox dəyərlidir.

**Yusif Yusubov**
*əsgər yoldaşı*



## Sonuncu zəng

İnsan həyatı boyunca müxtəlif insanlarla tanış olur. Onlarla münasibəti zaman, birlikdə yaşanan xatirələr və xarakterlər, həyata baxış tərzi, xasiyyətlərin uzlaşmasına görə dəyişir. Biz bu insanlarla müxtəlif zamanlarda, məkanlarda, müxtəlif səbəblərdən tanış oluruq. Bu münasibətləri irəli aparan, gələcəyə daşıyan isə onların bizdə, bizim onlarda buraxdığımız təsirlər olur.

Məncə, insanın həyatında üç növ insan olur: tanışlar, yoldaşlar və dostlar. Hər şey ilk tanışlıqdan başlayır və dostluğa kimi davam edir. Bəzi insanlar tanış, bəziləri yoldaş olaraq qalır, bəzilərinə isə dost deyib, könül süfrəmizi açırıq.

Bu tanışlıqlar ömrümüzün uşaqlıq dövründən bağça yoldaşı, sinf yoldaşı olaraq başlayır, daha sonra tələbə yoldaşı, əsgər yoldaşı, iş yoldaşı və.s. kimi həyatımıza daxil olur.

Elgünlə biz hərbi xidmət əsnasında tanış olmuşduq. Tanışlığımız ikimizin də həyatına "əsgər yoldaşı" statusuyla daxil olmuşdu. Ancaq ona təkcə yoldaş demək olmazdı. O, tanıdığı hər kəslə anlaşa bilən, hər kəslə münasibət saxlayan, hər kəsə öz təbəssümünü hədiyyə edən, nəvaziş göstərən dostcanlı qəlbə sahib idi.

Eyni tabor, eyni bölük, sadəcə tağımlarımız ayrı idi. Ən azı bir- iki gündən bir bir-birimizi görürdük. Elgün qardaşımız çox vətənpərvər oğlan idi. Bir gün gecə saat üç- dörd radələrində Elgünlə xəbərləşdik, təxminən postlarımız arasında iki kilometr məsafə olardı. Dedim, Elgün, darıxıram, gəlim, bir

az söhbət edək, dərdləşək. Dedi, qarovul rəisi oyaqdır, eybi yox, gəlin, sonra qayıdarsınız. Nə isə yavaş-yavaş getdik, çatdıq və səngərdə çay içə-içə xeyli söhbət etdik.

Mən əsgərlikdə çox darıxırdım, amma Elgün mənə həmişə dəstək olurdu, deyirdi ki, Sədullayev, vaxt gəlib elə keçəcək, xəbərimiz olmayacaq, narahat olma.

Başımız söhbətə elə qarışmışdı ki, bir də gördük qarovul rəisi bizə qulaq asır. Bizim onu fərq etdiyimizi bilən kimi dilləndi: "Aa… siz hara bura hara?! Nə isə bizi bir az incitdi, amma sağ olsun, sonralar bir də üzümüzə vurmadan yaddan çıxardı. Hərbidən sonra bir gün Elgünə zəng etdim:

*- Dedim, haralardasan qardaş?*

*- Dedi, şəhərdə işləyirəm, hal-hazırda işdəyəm.*

*- Dedim, səni görmək üçün iki üç saata gəlmək istəyirəm.*

*- Dedi, yaxşı, gəl.*

Bakıda bir restoranda işləyirdi. Getdim, çatdım, görüşdük. Məni həmişəki təbəssümüylə qarşıladı. Deyəsən, işdən icazə almışdı. Planlaşdırdıq ki, birlikdə şəhərdə gəzək, bir az söhbətləşək. Metroya mindik. Mən də şəhərdə çox olmamışdım. Metroya ilk dəfə minirdim. Nə isə birdən arxamızca gələn bir qadın ayaqqabımın dabanını tapdaladı və ayaqqabımın altı qopdu. Elə vəziyyətdə ayaqqabımın altını yerlə sürüyə-sürüyə bir yerə gəlib çıxdıq. Elgün qardaşım dedi ki, Sədullayev burdan Qusara belə getmək olmaz, bir dəqiqə gözlə. Ətrafa nəzər saldı, yaxınlıqda bir ayaqqabı mağazası vardı. Məni mağazaya dəvət etdi. Mənim üçün yeni ayaqqabı almalı olduq. Əlimi cibimə salmağa qoymadı.

Sonra bir restorana getdik, oturduq, yemək yedik, əsgərlikdən danışdıq, xeyli deyib, güldük, birlikdə gözəl vaxt keçirdik. Məni yola saldı. Sağollaşıb, ayrıldıq.

Çox qonaqpərvər, ürəyiaçıq oğlan idi.

Axırıncı zəngimdə müharibənin ilk günü idi. İşdə oturub, Elgünə zəng etdim, xoşhallaşdıq. Onu müharibəyə çağırıb, çağırmadıqlarını soruşdum:

*- Dedi, Həə qardaş, məni çağırıblar. Bəs səni çağırmıyıblar?*

*- Dedim, yox, mən evliyəm, bəlkə ona görə.*

*- Dedi, çağırmasınlar sən evlisən, ən azından biz subayıq.*

*- Dedim, qardaş, subay da olsan, necə olacaq?*

*- Dedi, necə olacaq ki? Belə də Allaha qurban olum, nə yazıbsa, o olacaq. Hər şey yaxşı olacaq, çağırıblarsa gedəcəyik.*

Elə bu mövzuda bir az danışdıq dərdləşdik, sonra sağollaşdıq. O zəngimiz son danışığımız oldu. Bir gün komandirimizin statusunda Elgün qardaşımın şəklinin paylaşıldığını gördüm və birdən uşaq kimi səslə ağlamaqdan özümü tuta bilmədim. Başımız sağ olsun.

**Səfayıl Sədullayev**
*əsgər yoldaşı*

## Eyni yol ayrıcında

Elgünlə bizim yollarımız iki dəfə eyni yol ayrıcında kəsişib. Hərbi xidmət vaxtı da eyni hərbi hissədə xidmət etmişik, əsgər yoldaşı olmuşuq. Tərxis olunduqdan sonra da mülki həyatda dəfələrlə görüşmüşük. Elgün çox nizam-intizamlı, güləruz, xidmətini normal şəkildə yerinə yetirən bir əsgər olub.

Bu dəfə də yolumuz eyni yerdə kəsişdi; müharibədə, hərbi xidmətdə, vaxtilə xidmət etdiyimiz Füzuli cəbhəsində.

27 oktyabrdan, şəhid olana qədər birlikdə olmuşuq. Əslində bizim də vəzifəmiz döyüşə qatılmaq idi. Füzuli cəbhəsindən Şuşaya qədər uzanan uzun bir döyüş yolu.

Döyüşlər Daşaltıda gedirdi, yolların çox pis vəziyyətdə olması səbəbiylə biz gecikmişdik. Çünki döyüşçüləri aparan maşınlar çətinliklə hərəkət edirdi. Ona görə də bizə əmr gəldi ki, siz Daşaltıya girməyin, kənardan dolanıb, Şuşaya tərəf getməlisiniz. Biz də getdik, amma yol nahamar idi, düşmən bizi görürdü və minamyotlardan davamlı atəş açırdılar. Biz meşələrlə irəlilədik.

Şuşaya yaxın mövqelərə çatanda xəbər gəldi ki, bizim döyüşçülər artıq Şuşa şəhərinə daxil olub. Şəhərin içərisində ağır döyüşlər gedir. Əllərində az mərmi qalıb. Əlavə köməkçi qüvvə kimi bizə öz silah-sursatımızdan əlavə 6 ədəd “Kornet” verdilər. Döyüşdə iştirak edənlər bilir, kornet ağır silahdır. Cihazı və əlavə mərmisiylə birlikdə birinin 25-30 kq çəkisi olur. Bir tərəfdən qeyri-sabit hava şəraiti, digər tərəfdən ağır silah-sursat, irəliləmək çox çətin idi.



Yüksək dağların arasında keçid var, orada cərgə ilə üz-üzə qayalara söykənib durmuşduq. Aramızda az məsafə var idi. Mən bir tərəfdə, Elgün qardaşımız da üz-üzə mövqedə digər döyüşçülərlə, Gədəbəy rayonundan olan bir döyüş yoldaşımız, Sübhan Kərimov adlı döyüş yoldaşımız yanaşı düzülüb, dağın yamacında gələcək döyüş əmrini səbirsizliklə gözləyirdik. Birdən minamyot mərmiləri üzərimizə yağmağa başladı. İlk hədəf döyüşçülərin arasında sanitar vəzifəsini yerinə yetirən yoldaşımız, ikinci hədəf isə Elgün oldu. Mərmi çox yaxınımıza düşdüyü üçün əvvəlcə biz özümüzü itirdik. İki-üç dəqiqədən sonra özümə gəlib, ayağa qalxdım, gördüm ki, sanitar gəlib və Gəncədən olan leytenantımız Elgünün yanındadırlar.

Elgünə yaxınlaşdım, əlindən tutdum və dedim ki, qorxma, qardaş, heç nə yoxdur, salamatsan, yaxşısan. Birinci su istədi, suyu verdik.

Noyabrın 9-u axşam xəbər gəldi ki, humanitar atəşkəsdir, yaralıları çıxarın. Bizim də 30-40-dan çox yaralımız var idi. Yaralıları mindirdik maşınlara və özümüz qayıtdıq döyüş mövqelərimizə. Səhər saatlarında maşın göndərdilər və dedilər ki, döyüş qurtarıb, şəhidlərimizi çıxaraq.

Qucağımızda nəşini daşıdığımız şəhid qardaşlarımızdan biri də Elgün idi. Elgün mənim təkcə döyüş yoldaşım deyil, sanki dogma qardaşım idi. Qısa müddətdə cəbhədə də hər kəsin hörmətini, sevgisini qazanmışdı. Komandirindən əsgərinə kimi hər kəsin ona xüsusi hörməti vardı. O hörmət, o sevgi elə də qalacaq. Bir ömür nə cəbhədə yaşadıqlarımı, nə də cəbhənin odlu-alovlu mühitinə işıqlı simasıyla nur saçan Elgünü unuda bilmərəm. Xatirələri də bizlərlə birlikdə yaşayacaq. Ruhu şad olsun.

**Sahib Allahverdiyev**
*döyüş yoldaşı*

## Zirvəyə yüksəliş

Elgün Quliyevlə biz Ağcabədidə döyüşçülərin qaldığı məktəbdə tanış olmuşduq. Həmin məktəb 4 günlük Vətən Müharibəsi zamanı "N" saylı hərbi hissənin toplanma məntəqəsi kimi fəaliyyət göstərirdi. Bizi siniflərə bölmüşdülər, sinif-sinif təlim keçirdik, döyüşə hazırlaşırdıq.

Elgüngil bizdən aşağıdakı mərtəbədə qalırdı. Onların sinfini komandir həmişə qaçırdardı, biz də kənardan durub izləyərdik. Biz yaşca onlardan böyük olduğumuz üçün bizə yaşca daha gənc döyüşçülərə keçilən təlimlər keçilmirdi.

Mən də Elgünlə həmin qaçış təlimləri vaxtı tanış olmuşdum. O, həmişə çalışırdı ki, hər kəsdən irəlidə olsun. Bir də ki, görürdük axşamlar Quran oxuyur, onların sinfinin qarşısından keçərkən eşidirdim. Qəşəng avazı da var idi, qiraəti insanın xoşuna gəlirdi. Tez-tez gəlib, orada ona qulaq asırdım. Oxumasına heç kimin etirazı yox idi. Əksinə, hər kəs onun səsindən rahatlıq tapırdı. Nə vaxt da görsən, elə hey yazırdı. Bir dəftəri var idi, bilmirdik nə yazır, amma davamlı yazırdı. O qədər insanın içərisində diqqət çəkən xüsusiyyətləri yaxından tanışlığımıza səbəb oldu.

Sonradan bizi yenidən sinif-sinif bölüb döyüşə göndərdilər. Qismət belə gətirdi ki, Elgünlə eyni tabora, eyni bölüyə düşdük. Döyüş yolumuz Füzuli cəbhəsindən başladı. Füzulidən Şuşaya kimi onunla yan-yana döyüşərək irəliləmişik.

İlk döyüş tapşırığı kimi, Füzulidə döyüşdüyümüz ərazilərdən bizdən öncəki döyüşçülər arasından şəhid olanların nə-

şini götürmək bizə tapşırılmışdı. Şəhidləri götürdükcə, Elgün onların ruhuna Quran oxuyub bağışladı, dualar etdi.

Doğrusu, mənim o qədər anlayışım yoxdur, bilmirdim hansı surəni oxuyur, bildiyim budur ki, oxuduğu fərqli-fərqli surələri beynindən əzbər oxuyurdu. Orada kitab və ya Qurani-Kərim yox idi axı. *Oxuyub, bitirdikdən sonra soruşdum ki, Elgün, bunları nə yaxşı bilirsən?*! *Dedi, mən hafizəm həm də müəllimən. İnşallah, buradan gedəndən sonra tarix müəllimi işləyəcəyəm.*

Biz Şuşaya gedən dağlıq, qayalıq ərazilərlə, meşələrlə irəliləyirdik. Demək olar, Füzuli cəbhəsindən başladığımız gündən etibarən ərzaq və su çatışmazlığından əziyyət çəkirdik. Şuşaya yaxınlaşanda isə ümumiyyətlə heç nəyimiz qalmamışdı. Yoldaşlardan bəziləri susuzluqdan yarpaqların üzərindəki şeh damcılarını yalayırdı. Elgün də mənim kimi idi, ürəyi götürmürdü. Birdən ayağa qalxıb, meşəliyin içərisi ilə irəliləməyə başladı. Soruşdum, hara gedirsən? Dedi, su tapacam, həm özümüz içək, həm də digər yoldaşlar. Mən də arxasınca getdim. Qətiyyən tək getmək olmazdı. Ətrafımız düşmən əsgərləriylə sarılmışdı. Meşədə xeyli irəlilədikdən sonra qulağımıza su şırıltısı gəldi. Elgün məndən irəlidə idi. Sevinə-sevinə qaçdığını gördüm. Meşənin ətrafından axan bir çaya rast gəlmişdi. Məsləhətləşdik ki, geriyə dönək, digər yoldaşlara da xəbər edək. Qayıdıb su tapdığımızı bölüyə deyəndə komandir əvvəl etiraz etdi ki, düşmənə inam yoxdur, onlardan hər şey gözlənilir, birdən suyu zəhərləmiş olarlar, sonra döyüşçülər susuzluqdan taqətdən düşdüyünə görə razılaşdı. Getdik, doyunca su içdik. Ondan sonra Elgünə "Suçu Elgün" deyirdik.

Sahib qardaşımızın bəhs etdiyi yerdə çoxlu şəhid verdik. Hamısı da minamyotdan atılan atəş nəticəsində həyatını itir-

di. Onlar minamyotu tam dəqiqliklə atırdılar, üstümüzə düşən üstümüzə, düşməyənlər də qayaya dəyirdi və nəhəng daşlar qopub üzərimizə gəlirdi. Mərmilər hər tərəfdən atılırdı deyə hərəkət etmək mümkün deyildi. Bir növ mühasirə vəziyyəti idi. Yaralılarımızı çıxarmaq çox çətin idi deyə şəhid olanların əksəriyyəti qanaxmadan dünyasını dəyişirdi.

Elgünü itirdiyimiz gün də eyni döyüş şəraitində idik. Üzərimizə yağış kimi mərmi yağırdı. Qayalıqların yamacında hündür təpəciklərin arxasında gizlənmişdik. Birdən qışqırdılar ki, Elgünün üzərinə mərmi düşdü. Tez qaça-qaça Elgünün dayandığı yerə gəldim, ancaq onu görmədim. Yoldaşlardan soruşdum, bəs Elgün hanı? Yaxınlıqdakı qayalığı göstərib, dedilər ki, orada oturub. Diqqətlə baxdım ki, dağa söykənib, yarımbükülü vəziyyətdə üzərinə mərmi düşüb. Yaxınlaşdım, gördüm nəfəs alır, öz-özümə dedim ki, o qədər insan şikəst vəziyyətdə yaşayır ki, bəlkə buradan çıxartmaq olar .

Yoldaşlara səsləndim ki, gəlin Elgünü də çıxaraq. Elgün dedi, toxunmayın. Düşündüm ki, ağrıları var, ona görə yaxınlaşmağımıza icazə vermir.

Bunu deməsəm, haqsızlıq olar. Bir sanitarımız var idi. Həm peşəkar hərbçi və tibb xidmətçisi, həm də cəsarətli oğlan idi. Üstümüzə mərmi yağışı yağdığı halda, özünü düşünmədən, sinəsini irəli verib, bir nəfər yaraılını baxımsız qoymurdu. Cəld gəldi, Elgünün ayaqlarını sıxıb, bağladı ki, qanaxmanı dayandırsın. Keyidici iynə vurdu ki, bəlkə bir yerə çatdırmaq olar. Əyildim ki, Elgünü qucağıma götürüm. Bu vaxt Elgün son sözlərini dilə gətirdi: *“Siz digər yaralılara yardım edin. Mənə toxunmayın. Zirvəyə yüksəlirəm”*.

Bizim sözlə ifadə etdiklərimiz yaşadıqlarımızın cüzi bir hissəsidir. Orada yaşananları yalnız o döyüşlərdə iştirak edənlər, cəbhənin vahiməsini görənlər daha yaxşı bilər və bizi anlayar.

Şəhidlik müqəddəsdir, yüksək amal uğrunda fədakarlıqdır. Şəhidlər bütöv bir xalqın milli qürurunun xilasediciləri, qəhrəman təmsilçiləridir. Ancaq hər bir halda daxilimizdə məskən salmış ağrı-acılar bəzən bu düşüncələrə üstün gəlir.

Bəlkə də yalnış düşünürəm, yanlış ifadə edirəm; məncə, Elgün yaşamalı idi. O, hələ həyatdan heç nə görməmişdi. Çox gənc idi. Evdə hərdən öz ailəmə də deyirəm, kaş mən şəhid olaydım, Elgün evlərinə sağ-salamat dönərdi. Mən evliyəm, övladlarım var, nəslimin davamçıları var. Təki olmasın, bəlkə bir gün mənim də oğlum şəhid olacaq. Ancaq hər bir halda onlar var, gözümün qarşısındadırlar. Elgün də ailə qurmalı idi, övladları olmalı idi, ondan canlı yadigarlar qalmalı idi.

Şuşa bizim cənnət Qarabağımızın, mədəniyyətimizin, şəhidlik isə mənəviyyatımızın ən yüksək zirvəsidir. Biz Şuşa zirvəsini birlikdə fəth etdik, Elgün isə daha yüksək zirvəyə yüksələrək şəhidlik qazandı. Ruhu şad olsun.

**Cəfər Vəliyev**
*döyüş yoldaşı*



## Ədəb mücəssəməsi

Elgünün "Şamaxı Batalyonu" deyə qeyd etdiyi 22 nəfərdən sadəcə biri, Elgün Quliyev şəhid olmuşdur, geri qalan 21 nəfərlik heyət müxtəlif yaralar alsalar da, sağ-salamat geri qayıtdılar.

Bizim Hərbi Komissarlıqdan yollananlar hamımız orada bir otaqda qalırdıq. Elgünlə, mən o otaqda tanış olmuşdum. Digərlərindən fərqli olaraq savadlı, intellektli, mədəni bir oğlan idi. İlk baxışdan insanda ziyalılıq təəssüratı yardırdı. Həm də dinə çox bağlı idi. Cəbhədə suyun, şəraitin olmadığı halda vaxtlı-vaxtında namazlarını qılmağa çalışırdı. Onun namaz qılmasına da maneə olmurdular.

Elgün o qədər alicənab insan idi ki, bir otaqda qalsaq belə, qaldığımız otağa girəndə qapını döymədən girməzdi. Təbii ki, bu da ona ailəsindən verilən yüksək tərbiyənin nəticəsi idi. Təbii ki, biz də şəhid olmaq istəyərdik, amma hər adam şəhidlik zirvəsinə yüksəlmir. Elgün Quliyev, mənim qardaşım o rütbəyə yüksəldi. Ruhu şad olsun.

**Nazim Muradov**
*qazi, döyüş yoldaşı*

# İş yoldaşları

## Möhtəşəm insan

Elgün iş yoldaşım idi. Ona təkcə iş yoldaşı demək, bizə bəslədiyi münasibətə qarşı haqsızlıq olar. Müəssisəmizin enerji, bacarıq, gülüş mənbəyi idi.

Adətən dünyadan köç edən insan haqqında, onu tanıyan insanlar xoş sözlər deyirlər. Hətta o insanın necə insan olmağından asılı olmayaraq, demək olar, hər kəsin dilindən sözgəlişi bu xoş sözlər səslənir. Mənim danışdıqlarım isə dünyadan köç etmiş Elgün qardaşımız haqqında mən də mütləq nəsə deyim, düşüncəsiylə deyilən sözgəlişi xoş sözlər deyil.

Elgün həqiqətən çox möhtəşəm bir insan idi. Biz adətən nəyəsə, kiməsə dəyər verəndə ən üstün söz kimi "möhtəşəm" və ya "mükəmməl" ifadəsini işlədirik. O isə çox mükəmməl bir insan idi. Yəni bir iş yoldaşı olaraq heç kim ondan narazı ola bilməzdi. O situasiyanı yaratmazdı.

Hər kəslə yola gedə bilirdi. Kiməsə qarşı kin saxlamazdı. Hər kəsin dəyər verə biləcəyi bir insan idi, bir əməkdaş idi. O, bizim üçün çox dəyərli idi.

Bilirsiniz ki, Elgün bəy həm Quran hafizi, həm də tarix müəllimi idi. Burada işçilər üçün yemək fasiləsi olurdu, Elgün tez düşüb, yeməyini yeyirdi. Yaxınlıqda bir məscid var, orada namazını qılırdı, Quran oxuyurdu. O, qarşısına bir məqsəd qoymuşdu ki, hər gün bir neçə səhifə Quran oxuyardı. Gündəlik oxuyub bitirərdi və yenidən başlayardı. Həmişə restoranın həyətində oturardıq, o, dindən söhbət edərdi. O qədər maraqlı danışırdı ki, hər kəs ətrafına yığışardı. İnsanlığı kimi

gözəl səsi və möhtəşəm danışıq qabiliyyəti var idi. Müdirindən, fəhləsinə kimi hər kəs onun söhbətlərini diqqətlə dinləyirdi.

İndi Elgün haqqında danışmaq onu tanıyan hər kəs üçün çətindir. Vaxtilə biz onun məlahətli səsindən maraqlı, ibrətamiz söhbətlərini dinləyiridik, indi bütün xalq Elgünü tanıyanların dilindən onun insanlıq, dostluq, xeyirxahlıq, qəhrəmanlıq xatirələrini və hekayələrini dinləyir. Məndən nümunəvi insanın tərifini soruşsanız, düşünmədən Elgün deyərəm.

**Ruslan Qasımov**
*iş yoldaşı*



## Qardaş əvəzi

Mən Elgün haqqında o qədər danışmaq istəyirəm ki, ürəyim doludur. Biz nə qədər danışsaq da, onun xatirələri tükənən deyil. Şəxsiyyəti, siması, xasiyyəti, sahib olduğu dəyərləri, xatirələriylə birlikdə zəngin bir ömürə sahib idi. Elgündən dünyalar, kainat qədər danışaram. O, tamam başqa dünya, aləm, uşaq idi. Dünya bir yana idi, Elgün bir yana.

Biz Elgünlə dörd il bir yerdə işləmişik. O, mənim sadəcə iş yoldaşım deyil, qardaşımdır. Kaş Elgünün o xəbərini eşitməzdim. Allah onun ailəsinə də, doğmalarına da, sizə də, bizə də səbr versin. Təkcə eyni ananın bətnindən doğulduğu bacıları deyil, mən də Elgünün bacısıyam. Mən də onun doğmaları kimi, o uşağa o qədər bağlanmışdım ki, onu o qədər çox istəyirdim ki, canımdan bir parça sayırdım. Uşaq deyirəm, yaşının neçə olmasından asılı olmayaraq onda uşaq məsumluğu, həssaslığı, nəzakəti vardı

Bir dərdim, bir sıxıntım olanda ona deyirdim. Kefsiz olanda gözüm ilk onu axtarırdı. Çünki belə vəziyyətlərdə gəlib, o üzümüzə, bu üzümüzə keçib, mütləq dərdimizi dinləyər və üzümüzü güldürmədən bizdən əl çəkməzdi. Mən Elgünü burada iş yerimizdə arxam-dayağım bilirdim. Bir sıxıntım, problemim olanda söykənəcəyim dağ idi. Düşünürdüm ki, burada tək deyiləm, mənimlə birlikdə ailəmdən hesab etdiyim balaca qardaşım Elgünüm var. O qədər zarafatcıl idi ki, onunla birlikdə vaxtın necə keçdiyini, günün necə bitdiyini hiss etmirdi insan.

*Bir gün qaça- qaça gəldi ki, sənə telefon var, mən də həyəcanla əlindən aldım, alo.., alo.., deyirəm. Baxdım ki, gülməkdən uğunub, gedib. Deyir ki, "Mila.., Mila əlindəkinə bax, baxıram ki, kondisionerin pultu. Mənə zarafat edirmiş. Bundan sonra birlikdə o halıma gülmüşdük.*

İş yerimizin gözü, bənzərsiz oğul idi. O, hər kəsin dərdi ilə maraqlanardı axı; bir dəfə də iş yoldaşlarımızdan gənc oğlan gəlib, Elgünə deyib ki, iş yoldaşımız filan qızdan xoşum gəlir, amma ürəyimi aça bilmirəm. Elgün də deyib, gəl birlikdə gedək, mən danışaram. Birlikdə gediblər, Elgün qızı çağırıb, qız çevrilib baxanda əli ilə işarə edərək, "bunun səndən xoşu gəlir, utandığından deyə bilmir" deyəndə, birdən çevrilib baxıb ki, oğlan yoxdur. Oğlan utandığından qaçıb. Elgün gəlib həmin hadisəni danışanda gülüşü heç ağlımdan çıxmır.

Onun gülüşünə həsrət qaldıq həqiqətən. Bəzən iş yoldaşımız Gülnarə xanıma deyirəm ki, çox gözləyirdim, Elgün gəlib, həmişəki kimi pəncərəni açıb, məni çağıracaq, amma bu dəfə deyəcək ki, *"Bax getdim Qarabağı aldım gəldim"*. Hələ də gözümüz onu axtarır. O, isə artıq yüksəldiyi zirvənin sakinidir.

**Məmləkət Əzizova**
*iş yoldaşı*

## Sərhədləri aşan səmimiyyət

Elgünün bizim restoranlar şəbəkəsinə gəlişi 2016-cı ilin Avqust ayına təsadüf edir. O vaxt bizim Bakıda Fəvvarələr Meydanında, Azərbaycan Kinoteatrının yanında yeni bir filialımız açılmışdı. Elgün bizim əməkdaşımız kimi ilk dəfə orada işə başlamışdı. Bizim onunla tanışlığımız isə indiki kimi yadımdadır, Oktyabr ayına təsadüf edir.

Daim gülərüz, iş yoldaşlarıyla mehriban, müsbət aurada olan bir əməkdaşımız idi. Mən o müddət ərzində Elgünü qəmgin, sıxıntı içərisində olan bir insan kimi tanımamışam. Bu mövzuda nəinki mən, digər yoldaşları da eyni fikirdədir. Hər kəslə səmimi davranırdı. Bir sözlə, özünün pozitiv olmasından əlavə, ətrafa da xoş təəssürat bağışlayan bir yoldaş idi. Bu, onun çox insanda olmayan əsas şəxsi keyfiyyətlərindən biridir.

İşlə bağlı da hər zaman öndə gedən, bacarıqlı, qabiliyyətli əməkdaşlarımızdan biriydi. İstər, daxili nizam-intizam qaydalarına əməl etməsində, istərsə də gələn qonaqlara qarşı münasibətində bu, özünü göstərirdi. Xüsusi bir atmosfer yarada bilirdi. Çalışdığı filialımız elə yerdə yerləşirdi ki, bura daha çox xarici qonaqlar, turistlər gəlir. Elgünün bir üstünlüyü də onlarla ünsiyyət qurmaq üçün xarici dil biliklərinin olması idi. Onlarla yüksək səviyyədə münasibət qura bilirdi.

Elgünün restoranımıza gələn turistlərlə, xarici qonaqlarla şəkilləri, video çəkilişləri var. Təbii ki, bunlar hamısı səmimiyyətdən doğan davranışlardır. Həmin qonaqlar özləri təklif edib, onunla şəkil çəkdirirdilər. Hətta mən dəfələrlə şahid olmuşdum, bir dəfə restoranımıza qonaq gələn turistlər adi halda restoranın qarşısından keçdiyi zaman Elgünə əlləriylə işarə edib, salam verirdilər.

Uzun bir müddət bu filialda çalışdı. Özünü hərtərəfli, yaxşı mənada göstərmişdi. İşini layiqli şəkildə yerinə yetirməyə çalışırdı. Eyni zamanda kollektivin də sevimlisi idi. Hər kəsin ona xüsusi rəğbəti vardı.

2020-ci ilin Sentyabrın 6-ı Müəllimlərin İşə Qəbulu imtahanı idi. Həmin il Elgün bəylə birlikdə mən də imtahanda iştirak edirdim. Bu imtahanda Elgün bəy 52 bal toplamışdı, məndə cəmi 3 bal fərqi olmuşdu. İmtahandan çıxanda nəticələr haqqında xəbər tutmaq üçün bir-birimizə yazmışdıq. Heç yadımdan çıxmaz, vatsap statusunda "52" yazıb, gülüş işarəsi qoymuşdu. Ondan sonra gəldim, təbrik etdim. Sonra seçim mərhələsi haqqında aramızda müzakirə etdik. Doğrudur, həmin il mən qəbul ola bilmədim, Elgün bəy isə yuxarı bal topladığı üçün artıq arzusuna çatmaq üzrə idi.

Əmək fəaliyyəti insan həyatının əsas tərkib hissəsidir. Bizim həyatımız boyunca zaman-zaman tanış olduğumuz insanların bir hissəsi də əmək fəaliyyəti əsnasında qarşımıza çıxır, sonradan yaxın və ya uzaq çevrəmizin sakinlərinə çevrilirlər. Biz bu insanlara "iş yoldaşı" statusu versək də, sonradan onlardan bəziləri dost kimi həyatımızın bir parçasına çevrilə bilirlər. Hətta münasibətimizə hansı statusu verməyimizdən asılı olmayaraq, yaddaşımızda öz xarakterləri, simaları, davranışları, xoş təsirləriylə iz qoyurlar. Fəaliyyətimiz əsnasında onlarla, yüzlərlə, minlərlə insan tanıyırıq, ancaq onlardan çox az bir qismi yaddaşımızda qalır.

Elgün bəy mənim nəzərimdə öz gülərüz siması, nümunəvi davranışları, fərqli ünsiyyət bacarığı, dürüst yoldaşlığıyla yaddaşımda qalan və xatirimdə yaşayan, hər zaman məmnunluq hissiylə andığım bir insandır. Bizim tanıdığımız, tanımadığımız milyonlarla insandan təşkil olunmuş bütöv bir xalqın ölməz qəhrəmanıdır.

**Elmar İsayev**

*iş yoldaşı*

# Xatirələr davam edir

## Nə yaxşı ki, axirət var

İllərlə müxtəlif təhsil müəssisələrində müəllim olmuşam. Gözümün önündən onlarla, yüzlərlə şagird, tələbə gəlib, keçib. Müəllim yoldaşlar məni daha yaxşı anlayar. Müəllim üçün bütün şagirdlər övladı qədər əzizdir. Ancaq yüzlərin, minlərin içərisindən xüsusi seçilənlər olur ki, onlar başqa şagirdlərə, tələbələrə bənzəmirlər. Onların öz yolu, özlərinə məxsus siması, normadan üstün ədəbi, bacarığı, zəkası olur. Tərbiyə və təhsil baxımından onların üzərində hər nə qədər valideynlərinin, müəllimlərinin təsiri olsa da, sahib olduqları dəyərlər həm də fitrətdən onlarda mövcud olur. Necə ki, insanlığın yaradıcılıq, mədəniyyət tarixi də belədir. Dünyadan milyardlarla insan gəlib, keçir, onların içərisindən hər toplumdan sadəcə bir neçə insan seçilə bilir.

Mənim bilavasitə dərs dediyim dövrlərdə az da olsa, qarşıma belə tələbələr çıxıb. Xüsusi bacarıq, mədəniyyət, ədəb, zəka sahibi, bir tədbirdə beş-on nəfərin işini görüb, müəssisənin adını ucaldan tələbələr.

Əməkdaşı olduğum Gəncliyə Yardım Fondunun nəzdindəki müəssisələrdə, İsmayıllı və Şəki İslam kolleclərində təhsil almasına baxmayaraq, mən Elgünü şəhidliyinə qədər əyani tanımırdım. Çünki bir müddətdir pedaqoji fəaliyyətdən uzaqlaşıb, müəssisənin başqa şöbəsində vəzifələndirilmişəm.

Elgünü zamanında əyani tanımasam da, indi illərin dostu təəssüratını bağışlayır. Şəhadətindən sonra bildik ki, iki Qa-

rabağ müharibəsinin yeganə hafiz şəhidi bizim müəssisəmizin tələbələrindən biri olan Elgün Quliyevdir.

Şəhid Quran hafizi, tarix müəllimi Elgün Quliyev... İndi bu ad mənə o qədər tanış, o qədər doğmadır ki, sözlə ifadə olunmayacaq qədər.

İllərdir ki, müəssisəmizin ənənəvi tədbiri olaraq Şəki İslam Kollecində *"Hafizlərin Taclandırma Mərasimi"* təşkil edilir. Bu mərasim həm iştirakçı kontingenti, həm də mənəvi dəyəri baxımından müəssisəmizin ən dəyərli tədbirlərindən biri hesab olunur. Mərasimdə hafizliyini yenicə bitirmiş kollec məzunları xüsusi geyimlərdə səhnəyə təşrif buyurur, onların dilindən müqəddəs Qurani-Kərim ayələri qiraət olunur, ilahilər oxunur, çıxışlar edilir və onlara hafizlik diplomu təqdim edilir. Bu mərasimdə həmçinin öncəki hafizlər də iştirak edir, onlara hafizlik diplomları verilir.

Ölkəmizdə pandemiya səbəbiylə təxirə düşən digər kütləvi tədbirlər kimi, bizim mübarək "Hafizlik Mərasimi" də bir neçə il keçirilmədi. Nəhayət ki, 2022-ci ilin noyabr ayının 16-da Şəki İslam Kollecində "*XI Hafizlik Mərasimi*" baş tutdu. Mərasimdə Şəhid Hafiz Elgün Quliyevin adına "Hafizlik Diplomu" Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmər Xanım Cavadlı tərəfindən onun valideynlərinə təqdim olundu. Təqdimat əsnasında çox duyğulu abu-hava yarandı. Şəxsən mən dözmədim, hönkürtü ilə ağlayaraq həyətə çıxdım.

Mərasimdən bir neçə gün sonra şəhidin valideynlərini ziyarətə getmişdik. Anası dedi ki: "*Qızım bizimlə bərabər hafizlik mərasiminə getmişdi. O, dedi ki, siz diplomu almaq üçün təqdimat yerində ikən Elgün hafizlərin geyindiyi uzun, amma çox parlaq bir geyimdə qarşımdan keçdi. Çevrilib baxanda görmədim*".

Ziyarət əsnasında çox duyğulu anlar yaşandı. Sanki Elgün yenidən aramızda idi. Elgün üç bacının bir qardaşı və hətta ən kiçik qardaşı olduğu üçün bacısının qucağında böyümüşdü. Qucağında böyütdüyü kiçik qardaşını itirmək bacısı Günel xanımın qəlbini elə dağlamışdı ki, qardaşı haqqında olan qısa sözləri ilə içimizi yandırdı: *"Öz qardaşımla qurur duyuram, amma hədsiz çox darıxıram. Körpəlikdən bizə elə tərbiyə veriblər ki, biz səsimizi çox ucalda bilmirik. Hərdən içimdən gəlir ki, qışqırım və Elgünü çağırım, bəlkə səs verər bizə. Elgün bizim tək qardaşımız idi. Elgündən bizə heç nə qalmadı. Çox istəyərdim ki, həmin işləmək istədiyi məktəbdə adı əbədiləşdirilsin. Gedib, tez-tez o məktəbi ziyarət edək. Bir də, Şəhid olduğu yeri gedib görmək, o torpağı öpmək istəyərdim. Çünki Elgün o torpağa görə şəhid oldu. O torpağı bizdən çox istədi".*

Sonra müəssisə olaraq qərara gəldik ki, ailə üzvləri, qohumları, dostları, iş yoldaşları və döyüş yoldaşlarından müsahibələr götürüb, bu müsahibələr əsasında onun şəxsiyyətini, insanlığını, dinə bağlılığını, təhsilini, xarakterini,qəhrəmanlığını, şəhadətini əks etdirən mətnlərin timsalında bir sənədli film çəkib, yayımlayaq. Daha sonra filmlə yanaşı əziz Elgünümüzün həyatını, gündəliyini, onun haqqındakı xatirələri əks etdirən bir kitabın da ərsəyə gəlməsi bizim üçün öncə arzuya, sonra məqsədə çevrildi.

Bu kitab üçün müsahibələrin alınması, mətnə çevrilməsi mənim üzərimə düşən mübarək vəzifə idi. Bu yazıları yazmaq məsuliyyətini üzərimə götürdükdən bəri çox insanla görüşdüm, çox xatirələr dinlədim, kövrəlmədiyim bir xatirəsi olmadı. Möhtərəm şəhidimizin ali şəxsiyyəti və bu şəxsiyyətin timsalında təqdim etdiyi insanpərvər davranışlarının, haqqında danışılan xatirələrin sözlə ifadə olunmayacaq təsiri var.

Elgün təkcə cəbhədə deyil, həyatı ilə bir tarix yazırdı. O, özündən sonrakı nəsillərə bunu da bildirmək istəyirdi ki, bizlər bu müqəddəs məkanda dünyaya gəlməklə əsl mükafatımızı almışıq, bizim bu uğurda könüllü müraciətimizin mükafata ehtiyacı yoxdur. Elgün bir çox sirrini anasına söyləməsinə baxmayaraq könüllü müraciətlərindən ona da bəhs etməmişdi. Onun könüllülük missiyasında iki ali dəyər – ana və vətən birləşib, gələcəyə qələbə müjdəsi hazırlayan sirrə çevrilmişdi.

Bu xatirələrdən əlavə özünün müharibə əsnasında qələmə aldığı cəbhə gündəliyi də bir o qədər ibrətamiz və təsirlidir. Elə bil, Elgün kiçik bir gündəlik deyil, qalın cildləri olan, ürəkdolusu, sevgi ilə nəqş edilmiş roman yazıb, sevənlərinə əmanət qoyub. Biz bu ürəkdən gələn yazıları oxuyanda, sanki orada onlarla birlikdə Vətən Müharibəsində canımızla qanımızla iştirak edirik. Elgün bəhs etdiyi Şamaxı batalyonundakı döyüş yoldaşlarından ayrılıb, ön cəbhəyə, yəni qaynar nöqtələrə göndəriləndə, yuxarıda qeyd etdiyimiz dəftərini yanında götürməmişdi. Əgər götürmüş olsaydı və çox çətin şəraitdə irəliləmək problemi olmasaydı, burada da qeydlər apardı. Onun sonrakı günlərdə yaşadığı cəbhə xatirələrini isə artıq bir ömür yaddaşında yaşadacaq döyüş yoldaşlarından dinlədik. Elgünün hər addımı bir nümunədir.

Elgün hər xatirədə, hər mətndə, hər sözdə insana güzgü təsiri bağışlayır. Hərdən mənə elə gəlir ki, mən onunla uzun illər dost olmuşam. O, mənim doğmalarımdan biridir.

Öz-özümə deyirəm ki, həyatdır da, birlikdə xatirələrimiz olmayıb, qarşımda Elgün haqqında danışan insanları bu qədər kövrəlib, göz yaşları içərisində dinləyib, yazıram bu yazıları, bəs onun anası, atası, bacıları, dostları? Mən onlar qədər onu tanısaydım, şəxsiyyətinə bu qədər bələd olsaydım, yaxın olsaydım, Elgünümüzün bu ayrılığına necə dözərdim?! Amma

mənim bir sözüm var: *“Nə yaxşı ki, axirət var”*. Bəli, nə yaxşı ki, axirət var, itirdiyimiz sevdiklərimizlə inşaallah, cənnətdə görüşəcəyik.

Bir dəfə Şəki Hafizlik Kollecinin rəhbəri ilə Elgünün doğulduğu evdə ziyarətdə olanda anidən dilimdən bu kəlimələr çıxdı: “*Elgün üç tarixi məkanda uca rütbələrə yüksəldi – Şamaxıda doğuldu, Şəkidə hafizlik rütbəsinə, Şuşada isə şəhidlik zirvəsinə yüksəldi*”.

Elgün və timsalında bütün şəhidlərimizin ali məramı, xatirəsi, müqəddəs adı qarşısında baş əyirəm. Ruhları şad olsun.

**Akif Hüseyinov**



## Onunla ilk dəfə

Ana həyəcan içindədir. Övladı son dəfə buralardan keçmişdi. Bax, buradan, elə bu səngərdən çıxmışdı. Zəfərə aparan səfərə... Ətrafa göz gəzdirib, köks ötürdü. İçinin ünyetməzliyində "Elgün heeeeyy!" çağırdı. Bəlkə yüz yerdən cavab gəldi, bəlkə də min yerdən... Bütün təbiət ananın səsinə hay verdi. Nəfəsini duymuş otlar, ayağı dəymiş cığırlar, baxışlarının şəklini çəkmiş sular...

Ana, torpağın bağrına şırım kimi çəkilmiş səngərlərə baxıb, üşəndi. Yaralamışdılar... Uralamışdılar... Paralamışdılar... Bu geniş yaralara səngər adını vermişdilər. Ana ilk səngərin divarlarında oğlunun əlinin izlərini qoxuladı. Şəhadət barmağı ilə "**ya leytəni kuntu turabə**" yazmışdı. Hər tərəfdən bala gözləri təbəssümlə süzürdü ananı, əbədi olaraq burada keşikdə qalmış bala gözləri... Onların ruhu qarşıladı ananı. Biri lap Elgünün qoxusuna qonşu idi. Ana onu da sığalladı. Bu hərarətdən xoşhal olan ruh pıçıldadı:

"Onunla ilk dəfə bu səngərdə qarşılaşdım. Suyum bitmişdi, yanırdım susuzluqdan. Ətrafımda olan bütün əsgərlər elə həmin gün gəlmişdi. Heç kim biri-birini tanımırdı. Qarşıma ilk çıxan Elgün oldu, su istədim. Əvvəlcə yığılıb açılan bir stəkan çıxardı, su ilə yaxalayıb, ağzına kimi süzüb mənə uzatdı. Qəribə idi, axı burada hər kəs mataranı və ya plastik butulkanı başına çəkir. İçib, stəkanı qaytardım. Özünə də yarım stəkan su süzüb içdi. Diqqətlə üzünə baxaraq "-Qardaş sən nə yaxşı hamı kimi butulkanı başına çəkmirsən?"-soruşdum.

Gülümsündü, "başıma çəksəm ehtiyacı olan yoldaşlarıma su verə bilmərəm axı" -dedi.

Ana içində "mənim balam comərddi, varını bölüşəndir" -dedi. Göyə baxdı. Topa ağ buludlar əlçim-əlçim dolaşırdı. Elə bil səmanın əsgərləriydilər, qarovul çəkirdilər. Bir mələk sarvan kimi yedəyinə alıb aparırdı bu bulud karvanını. Haradasa əllər göy qübbəsinə açılıb yerin-göyün sahibindən su istəmişdi. Xaliqi-zülcəlal da rəhmətini göndərirdi.

Şükür elədi ana... suyun sahibinə şükür eliyərək irəliyə doğru bir addım atdı, səngərdən irəli... Onillərdən sonra ilk dəfə oğullarının qədəm basdığı yerə... Ciyərparalarının canını yurda bağışladığı torpağa... Torpaq həyəcanlandı. Damarları qızışdı. Təpələr diz çökdü, dağlar baş əydi. Kövrəldi torpaq, ürəyinin qanı gözünə vurdu. Anası gəlmişdi. Ayağının altına uzandı. Qədəmlərini öpdü. "-Oğlun mənim balam olan gündən mən sənin balan oldum"-dedi.

Gözü işlədikcə boylandı ana. Əlini gözünün üstünə kölgəlik edib boylandı. Hər nöqtədən bir baxış işardı, hər təpədən bir səs ucaldı: "-xoş gəlmisən, Ana!"- dedilər. Sevindilər, bağrına sığındılar, onun ağ saçlarını öpdülər. Günəş kimi parlaq üzləri gözlərinə işıq verdi ananın. Biri hamısı əvəzdən "qulağımızdakı son səs Elgünün səsidir"- dedi. "Hələ də yanımızda Quran oxuyur"- o birisi dilləndi.

Kövrəldi. Başını qaldırıb buludlara baxdı. Həya etdi gözləri, yaşı uddu. Qoç göndərib İsmaili qurban olamaqdan xilas edən Allah, bulud göndərib anaların göz yaşlarını yağış olmaqdan qurtarıb. Yoxsa çölləri içirtmək yükü də anaların çiynimə düşərdi. Su ümiddir, Quran yoldur.

- Quran qəlbi idi mənim balamın- pıçıldadı -Hökm sahibindən başqa könlündə kimsə yoxdu. Surələr çırağı, Ayələr cığırı idi.

Elgünün uşaqlığı gəlib keçdi xəyalından. Doğulduğu gün... məktəbə getdiyi gün... Mədrəsəyə oxumağa getdiyi gün... Ana çox təsirlənmişdi o gün, çox... Övladını gözündən uzağa qoymaq istəmirdi. Amma oğlunun Allah sevgisi, Quran öyrənməyə olan həvəsi ananı yumşaldır, ona ümid verirdi. Nigaran idi. Amma mane ola bilmirdi. Çünki yol yiyəsi ilə qul yiyəsi bir idi. Yol qulu çəkmişdi. Qul yola düşmüşdü.

Ana Elgünün evdən uzaqda yaşadığı illərə qayıtdı. O iki il onu yaşından irəli çəkmiş, böyütmüş, müdrikləşdirmişdi. O illər Elgün Allahın verdiyi vasitələrlə özünü yaradırdı. Əslində, o vasitələrdən aşağı -yuxarı, az ya çox hamıda vardı, amma hər kəsin karı deyil axı özünü icad eləmək. O, özünü kəşf edə-edə hörürdü, qururdu, inşa edirdi. Bir insan inşa edirdi.

Sonra ömür binasını rəngləməyə başladı. Bu rəngsazın əsl adı Tələbə idi. Sonra o tələbə Tarix müəllimi oldu. Bu, Haqqdan gələn cüzi ixtiyarla yaratmaq hissiyyatından doğurdu. İndi də o, gələcəyi inşa etmək istədi.

Müharibə birdən başladı. Arzularının yönü dəyişdi. Yox! İstəməzdi müharibə olsun, amma gələcəyə yol onun içindən keçirdi. Bir məqsəd alovlanırdı qarşısında, bir qisas ağlayırdı. Onun uşaqlıq duyğularını bu hiss sərtləşdirmişdi.

Ana, uzun-uzun düşündü. Əllərini sinəsinə qaldırıb, ovuclarını açıb, dua etdikdən sonra yoluna davam elədi. Elgün bu yolla getmişdi. Ayağını qoyduğu çəmən şəhid anasının gəlişinə sükut etdi. Otlar sayğı duruşunda qarşıladı. Önündə baş əyən çiçəklər ətir ərmağanı edərək "bizi sevdi, üzməzdi, əzmədi" -dedilər.

- İncə ruhluydu mənim balam, üzməzdi, əzməzdi...- pıçıldadı ana. Yan-yörəsinə nəzər saldıqca köksü genişləndi. İrəlilədi, yoluna davam elədi. Addımladıqca əsgərimizin nəfəsiylə süslənmiş meh oxşayırdı çöhrəsini, qoynuna dolurdu. Bu, şəhidlərin ana sevgisiydi bəlkə də...

Xeyli getdi, Elgünün izilə getdi. Gəlib bir çay yatağına çıxdı. Bayaqdan şaqqanaq çəkib dərəboyu yellənən sular dayandı elə bil. Nəsə pıçıldayırmış kimi xısınlaşdı. Ana çöməlib əlini ehtiyyatla suya vurdu, o qədər ehtiyatla ki, sanki Elgünün qəlbidir, qırıla bilər. Sular ötən ilin payızında Elgünün burdan keçdiyi haqqında şərqi zümzümə edirdi. Çaya endiyini, burada dəstəmaz aldığını, dualar etdiyini pıçıldayırdı. Gözləri doldu ananın, ürəyi əsdi. İslanmış əllərini üzünə çəkəndə içindən bir titrətmə keçdi, tükləri biz-biz oldu. Elgünün qoxusu gəldi burnuna. Dərindən nəfəs çəkib o qoxunu içində saxlamaq istədi. Elə bu vaxt yaxınlıqdakı koldan pırıltı ilə bir sərçə uçub, suyun içindən dikəlmiş daşa qonub cikkildədi. Ətrafa səs saldı. Onun çağırışına bir neçə sərçə gəldi və uçub qondular ananın ayağının ucuna. Bu qəribəliyə çöhrəsində təbəssüm yarandı şəhid anasının. Ana sərçə müharibədən necə salamat çıxdıqlarından söhbət açdı: “Balalarım yumurtadan təzə çıxmışdı müharibə başlayanda. Hər yer od-alov içində idi. Qorxumdan yuvamdan çıxa, yem dalınca gedə bilmirdim. Hamımız pərişan idik. Balalarım aclıqdan öləcəkdi. Elə son nəfəsdə  həzrəti Hızır peyda oldu. Onu göndərən vardı. Öz çörək payını xırdalayıb yuvanın ətrafına tökəndə yoldaşları “Elgün!” deyə çağırdılar. Dönüb getdi. Arxasınca baxdıq. Geri baxmamağından anladım ki, özünün göndərən yox, gətirən olduğunun dərkindədir. Mən o dərkin yuvasının qoxusundan tanıdım səni ana”

Üzündəki təbəssüm dərinləşdi, içində genişlik yarandı -Allahı sevərdi mənim balam, bütün yaradılmışları da onun üçün sevərdi- dedi.

Və irəlilədi ana, qarşıdakı dağın yaşıl döşüylə üzü zirvəyə doğru dikəldi. Qalxdıqca təbiət parlaqlaşdı, şəhid anasının hərarətiylə isindi. Kəpənəklər gəlişinə şənləndi, kəkliklər ötdü, şahinlər qıy verdi. Buraların çiçəyi də, böcəyi də, quşu da, daşı da məhəbbətlə qarşıladı şəhid anasını, şəhid Elgünün anasını, hafiz Elgünün...

Yamaclarda addım atdıqca torpaqdakı mərmi çuxurları, döyüşmək üçün oyuqlar, paslanmış gilizlər buralarda baş verənlərə güzgü tutur. Ana o güzgüdə oğlunu görür, onun fədakarlığını seyr edirdi. Ətrafa səpələnmiş taxta paletlərə baxıb kövrəlir. Elgünün bunların üstündə yatdığını fikirləşdikcə ürəyi şan-şan oldu. Ana hissiyyatı tarıma çəkilir. Amma, "yaş torpaq üzərində yatmaqdansa, elə bu taxtaların üzərin-



də gecələmək yaxşıdır" - fikri keçdi içindən. Özüylə dərdləşə-dərdləşə lap dikdəki qayaya çatdı. Əlini çopur sinəsinə toxundurdu, üstündəki güllə izlərini qabarlı barmaqları ilə sığalladı. Sanki, qaya yaralanıb sızıldayır, ana da övladı kimi başı ucunda ovundururdu onu. Baxdı ana, baxdı, baxdı... Qayanı dinlədi, dinlədi, dinlədi...

Kövrəldi qaya, ürəyini tökmək istədi vətənin anasına, danışmaq istədi: "Otuz il mən öz dağımda yad oldum, ana, öz elimdə yad qapısında qaldım. Otuz il talandım. Otuz il sevgiyə möhtac oldum, ana, üşəndim, çimçəndim. Bağrıma dağlar çəkdilər, sinəmə nifrət qusdular. Otuz il mənliyim uralandı. Yaddaşımı oyub çıxardılar, ruhumu əsir etdilər. Amma, kor qalmış gözlərim yollardan yığılmadı. Bilirdim, kökümün olduğu torpağın sahibləri gələcək. Bilirdim bu dağlara bir də günəş doğacaq.

Və... günlərin birində sinəmə bir kürək söykəndi. Ürəyinin tıppıltısı oyatdı məni, səksəndim, ayıldım. Baxdım ki, göylə yerin arası qırmızıya boyanıb, ana, mavi səma ilə yaşıl çəmənlərin arasına qan çilənib, bizə azadlıq gətirənlərin qanı...

Ana oğlunun gündəliyində yazdığı ilk cümləni xatırladı: "Tarix müəllimi ola bilmədim, amma bəlkə tarix yazdım"- pıçıldadı, bu qayanın qulağına.

Hə, ana, hə! Bir Elgün keçdi buradan. Onu yol sahibi keçirdi bu dağlardan. Allah Quranı onun qəlbində gəzdirdi, buraları təmizlədi, pakladı tapdaqdan qurtulmuş yurdları, nurlandırdı. Onun vəzifəsi bu idi, ana. Allah otuz il zülmətdə qalmış yurdlara onunla nurunu göndərmişdi.

Sonra Elgün bax o zirvəyə getdi, o zirvəyə... Ordan hər yer görünür, hər yer... Ana önündə ucalan əlçatmaz zirvəyə

baxdı və bir neçə addım atdıqdan sonra o zirvənin bir yerinə qədər ucaldı, amma bundan o yana yol yoxdu. Daha doğrusu burdan sonra hər kəs öz yolunu açır. Dönüb gəldiyi yerlərə baxdı. Baxışı Şirvana -Göylərə qədər uzandı.

Göydə idi. Yerə baxırdı. Əlçim-əlçim ağ buludları bir mələk yedəyinə alıb yerin üstündə gəzdirirdi. Birdən Vətən boydan-boya gözləri qarşısında işıqlandı. Və yeri-göyü titrədən bir səs ucaldı:

Məni sənin oğlun xilas elədi, ANA, sənin oğlun xilas elədi!

**Vasif Qurbanzadə**
*Yazar*



## Tarixə çevrilən tarix müəllimi

Müharibə təkcə iki ordunun savaşı deyil, həm də təmsil etdiyi xalqların insanlarının daxilindəki hisslərin çarpışmasıdır; kədərlə sevincin, üzüntüylə ümidin, məğlubiyyət travmasıyla qürurun bir qəlbin içərisində meydan döyüşüdür. Bunu biz xalq olaraq iki dəfə yaşamışıq.

Biz ölkədə "1990-cı illər" nəslinin övladları olaraq iki müharibənin təsirini, ağrı-acısını, qürurunu qəlbimizdə daşıyırıq. Birinci Qarabağ savaşında bəzilərimiz dünyaya yenicə göz açmışdıq, bəzilərimizin üç-beş yaşı var idi, bəzilərimiz hələ doğulmamışdıq. Eyni yaş nəslinin övladları olaraq hansımızın nə zaman doğulmağımızdan asılı olmayaraq, kəndimizdən, şəhərimizdən, ətrafımızdan övladı müharibədə yaralanan, şəhid olan, itkin düşən yüzlərlə ailə var.

Eyni xalqın övladlarıyıq, eyni mədəniyyətin daşıyıcılarıyıq, eyni milli qürura sahibik. İgid övladlarını itirən ailələrin ağrı-acısına hamımızın ailəsi şahid idi, şərik idi.

Mənim Birinci Qarabağ Müharibəsi zamanında iki yaşım var idi. Həyatın neçə rəngdən ibarət olduğunu bilmirdim. Hələ yeni dil açdığım zamanlarda "müharibə" sözünü valideynlərimin dilindən eşitməyə başlamışdım. O zaman müharibənin mahiyyətini dərk etməyim isə imkansız idi. Ancaq onun nəticələrindən doğan ağrı-acıyla sonralar bilavasitə tanış olmağa başladım. Bunu mühit tələb edirdi.

Kənddə iki evimiz olub. Birinci evimizin yerləşdiyi məhəllədə bir kişi vardı, Nadir müəllim. Biz ona Nadir baba de-

yirdik. Mən onu üç yaşımdan sonra tanımışam. Hər səhər anam əlimdən tutub bağçaya aparanda, axşamçağı bağçadan gələndə Nadir babayla yolda rastlaşardıq. Yaxınlaşan kimi əlindəki konfet, şokolad, müxtəlif şirniyyatları mənə təqdim edir, qucalayıb, göz yaşları içərisində bizdən ayrılırdı. Demək olar, hər gün Nadir babayla bu şəkildə əvvəl bağçaya, sonra məktəbə gedəndə, qayıdanda qarşılaşırdıq. Hər dəfə eyni hallar təkrar olunurdu; Nadir baba bizi görən kimi əlində bir torba şirniyyatla yaxınlaşır, təqdim edir, məni qucaqlayıb ağlayır və sağollaşıb gedirdi. Nadir babayla birlikdə anam da göz yaşlarına sahib ola bilmirdi. Hə, bir də hər dəfə təkrarladığı sözlər var idi: *"Sən mənim Sahibimsən. Mənim Sahibim ölməyib, o, uşaq cildinə girib, yenidən dünyaya gəlib"*.

Bu insanın mənə qarşı münasibətinin və göz yaşlarının səbəbini həmişə öz uşaq beynimdə çözməyə çalışırdım. Nə vaxt anamadan soruşsam, *"Nadir baba səni çox istəyir, ona görə belə edir"* deyirdi.

Mən ibtidai sinfin dördüncü sinfində oxuyanda biz həmin evi satıb, başqa məhəllədə yeni ev tikib, ora köçdük. Nadir bababnı artıq gündə iki dəfə deyil, sadəcə məktəbdən çıxışında bir dəfə görürdüm. Günorta məktəbdən qayıdanda görüşürdük, şirniyyatları verib, adəti üzrə məni öpüb, qucaqlayıb, göz yaşları içərisində sağollaşırdı.

Bir gün Nadir babayla məktəb çıxışında qarşılaşmadıq. Həmin gün qəribə hisslər keçirmişdim. Axı Nadir babanın məktəb günlərində hər gün mənimlə rastlaşması gündəlik "dini ayin"ə çevrilmişdi. Ötən illər ərzində bağçaya ayaq açdığım günlərdən etibarən, orta məktəbin ibtidai siniflərinə kimi bir neçə ili əhatə edən gündəlik qısa görüşlərimiz olmuşdu. Bu görüşlər mənim uşaq hafizəmin ən təsirli xatirələrindən

idi. O, məni şirniyyatlarıyla sevindirmişdi, mən onun göz yaşlarına şahid olmuşdum.

İllərlə bu adama, bu qarşılaşmaya alışmışdım. Bu gün isə bu ayin pozulmuşdu. Kənd insanları yaxşı bilir, kəndlərdə həyətin giriş qapısı (darvaza) evdən bir az uzaq olur. Hər gün məktəbdən gələndə darvazanı açıb, həyətə daxil olanda anam məni qarşılayardı. Bu gün anam da məni qarşılamadı.

Evin qapısını açıb içəri keçəndə gördüm anam süfrənin kənarında əyləşib, ağlayır. Səbəbni soruşdum, heç nə demədi. Məndən bir az sonra atam gəldi. Gələn kimi ona bu günün həmişəki kimi olmadığını, Nadir babayla qarşılaşmadığımı dedim. O, isə öz növbəsində, Yəqin, bu gün işi olub, gəlib, çata bilməyib" deyə cavab verdi. Ancaq sonrakı günlər də belə oldu və o gündən etibarən Nadir babayla heç qarşılaşmadıq.

Yuxarı siniflərdə oxuyanda öyrəndim; Nadir babanın üç oğlundan biri, Sahib adlı oğlu var imiş. Birinci Qarabağ müharibəsində könüllü iştirak edib. Müharibədən sonra nə ölüsündən, nə dirisindən heç bir xəbər olmayıb. Adı itkinlər siyahısına düşüb. Sonradan döyüşçülərin dediyinə görə, Sahib İsmayılovun xidmət etdiyi taborun yerləşdiyi əraziyə raket düşüb, bütün tabor yanıb, külə dönüb, sadəcə bircə nəfər sağ qalıb. O da tabora ərzaq, su daşıyan döyüşçü imiş. Həmin vaxt tabora ərzaq gətirməyə gedibmiş. Həmin döyüşçü illərlə taborun döyüşçülərinin ünvanlarını axtarıb, tapdıqca ailələriylə görüşüb, məlumat verirmiş ki, övladlarınızı gözləməyin, bütün tabor döyüşdə həlak olub, yanıb, külə dönüb.

Bəs Nadir baba? Nadir baba kəndin orta məktəbində müəllim işləyirmiş. Üstəlik, kəndin nüfuzlu, xüsusi hörmət bəslənən sakinlərindən biri imiş. Oğlundan sonra içkiyə qurşanıb, məktəbdən ayrılıb. İllərlə övladının yolunu gözləyib. Taborun yeganə sağ qalan döyüşçüsü, Nadir bababın gözü

yol çəkən illər boyu onun ünvanını axtarıb. Nəhayət, mən onunla qarşılaşmadığım gündən iki-üç gün öncə ünvanı tapıb. Gözlənilməz qonağın döydüyü qapını Nadir baba açıb. Oğlunun şəhidlik xəbərini alıb və arxayınlaşıb. İki gün sonra da oğlunun ruhunun yaşadığı dünyaya köç edib.

Sonralar anam mənə bir şəkil göstərdi. Nadir baba veribmiş. Oğlu Sahibin uşaqlıq şəkli idi. Öz uşaqlıq şəkillərimlə yan-yana qoyanda seçilmirdi, çox oxşayırdıq. O zaman anladım ki, Nadir baba hər dəfə yolda mənlə qarşılaşanda, əlindəki şirniyyatları təqdim edib, məni öpüb, qucaqlayıb, göz yaşları içərisində evlərinə tərəf gedəndə niyə *"Sən mənim Sahibimsən. Mənim Sahibim ölməyib. O, uşaq cildinə girib, yenidən dünyaya gəlib"* deyirdi. Adımız da eyni...

Birinci Qarabağ müharibəsi bizə pozitiv heç nə qazandırmamışdı. Bir tərəfdən Qarabağ mənfur düşmənlərimiz tərəfindən işğal olunmuş, bir tərəfdən soydaşlarımız öz ata-baba yurdlarından didərgin düşmüş, digər tərəfdən o torpaqları azad etmək uğrunda xalqımızın minlərlə qəhrəman övladı döyüşüb, şəhid olmuş, itkin düşmüşdü. Bu müharibənin travması sonrakı nəsillərin hafizəsində qalmaqda idi.

Ötən 28 illik atəşkəs dövründə Qarabağla bağlı keçirilən görüşlərin, aparılan danışıqların nəticəsiz olması xalqda inamsızlıq yaratmışdı. Hamı döyüş əmrini gözləyirdi, ancaq eyni zamanda o əmrin veriləcəyinə də ümidsiz idi.

İlk dəfə 2010-cu ildə Qarabağ cəbhəsini tək başına qət edib, onlarla düşmən dəstəsiylə tək döyüşüb, bu uğurda həlak olan Azərbaycan ordusunun giziri, Milli Qəhrəman Şəhid Mübariz İbrahimovun cəsarəti bütün dünyaya səs saldı. Tariximizdə Mübariz adlı bir qəhrəmanın cəsarətini canlandırdı. Və sübut etdi ki, bu xalqın Qarabağla bağlı ümidləri qismən zəifləyib, amma ölməyib. 2016-cı ilin Aprel döyüşləri ölə-


SDU MƏZUN

ziyən ümidlərə yenidən qığılcım verdi. 2020-ci ilin İyul döyüşləri və bu döyüşlərdə ordumuzun general-mayoru, Milli Qəhrəman Şəhid Polad Həşimovun şəxsiyyəti və şəhadəti bütün ümidləri doğrultdu, xalqın döyüş əzmini nümayiş etdirən meydan birliyini əks etdirdi.

İkinci Qarabağ müharibəsi həm iki ordunun, həm də ordumuzun təmsil etdiyi Azərbaycan xalqının öz daxilindəki hisslərin savaşı idi. Bu müharibə də kədər də var, kədərlə yanaşı sevinc də. Qurban verilən oğulların ağrı-acısı da var, onların döyüşüb əldə etdiyi milli qürur da. Qarışıq hisslər, ağır travmalar da var, azad olunan doğma yurdlarımızda bərpa edilməkdə olan kəndlərin, şəhərlərin gözəl mənzərəsi də.

İkinci Qarabağ müharibəsi həm də Azərbaycan xalqının son bir əsrdə zəfər qazanıb, torpaq azad etdiyi ilk meydan savaşıdır. Bu müharibə bizim milli qürurumuzun, milli şüurumuzun, milli mədəniyyətimizn varlıq mücadiləsidir. Bu uğurda canını fəda edən oğullar isə ilk səhifələri zəfərlə başlayan yeni tarixin qurucularıdır.

Bu savaşı əsnasında cəbhədə döyüşənlər üçün təşkil olunmuş sovqat aksiyalarının təmsilçiliyində bir neçə dəfə müharibəni canlı izləmək imkanım olmuşdu. Gördüyüm mənzərədən gəldiyim nəticə budur ki, ön cəbhəylə, arxa cəbhə seçilmirdi. Sanki hər kəs bir fikir, bir düşüncə, bir amal uğrunda eyni cəbhədə birləşmişdi.

Bir tərəfdən yaralanan, şəhid olan vətən övladlarının ağrı-acısı, digər tərəfdən onların bənzərsiz cəsarətinin nəticəsində ard-arda əldə olunan zəfər müjdələri xalqın digər sakinləri kimi məndə də qarışıq hisslər yaratmşdı. Doğrusu, biz bilmirdik o vəziyyətdə üzülək, yoxsa sevinək.

Müharibənin görünməyən, ayrı-ayrı televizya çəkilişlərində, müsahibələrdə döyüşçülərin öz dillərindən səsləndirdiyi cəbhə mübarizəsi, qəhrəmanlıq nümunələri və qazi, şəhid ailələrinin öz övladları haqqında ürək sözləri idi. Bu elə bir tarixi faktdır ki, haqqında danışılan xatirələr, qəhrəman oğullarımızın nümunəvi şəxsiyyətləri, döyüş əzmi haqqında yazılar, alınan müsahibələr, çəkilən filmlər illərlə davam edəcək. Belə bir məşhur ifadə var: *"Müharibə ədəbiyyata və incəsənətə təkan verən aktlardan biridir"*.

Müharibə dövründə bir neçə qəhrəmanımız haqqında kiçik həcmli yazılar yazmışdım. Gündəlik efirlərdə, mətbuatda qazilərin, şəhidlərin xatirələrini dinləyirdim, şəhid atalarının, analarının səs yazılarını dinləyirdim.

Şəhidlər – eyni amal uğrunda canlarını fəda etmiş eyni zirvəni bölüşən ali şəxsiyyətlərdir. Onlar milyonlarla insanın milli qürur daşıyıcılarıdır. Qəhrəmanlar xalqın sərvətidir.

Bizim üçün bütün şəhidlər eynidir. Onların valideynlərinin kədəri bizim kədərimizdir. Ancaq səmimiyyətin ən üst mərtəbəsində müəyyən istisnalar ortaya çıxır. Bu hadisələr evimizn içində baş verəndə, yaşadığımız hisslər ümumidən xüsusiyə az da olsa, fərqlənir. Bunu yaşayan biri olaraq tam səmimiyyətimlə ifadə edirəm. Bu isə təbii haldır, ailəmizi təşkil edən doğmalarımız və ya dostlarımızla bağlı bizim daha çox xatirələrimiz olur, birlikdə keçirdiyimiz zaman, mənəvi baxımdan yaxınlıq olur.

Müharibənin ilk günlərində sovqat aksiyaları vasitəsilə cəbhəyə can atan, orada gördüyüm mənzərələri qələmə almağa çalışan, arxa cəbhədə şəhid valideynlərinin müsahibələrini dinləyib, mətnlər tərtib edirdim. 44 günlük vətən savaşının ortalarında özüm də bir şəhidin ailə üzvü kimi haqqında xatirələrdən danışan, müsahibələr verən şəxsə çevrildim.

Bu dəfə şəhadət günəşi mənim evimin pəncərəsindən doğmuşdu. Ailəmizin üzvü, həyat yoldaşımın qardaşı və mənim ən yaxın dostum Teymur Rəsulov müharibədə könüllü iştirak edib, Şuşa yaxınlığında şəhid olmuşdu.

Döyüş əsnasında boynundan asdığı boş gilizin içərisinə qoyduğu kiçik kağız parçasında mənim adımı və telefon nömrəmi qeyd edib, üzərinə yazmışdı ki: *"Mənə nəsə olsa, bu nömrəylə əlaqə saxlayın"*.

Teymurla son görüşümüz cəbhədə olmuşdu. O vaxt artıq biz eyni mərtəblərdə deyildik. Mən sıravi insan idim, o, isə şəhid. Onu son dəfə qucaqlayıb, bağrıma basıb, qoxusunu içimə çəkib, cəbhədən evlərinə gətirmişdim. Ailə üzvlərimiz və böyük bir izdihamın müşayətiylə dəfn etmişdim. Teymurun yoxluğu məni içərisindən çıxa bilmədiyim böyük bir uçurma sürükləmişdi. Heç cür barışa bilmirdim, təsəlli tapa bilmirdim.

Şəhid Teymur Rəsulov Azərbaycanın öncül elektrotexnika mühəndislərindən biri idi. Eyni zamanda ədəbi yaradıcılıqla məşğul olurdu. Şeirlər, esselər, publisistik məqalələr yazırdı. Hətta müharibədən öncə ilk kitabını çıxarmaq istəyirdi. Şəhadətinin üzərindən müəyyən zaman keçdikdən sonra Teymurun yazılarını toplamağa başladım. Qərara gəldim ki, qısa müddət ərzində bu yazıları kitaba çevirmək lazımdır.

Teymurun öz yazılarını topladıqdan sonra düşündüm ki, bu kitabın ikinci hissəsi də olmalıdır. Çünki Teymur bir daha dünyaya gəlməyəcək, bir daha şeir, esse, məqalə yazmayacaq. Onun yaradıcılığından əlavə qələmə alınmamış, ancaq onu tanıyanların, sevənlərin hafizəsində yuva salmış xatirələri, davranışları, bu xatirələrin timsalında heç bir bədii bəzəyə ehtiyacı olmayan, real ədəbiyyat təsiri bağışlayan şəxsiyyəti var. Onun xatirələri də ayrı-ayrı müsahibələr şəklində mətnə çevrilib, bu kitaba əlavə edilməlidir.

Aylarla davam edən bu proses nəticədə Şəhid Teymur Rəsulova, başqa adla Teymur Turana aid iki hissəli "Qürub Vaxtı" adlı bir kitabı meydana gətirdi. Bu kitabın mətnlərini tərtib edərkən keçirdiyim hissləri bir Allah bilir, bir də mən. Ancaq bu kitabın hazırladığı aylar ərzində qismən təsəlli tapmışdım. Dünya ədəbiyyatının tanınmış simalarından olan Dostoyevskinin məşhur bir izahı var: *"İnsan orqanizmində hansısa bir ağrı özünü ilk biruzə verəndə, insan ona qarşı mübarizə aparmağa başlayır. Müxtəlif təbii müalicə üsullarından, dərmanlardan istifadə edir. Öncə insan ağrıya güc gəlməyə başlayır. Həmin ağrı davamlı olduqca və insan onu ortadan qaldıra bilmədikdə mübarizəni kənara qoyub, ağrıdan zövq almağa başlayır. Teymur da mənim daxilimdəki ağrının və qürurun mənbəyi idi. Zamanla bu ağrını dəf edə bilməyəciyimi anlamışdım. Onun haqqında danışmaqla, müsahibə mətnlərini tərtib edib, kitab halına salmaqla bu ağrıdan zövq almağa başladım".*

Bu, elə bir hissdir ki, bir kitabın, onlarla mətnin sayəsində tükənməyəcək ağrısı var. Sən itirdiyin insanın da, onunla mənəvi bağlarının da, onun şəxsiyyətinin də, dostluğunun da, qəhrəmanlığının da, və nəhayət şəhidliyinin də fərqindəsən.

Zaman Teymur Turanın kitabından sonra mənə yeni bir təsəlli verdi. Günlərin bir günü Gəncliyə Yardım Fondunun əməkdaşlarından olan, vaxtilə universitetdə müəllimim olmuş dəyərli Fuad müəllim və Rüfət müəllim zəng edərək, bildirdilər ki, bizim bir kitab layihəmiz var. Bir şəhidin həyatını əks etdirən kitabdır. Əgər zamanın varsa, gəl, görüşək. Vaxt təyin edib, dəyərli dəvətçilərin görüşünə getdim. Məni şəhid haqqında çəkdikləri sənədli filmlə tanış etdilər, daha sonra aldıqları müsahibələri göstərdilər və bu müsahibələrin mətnə çevrilmiş versiyalarını təqdim etdilər. Düşünmədən, kitabın mətn tərtibatını öz üzərimə götürdüm. Bu mövzuda tərəd-

düd yoxdur. Qarşımızda bizlərin uğrunda canını fəda etmiş ali şəxsiyyət, şəhid qardaşımız var. Onun şəxsiyyətini, şəhadətini əks etdirən xatirələr mətnə çevrilib kitab, kitaba çevrilib gələcəyə ötürüləcək irs mahiyyəti daşımalıdır. Digər tərəfdən də daxilimdə artıq zövq almağa başladığım ağrı və bu ağrının qarşısında təsəlli tapacağım şəhid mətnləri.

Görüş əsnasında Gəncliyə Yardım Fondunun nəzdində fəaliyyət göstərən "Dəyər TV"-nin şəhidimiz haqqında çəkdiyi sənədli filmlə tanış olduqda təəccüb etdim. Bu filmi və şəhidimiz haqqında müxtəlif media orqanlarının onun valideynlərindən aldığı müsahibələri dinləmişdim. O müsahibələrdə iştirak edən atanın və ananın nurani siması mənim gözlərimin önündən getmirdi. Hətta arzu edirdim ki, bu şəhidin ünvanını öyrənib, bir gün vaxt, imkan olan kimi gedib, onun valideynləriylə görüşəcəm. O ananın əllərindən öpüb, onu qucaqlamaq, ali şəxsiyyətindən təsirlənmək arzum idi. Həyat əziz şəhidimizin və onun valideynlərinin simasını yenidən mənim gözlərimin önünə gətirmişdi.

Dəyərli Rüfət Şirinovdan kitab üçün toplanan materialları götürüb, görüşdən ayrıldım. Bir neçə gün nə video materiallara, nə də mətnlərə baxmadım. Düşünürdüm ki, bu kitaba başlamazdan öncə mən o valideynləri görməliyəm. Elə o ərəfədə Qobustan qəsəbəsinə əziz Teymurumun baba ocağına qonaq getmişdim. Orada olarkən bir gün qərara gəldim ki, illərdir arzusunda olduğum görüşün zamanıdır. Qohumlardan birindən xahiş edib, onun maşınıyla Şamaxı rayonunun Göylər kəndinə yollandıq. Kəndin girişində kənd sakinlərindən dəyərli şəhidimizin ata ocağını soraqlaşıb, evlərinə getdik.

Həyətin giriş qapısında bizi şəhidimiz haqqında çəkilən müsahibələrdə iştirak edən, mənim də görüşmək arzusunda olduğum Vasif ata qarşıladı. Görüşdük, bizi evə dəvət etdi.

Sonra mübarək missiyanın sahibi, nurani simalı Qənirə ana təşrif buyurdu. Daha sonra bu evin oğul əvəzi, şəhidimizin bacısının həyat yoldaşı polkovnik-leytenant Seyran Məmmədov görüşümüzə gəldi. Onun birlikdə şəhidimizlə eyni adın daşıyıcısı böyük bacısı Günel xanımla görüşmək imkanımız oldu.

Nəhayət, mən şəhidimizin ata ocağında təsis edilmiş ev muzeyində, onun xatirəsiylə üz-üzə dayanmışdım. Qarşımda müxtəlif rəssamlıq, sənət üslubunda şəhidimizin simasını canlandıran rəsmlər, onun əşyaları, müsabiqələrdən qazanmış olduğu mükafatları, rəflərdə sırayla düzülmüş kitabları, üst rəflərdə xüsusi bağlamalarda qoyulmuş, müxtəlif tərtibatlarda Qurani-Kərim, hərbi geyimi, medalları, cəbhədə qələmə aldığı gündəlik və.s. nümunələrdən təşkil olunmuş, şəhidimizin həyatını, simasını, qəhrəmanlığını əks etdirən bir ev muzeyi vardı. Otağın abu-havası tam fərqli idi. Qarşılaşdığım mənzərə məni fərqli fikirlərin ağuşuna almışdı.

Mən bir neçə il öncə efirdən simasını görüb, xatirələrini dinləyib, görüşməyi arzu etdiyim üç insanın hüzurunda idim. Şəhid Elgün Quliyevin və onun mübarək valideynlərinin hüzurunda.

Muzeyi ziyarət etdikdən sonra Qənirə ana bizi çay süfrəsinə dəvət etdi. Daha sonra yemək gətirdi. Birlikdə xeyli zaman keçirdik. Qəhrəman Elgünün xatirələrini, tərcümeyi-halını, şəxsiyyətini onu dünyaya gətirib, boya-başa çatdırmış valideynlərinin dilindən eşitdim. Bu görüşdə dəyərli Qənirə ananın əllərindən öpüb, onu bərk-bərk qucaqlayıb, həssas qəlbindən təsirlənmək şansım da oldu. Və öz-özümə dedim ki, belə valideynlərin yetişdirdiyi övlad elə Elgün kimi bir şəxsiyyət olmalı idi.

Daha sonra dəyərli Seyran bəyin müşayiətilə Göylər kənd məzarlığına Elgünümüzü ziyarət etməyə getdik.

Məzarlıqda digər şəhidlərlə də tanış olduq. Göylər kəndi iki Qarabağ müharibəsində, hərəsində altı şəhid olmaqla, on iki şəhid verib.

Şəhid Elgün Quliyevin məzarı yerləşən dəmir məhəccərlərə yaxınlaşdıqda yanaşı iki məzarla qarşılaşdıq; üzərində Şəhid Elgün Quliyevin və nənəsi Nadya xanımın adları yazılmış qəbir daşları olan iki məzar.

Elgün nənəsini çox sevirmiş. Hətta uşaqlıqdan axşamlar onun yanında yatarmış. Həyat nənəsinin vəfatından sonra cəmi iki il onları bir-birindən ayrı salıb, sonra yenidən birləşdirib.

Görüşdən sonra evə gəlib bir neçə gün ancaq mənə təqdim edilən filmi izlədim, müsahibələri dinlədim, mətnləri oxudum.

Sözün həqiqi mənasında Elgünün ali şəxsiyyətinə heyran qaldım. Eyni zamanda Elgünə bağlanmışdım. Onu mənə insanlığından, şəhidliyindən əlavə doğmalaşdıran başqa səbəblər var.

Nədir bizi birləşdirən səbəblər? Elgünün tərcümeyi-halıyla tanış olduqda sonra bildim ki, biz ikimiz də eyni dini təhsil müəssisəsində təhsil almışıq. Elgünün dini təhsil aldığı Şəki İslam Kollecində mən də ondan dörd il öncə onunla eyni hafizlik kursu üzrə oxumuşdum. Hətta eyni orta məktəbdə, Şəki şəhər 18 saylı məktəbdə təhsil almışıq. Bəli, bu məlumatları oxuduqca anladım ki, bizdə eyni mühitlərin təsiri var. Elgünlə yollarımız müxtəlif zamanlarda, eyni yerlərdə kəsişib. Ancaq sadəcə yollarımız kəsişib, təəssüf ki, tanış ola bilməmişik. Bəli, onu tanımadığıma təəssüf edirəm. Bizi birləşdirən digər səbəb isə haqqında danışılan xatirələrin vasitəsilə onun şəxsiyyətinə bələd olmağımdır. Teymurun kitabı üçün xatirə


QURAN HAFİZİ
TARİX MÜƏLLİMİ
ŞƏHİD
QULİYEV
ELGÜN
VASİF OĞLU
17.09.1992 - 09.11.2020

mətnləri hazırlayanda hansı hissləri yaşayırdımsa, eynisini bu kitabda da yaşadım. Teymurla, Elgün şəxsiyyətlərini qarşılaşdırdıqda, burada əksər xüsusiyyətlərin, sahib olduqları dəyərlərin eyniləşdiyini görürəm.

Şəhid Teymur Rəsulovun “Qürub Vaxtı” kitabının “Xatirələr” bölməsində öz xatirə yazımda belə bir ifadə işlətmişdim: “Teymur vətən uğrunda döyüşlərdə könüllü iştirak edib, şəhid olmasaydı da, o, şəhid idi”. Çünki müharibədən öncə də o şəhidlərdəki fədakarlığa, insanpərvərliyə, humanistliyə sahib olmuş, bu dəyərlərə uyğun yaşamışdı. Elgün haqqında da eyni fikirdəyəm, o, müharibədə iştirak etməyib, tarix müəllimi kimi arzuladığı ucqar kəndlərdən birində öz həyatına davam etsəydi, yenə də mənim üçün bir şəhidin sahib olduğu dəyərlərə sahibdir. Şəhid kimi yaşamışdı. Şəhid kimi fədakar, humanist, mərhəmətli, xeyirxah və dünyada çox az insanda mövcud olan bir həssasiyyətə sahib idi.

Biz Elgün və onun kimi insanların haqqında xatirələri, onların valideynlərinin, ailə üzvlərinin, dostlarının, onları tanıyan müxtəlif insanların dilindən nə qədər dinləsək də, oxusaq da bu, onların ali şəxsiyyətinə, məramına tərif verməyə kifayət etmir. Hətta bu xatirələri təkrar-təkrar neçə dəfə dinləməyimizdən asılı olmayaraq, bizlərə yorucu, eyni gəlməyəcək, hər dəfə yeni bir dəyərləri, fərqli xüsusiyyətləri ortaya çıxacaq. Elgünlərə verəcəyimiz yeganə tərif, o da təqribi məna ifadə edən status olaraq, “alicənab” ola bilər. Çünki alicənablığın tərifi yoxdur. Alicənablıqda doğulan mühit, verilən tərbiyə, təhsil rol oynayır, ancaq onun əsas tərkib hissəsi şəxsin özündə mövcud olur. Bu, alicənabların doğuşdan özləriylə birlikdə dünyaya gətirdikləri dəyərdir.

Mən bu mətnləri yazdıqca, həm də Şəhid, hafiz, tarix müəllimi Elgün Quliyevin yazdığı tarixi oxumağa başladım.

Bu yolda iki seçim var idi; arzuladığı ucqar kənddə tarix müəllimi kimi fəaliyyət göstərmək, tarix yazıb, ən yüksək zirvəyə yüksəlmək. Hər ikisi ali məramdır, müqəddəs vəzifədir. Elgün hər iki arzusuna çatdı. Sonda daha üstün olanını seçdi. Bir insan ömrünün əhatə etdiyi zaman çərçivəsində tarix müəllimi olmağı deyil, bir millətin varlığını əks etdirən sonsuz gələcəyə öz yazdığı tarixi bəxşiş etdi.

Elgün artıq yazılmış tarixi tədris edən müəllim deyil, o tarixin özüdür. Tarix müəllimləri öz şagirdlərini Elgünü və onunla eyni mərama xidmət edən qəhrəmanları tanış edir, öyrədir.

Əziz Elgünümüzün və timsalında bütün şəhidlərin xatirəsi sevgi və sayğıyla. Ruhları qarşısında baş əyirəm. Onları dünyaya gətirib, əziyyətlə boya-başa çatdıran valideynlərinin əllərindən öpür, təşəkkür edirəm.

**Sahib Altay**
*sosioloq, yazar*



## Şəhidlik haqqında

**“Allah yolunda öldürülənlərə** (şəhid olanlara) **“ölü” deməyin. Əksinə, onlar** (Allah dərgahında) **diridirlər, lakin siz bunu dərk etmirsiniz”.**

(Qurani-Kərim)

*“İki göz var ki, cəhənnəm atəşi onlara toxunmaz: Allah qorxusu ilə ağlayan göz və gecə boyu Allah üçün sərhəddə keşik çəkən göz”.*

(Həzrət Muhamməd əleyhissalam)

“Vurulup tertemiz alnından, uzanmış yatıyor,
Bir hilal uğruna, ya Rab, ne güneşler batıyor!
Ey, bu topraklar için toprağa düşmüş, asker!
Gökten ecdad inerek öpse o pak alnı değer”.

(Mehmet Akif Ersoy)

“Biz türkləriz... Vətənimiz başdan-başa yer kürəsi,
Bayrağımız al günəşdir, çadırımız göy qübbəsi”...

(Xəlil Rza Ulutürk)

Yarana məlhəmsə, mənim al qanım,
Al, o da sənindir, Azərbaycanım...

(Əziz Sultan)

“Bayrakları bayrak yapan üstündeki kandır,
Toprak, eğer uğrunda ölen varsa vatandır”...

(Mithat Cemal Kuntay)

“Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub qayasında bitərdim!”...

(Məmməd Araz)

“Ey şehid oğlu şehid, isteme benden makber,
Sana aguşunu açmış duruyor Peyğamber”

(Mehmet Akif Ersoy)

“Sahipsiz olan memleketin batması haktır,
Sen sahip olursan, bu vatan batmayacaktır”...

(Mehmet Akif Ersoy)

“Vətəni sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz”...

(Abbas Səhhət)

# ÇANAKKALE DESTANI

Şu Boğaz Harbi nedir? Var mı ki dünyâda eşi?
En kesîf orduların yükleniyor dördü beşi,
-Tepeden yol bularak geçmek için Marmara'ya-
Kaç donanmayla sarılmış ufacık bir karaya.
Ne hayâsızca tehaşşüd ki ufuklar kapalı!
Nerde -gösterdiği vahşetle- "bu: bir Avrupalı!"
Dedirir -yırtıcı, his yoksulu, sırtlan kümesi,
Varsa gelmiş, açılıp mahbesi, yâhud kafesi!

Eski Dünyâ, Yeni Dünyâ, bütün akvâm-ı beşer,
Kaynıyor kum gibi, tûfan gibi, mahşer mahşer.
Yedi iklîmi cihânın duruyor karşına da,
Ostralya'yla berâber bakıyorsun: Kanada!
Çehreler başka, lisanlar, deriler rengârenk;
Sâde bir hâdise var ortada: Vahşetler denk.
Kimi Hindû, kimi yamyam, kimi bilmem ne belâ...
Hani, tâ'ûna da züldür bu rezîl istîlâ!
Ah o yirminci asır yok mu, o mahlûk-i asîl,
Ne kadar gözdesi mevcûd ise, hakkıyle sefîl,
Kustu Mehmedciğin aylarca durup karşısına;
Döktü karnındaki esrârı hayâsızcasına.
Maske yırtılmasa hâlâ bize âfetti o yüz...
Medeniyyet denilen kahbe, hakikat, yüzsüz.
Sonra mel'undaki tahrîbe müvekkel esbâb,
Öyle müdhiş ki: Eder her biri bir mülkü harâb.

Öteden sâikalar parçalıyor âfâkı;
Beriden zelzeleler kaldırıyor a'mâkı;
Bomba şimşekleri beyninden inip her siperin;
Sönüyor göğsünün üstünde o arslan neferin.
Yerin altında cehennem gibi binlerce lağam,
Atılan her lağamın yaktığı: Yüzlerce adam.
Ölüm indirmede gökler, ölü püskürmede yer;
O ne müdhiş tipidir: Savrulur enkaaz-ı beşer...
Kafa, göz, gövde, bacak, kol, çene, parmak, el, ayak,
Boşanır sırtlara, vâdîlere, sağnak sağnak.
Saçıyor zırha bürünmüş de o nâmerd eller,
Yıldırım yaylımı tûfanlar, alevden seller.
Veriyor yangını, durmuş da açık sînelere,
Sürü hâlinde gezerken sayısız tayyâre.
Top tüfekten daha sık, gülle yağan mermîler...
Kahraman orduyu seyret ki bu tehdîde güler!
Ne çelik tabyalar ister, ne siner hasmından;
Alınır kal'â mı göğsündeki kat kat îman?
Hangi kuvvet onu, hâşâ, edecek kahrına râm?
Çünkü te'sis-i İlâhî o metîn istihkâm.

Sarılır, indirilir mevki'-i müstahkemler,
Beşerin azmini tevkîf edemez sun'-i beşer;
Bu göğüslerse Hudâ'nın ebedî serhaddi;
"O benim sun'-i bedî'im, onu çiğnetme" dedi.
Âsım'ın nesli...diyordum ya...nesilmiş gerçek:
İşte çiğnetmedi nâmûsunu, çiğnetmeyecek.

Şühedâ gövdesi, bir baksana, dağlar, taşlar...
O, rükû olmasa, dünyâda eğilmez başlar,
Yaralanmış tertemiz alnından, uzanmış yatıyor,
Bir hilâl uğruna, yâ Rab, ne güneşler batıyor!

Ey, bu topraklar için toprağa düşmüş asker!
Gökten ecdâd inerek öpse o pâk alnı değer.
Ne büyüksün ki kanın kurtarıyor Tevhîd'i...
Bedr'in arslanları ancak, bu kadar şanlı idi.
Sana dar gelmeyecek makberi kimler kazsın?
"Gömelim gel seni târîhe" desem, sığmazsın.
Herc ü merc ettiğin edvâra da yetmez o kitâb...
Seni ancak ebediyyetler eder istîâb.
"Bu, taşındır" diyerek Kâ'be'yi diksem başına;
Rûhumun vahyini duysam da geçirsem taşına;
Sonra gök kubbeyi alsam da, ridâ namıyle,
Kanayan lâhdine çeksem bütün ecrâmıyle;
Mor bulutlarla açık türbene çatsam da tavan,
Yedi kandilli Süreyyâ'yı uzatsam oradan;
Sen bu âvîzenin altında, bürünmüş kanına,
Uzanırken, gece mehtâbı getirsem yanına,
Türbedârın gibi tâ fecre kadar bekletsem;
Gündüzün fecr ile âvîzeni lebriz etsem;
Tüllenen mağribi, akşamları sarsam yarana...
Yine bir şey yapabildim diyemem hâtırana.

Sen ki, son ehl-i salîbin kırarak savletini,
Şarkın en sevgili sultânı Salâhaddîn'i,
Kılıç Arslan gibi iclâline ettin hayran...
Sen ki, İslâm'ı kuşatmış, boğuyorken hüsran,
O demir çenberi göğsünde kırıp parçaladın;
Sen ki, rûhunla beraber gezer ecrâmı adın;
Sen ki, a'sâra gömülsen taşacaksın...Heyhât,
Sana gelmez bu ufuklar, seni almaz bu cihât...

Ey şehîd oğlu şehîd, isteme benden makber,
Sana âgûşunu açmış duruyor Peygamber.

Mehmet Akif ERSOY

# ÇANAKKALE DESTANI

## Ya Karabağ, Ya Ölüm

Dünya duysun bu sesi, bu ses şarkın sesidir,
Peygamberin övdüğü, necip ırkın sesidir,
Bu ses Azarbayca'nın, bu ses Türk'ün sesidir,
Bu Ermeni tak etti, canımıza tak artık,
Ya Karabağ ya ölüm, başka yolu yok artık!

Karabağ'da kan var kan, ağlıyor Azerbaycan,
Karabağ'da karalar, bağlıyor Azerbaycan,
Kanlar karı eritti, çağlıyor Azerbaycan,
Vahşet bu, vahşet dünya, dön yüzünü bak artık,
Ya Karabağ ya ölüm, başka yolu yok artık!

İşte dünya atlası Karabağ Türk! Bitmişdir!...
AGİT`te kararında bunu tasdik etmişdir,
Ermeni vatanımı resmen gaspa gitmişdir,
Kainatın önünde benim alnım ak artık,
Ya Karabağ ya ölüm, başka yolu yok artık!

Plan şu: Karabağ'a önce özerk denecek,
Parlamento oylama, kahbelikler dönecek ,
Peşinden de Ermeni Karabağ'a konacak ,
Ondan sonra Ermeni kök salacak. Sök artık,
Ya Karabağ ya ölüm, başka yolu yok artık!

Karabağ'da kapkara bir destan yazılırken,
Savunmasız insanlar kurşuna dizilirken,
Bebeklerin başları taşlarla ezilirken,
Kimse bana diyemez dişlerini sık artık,
Ya Karabağ ya ölüm, başka yolu yok artık!

Genc, ihtiyar, kadın, kız, demeden kıyılmakta,
Kolları kesilmekde, gözleri oyulmakda,
Dalga-dalga semaya feryatlar yayılmakda,
Bir şehidin mezarı, bir taneden çok artık,
Ya Karabağ ya ölüm, başka yolu yok artık!

Televizyon veriyor, verince bakılıyor,
Mübarek Ramazan`da camiler yıkılıyor,
İftarda boğazıma lokmalar takılıyor,
Kardeşlerim ölürken bana hayat yük artık,
Ya Karabağ ya ölüm, başka yolu yok artık!

Nerdesin ehl-i İslam? Ey "Muhammet ümmeti"?
Sende mi görmüyorsun, bu zülmü vahşeti?
İşte gün vahdet günü, gerçekleşdir vahdeti,
Allah-u Ekber deyib tek yumruk ol tek artık,
Ya Karabağ ya ölüm, başka yolu yok artık!

Ermeni sürüleri kanımızı içecek
Sonra bir "ateşkes"le acımız mı geçecek?
Bu rüzgarı ekenler, fırtınayı biçecek!
Ozan Arif diyor ki, yaydan çıktı artık!
Ya Karabağ ya ölüm, başka yolu yok artık!

**Ozan Arif**

## Azərbaycan-Türkiyə

Bir ananın iki oğlu,
Bir amalın iki qolu.
O da ulu, bu da ulu
Azərbaycan-Türkiyə.

Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir
Azərbaycan-Türkiyə.

Bir millətik, iki dövlət
Eyni arzu, eyni niyyət.
Hər ikisi cümhuriyyət
Azərbaycan-Türkiyə.

Birdir bizim hər halımız
Sevincimiz-məlalımız.
Bayraqlarda hilalımız
Azərbaycan-Türkiyə.

Ana yurdda-yuva qurdum,
Ata yurda könül verdim.
Ana yurdum, ata yurdum
Azərbaycan-Türkiyə.

**Bəxtiyar Vahabzadə**

## Azerbaycan yüreğimde bir şahdamardır

Kuşluk vaktine kadar geceler boyu
Savrularak okuduğum yine Şehriyar
Ala ceylanlara benzer hep Azeri türküler
Dinlediğim tar

Ayrılmaz başımdan bırakmaz beni artık
Selamsız sabahsız bir efkar
Ve yüreğim bin yıllık destanlarla tutuşur
Büyür Azerbaycan kadar

Azerbaycan Dedem Korkut şafağı
Mübarek dilimi süt gibi sağar
Bazen rüzgar olur iliklerimde
Bazen yağmur gibi üstüme yağar

Geçen zaman üstüne dökülen kan üstüne
Kılıç – kalkan üstüne
Ve ağzı köpüren yeleli atlar üstüne
Benim bir yeminim var
Azerbaycan yüreğimde bir şahdamardır
Ben Yakup gibiyim uzun yıllardır
Onda Yusuf'umun kokusu vardır
Ve hasreti gönlümde büyük Türkistan kadardır
Ayettir kitabımda bayrağımda rüzgardır
Azerbaycan yüreğimde şahdamardır

Şimdi Azerbaycan'da mevsim bahardır
Türküleri yine, baştanbaşa efkardır
Düşlerime yağan kardır
Boynu bükük bir diyardır
Yardır
Ağzı köpüren atlar üstüne yeminim vardır
Azerbaycan yüreğimde bir şahdamardır

**Yavuz Bülent Bakiler**

## Tənha Məzar

Yolun kənarında tənha bir məzar
Üstündə nə adı, nə soyadı var.
Ey yolçu, masını əylə bu yerdə
Soruş kimdir yatan tənha qəbirdə?

O, bir türk zabiti, qəhrəman, mətin!
Doğma qardaşına yardıma gəldi.
Qırğına tutulan millətimizin
Haqlı savaşına yardıma gəldi.

Uzaqdan hay verib sənin səsinə,
Gəldi, qayıtmadı öz ölkəsinə.
Düşmən səflərini o, soldan sağa
Biçib dəstəsiylə cəbhəni yardı.
Torpağın yolunda düşüb torpağa
Sənin torpağını sənə qaytardı.

Özü qoruduğu, həm can verdiyi
Yolun kənarında dəfn edildi o.
Uğrunda canını qurban verdiyi
Torpağı özünə vətən bildi o.

Yolçu, masınını bu yerdə əylə
O məzar önündə sən təzim eylə.
Səcdə qıl, dua ver onun ruhuna
Ayaq basdığın yer borcludur ona.

**Bəxtiyar Vahabzadə**

*Şəhid Elgün Quliyevin əziz xatirəsinə ithafən.*

## Təbriz türküsü

Gün gələr, sovuşar bu ayrılıqlar,
Qəlbimiz böyüyər, sevincdən şişər.
Arazdan Xəzərə gələn balıqlar,
Bakı sahilində atılıb, düşər.

Qəhrəman ordunun ilk zəfərindən,
Ellər fərəhlənər sellər coşanda.
Arzular boy atar Xudafərindən,
Ümidlər qovuşar Suqovuşanda.

Gün gələr, Xocalı meşələrində,
Ətrini duyarıq yazın, payızın.
Ruhu gülümsəyər bizə uzaqdan,
Cisminə təcavüz olunan qızın.

Yenidən can tapar bu yer üzündə,
Ulu Kəlbəcərin bağı-bağatı.
Durub, şahə qalxar Cıdır düzündə,
Bənzərsiz, yenilməz Qarabağ atı.

Gələr Xankəndidən gözlənən xəbər,
Gedər sorağımız, çatar Laçına.
Nəhayət, Qarabağ adlı gözəlin,
Şuşa daraq çəkər qara saçına.

Gün gələr, anidən əvəz eləyər,
İtən həyəcanı, tapılan hüzur.
Öz övladlarını qarşılamaqçün,
Açar qollarını ana Zəngəzur.

Bir yandan hayqırar uyğur axını,
Görən zənn edər ki, tutub yolu su.
Bürünər büsbütün göy bayraqlara,
Göytürkün yenilməz Anadolusu.

Qoşular qırğızlar, qazaxlar, hunlar,
Özbəklər, qaşqaylar gələn axına.
Bir əlibayraqlı əsgər at çapar,
Səsləyər hamını Türkmən dağına.

Gün gələr, siyasət adlı oyunda,
Sənin də ey vətən, əlin gətirər.
Bir oğlan bir gözəl təbrizli qızı,
Təbrizdən Şəkiyə gəlin gətirər.

Gün gələr, sovuşar bu ayrılıqlar,
Gün gələr, deyərik: - Bu gün, o gündür.

**Sahib Altay**

*sosioloq, yazar*



# Mündəricat

Təqdimat ........ 9

## GİRİŞ

Giriş ........ 15
Dinimizdə şəhid və qazilik anlayışı ........ 18
Şəhidlərə qarşı vəzifələrimiz ........ 21
Bir şəhidin hekayəsi ........ 23

## I HİSSƏ
## Elgünün Gündəliyi

Şamaxı batalyonu ........ 45

## II HİSSƏ
## Elgünlü Xatirələr

**Ailə üzvləri**
Şuşanın qərənfilləri ........ 59
Qürurum, oğul! ........ 65
Elin günəşi ........ 76
Aramızdakı cənnət mələyi ........ 79
Qəhrəman qardaşım ........ 81
Şəhadət günəşi ........ 83

**Dostları**
Gülüşümüzün memarı ........ 88
Dostluq üçbucağı ........ 93

**Məktəb xatirələri**
Onlar bizdən böyükdürlər ........ 96
Sevimli şagirdim ........ 98

**Hafizlik xatirələri**


Şəhid hafiz Elgün Quliyev ........ 99
Mərhəmət abidəsi ........ 100
İki uca zirvə ........ 102
Nümunəvi tələbəmiz ........ 104
İki məqam sahibi ........ 105
Elgünün məndəki sirri ........ 108


**Döyüş xatirələri**


Məqsədinə çatdı ........ 112
Sonuncu zəng ........ 114
Eyni yol ayrıcında ........ 117
Zirvəyə yüksəliş ........ 120
Ədəb mücəssəməsi ........ 125


**İş yoldaşları**


Möhtəşəm insan ........ 126
Qardaş əvəzi ........ 128
Sərhədləri aşan səmimiyyət ........ 130


**Xatirələr davam edir**


Nə yaxşı ki, axirət var ........ 132
Onunla ilk dəfə ........ 137
Tarixə çevrilən tarix müəllimi ........ 144


**Şəhidlik haqqında**


Çanakkala destanı ........ 162
Ya Karabağ, Ya Ölüm ........ 164
Azərbaycan-Türkiyə ........ 166
Azerbaycan yüreğimde bir şahdamardır ........ 167
Tənha Məzar ........ 169
Təbriz türküsü ........ 170

# QEYD

**“Gəncliyə Yardım Fondu”nun hədiyyəsidir.**